**Könül Bünyadzadə**

# İslam fəlsəfəsi: tarix və müasirlik



**Bakı – 2010**

*Elmi redaktor:*
**Dr. Elmir Quliyev**

**K.Bünyadzadə**
**İslam fəlsəfəsi: tarix və müasirlik**
Bakı, Çaşıoğlu, 2010, – 154 səh.

Kitabda islam fəlsəfəsinin təşəkkülü, inkişaf mərhələləri və ən yeni dövrü nəzərdən keçirilir, əsas ideya istiqamətləri, İslamın gerçək potensialının bütün bəşəriyyət naminə üzə çıxmasını təmin edən mütəfəkkirlərin görüşləri təhlil edilir.

Araşdırma ideya tarixinin kəsilməzliyi prinsipinə uyğun olaraq islam düşüncəsinin keçdiyi tarixi yolun və onun ən yeni mərhələsinin ümumi mənzərəsini yaratmaq cəhdidir.

Kitab islamşünaslar, fəlsəfə tarixçiləri, tələbə və aspirantlar üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-27-251-2

© Bünyadzadə K., 2010

# *Ön söz*

*Orijinal ideyalar insanın ilahi aləmlə, ideyalar dünyası ilə əlaqəsinin bir dəlili, Mütləq İdeyanın* inkişaf xəttinin məqamlarıdır. Zəngin mənbənin bir zərrəsinin təzahürü olduqlarına görə də onlar bir çox ideyalar üçün başlanğıc ola bilirlər. Bu ideyaların inkişaf tarixi bir növ konsentrik çevrələri xatırladır. İllər, əsrlər keçdikcə ideyanın surətləri, əks-sədası mahiyyətdən daha çox uzaqlaşır və daha*

---

* Biz "Mütləq İdeya" istilahını heç də Hegel terminologiyası kontekstində deyil, ilahi ruhun vəhylə verilmiş məqamları və onun məntiqi təfəkkür məcrasına düşməsi prosesi kimi qəbul edirik. Mütləq İdeya – Mütləq varlığın bütün gözəlliklərinin, ucalığının, zənginliyinin və s. sifətlərinin, yəni həm maddi, həm də qeyri-maddi varlıqların ideyalarının tam olaraq ehtivası, varoluşun mahiyyətidir.

*geniş yayıldığına, həm də “səthiləşdiyinə” görə tədqiqatçıları da çoxalır, haqqında olan təhlillər də. Əlbəttə, bəzən orijinal ideyanın özünə, özəyinə qayıtmaq istəyənlər də olur və bununla sanki yeni konsentrik çevrələrin yayılmasına imkan yaranır.** [*]

*Bu gün informasiya bolluğu şəraitində nəyin orijinal, nəyin onun surəti, nəyin isə ümumiyyətlə əks-səda olduğunu təyin etmək çox çətindir. Üstəlik nəzərə alsaq ki, sonuncular daha çox səs-küyə səbəb olur, ictimai rəyə, qısa müddətli olsa da, daha güclü təsir göstərir, onda ilahi aləmlə bilavasitə əlaqəli olan və Mütləq Həqiqətin bir zərrəsi olan, ən əsası isə insanın öz mahiyyəti, mənəvi dünyası ilə üzvi şəkildə bağlı olan orijinal ideyaların kölgədə qalması təəccüblü görünməz.*

---

[*] Maraqlıdır ki, Seyid Hüseyn Nəsr də düşüncələrdəki bugünkü böhranı məhz mərkəz və çevrələr vasitəsilə şərh etməyə cəhd edir və müasir qərblinin tarixini insanın “Mərkəzdən və varlıq təkərinin çevrəsindən çubuqları boyunca hazırda oturduğu kənara mərhələ-mərhələ uzaqlaşmasının tarixi” adlandırır. (*Seyid Hüseyn Nasr*. Kenarla Eksen Arasında Çağdaş Batı İnsanı // İslam ve Modern İnsanın Çıkmazı. İstanbul, İnsan yayınları, 2004, s. 16-17)

*İslam – tarixdə böyük əks-səda doğurmuş və güclü təsirə malik orijinal ideyalardan birinin təzahürüdür. O, mədəniyyətə, tarixə, incəsənətə və bir çox başqa sahələrə dərindən nüfuz etməklə yanaşı, ən əsası, düşüncələrin, mənəviyyatların inkişaf istiqamətində həm bir sıra qaranlıq qatların işıqlanmasına səbəb ola bilmiş, həm də geniş üfüqlər açmışdır. Təsadüfi deyil ki, İslam mədəni coğrafi bölgəsi kifayət qədər böyük məkanları əhatə etməsinə baxmayaraq, başlanğıcını ondan almış ideyaların sərhədləri daha genişdir.*

*İslamın mahiyyəti ətrafında yayılan çevrələr artıq kifayət qədər uzaqlaşdığından, hazırda islam düşüncəsi ziddiyyətli bir mərhələ yaşayır. Məsələ burasındadır ki, mahiyyətdən uzaq düşmüş surəti üstələmək, silmək asandır və bu səbəbdən zaman baxımından daha yaxın informasiyaların, hadisələrin yaratdığı çevrələr bəzən həqiqi İslamın "dalğalarını" görünməz edə bilir. Çevrənin mərkəzini, mahiyyəti unudanlar İslamın elə bu olduğunu iddia edir və bununla həm diqqəti əsl Həqiqətdən yayındırır, həm də İslamın artıq "köhnəldiyini", yeni dəblə, qloballaşmanın tələbləri ilə ayaqlaşmadığını əsas gətirirlər. Maraqlıdır ki, hazır-*

*da bütün diqqətlər də məhz bu “çevrələrin kəsişdiyi nöqtələrə” fokuslanıb: tədqiqat əsərləri yazılır, beynəlxalq konfranslar, simpoziumlar keçirilir, daha betəri isə, qarşıdurmalar yaranır, təhqirlər, hədələr işə düşür.*

*Bəli, bu gün islam düşüncəsi böhran halını yaşayır. Bu böhranı dərinləşdirən amillərdən biri də məsələyə səthi yanaşma, məsələnin spesifikliyini nəzərə almadan, onu uyğun gəldi-gəlmədi müasir dövrün tək meyarı – qloballaşma ilə ölçüb dəyərləndirməkdir. Bu səbəbdən problemin mahiyyətini dərk edib onun həll yollarını axtaranlar ən müxtəlif sahələrə: siyasətə, iqtisadiyyata, mədəniyyətə və s. müraciət edirlər. Lakin burada da diqqət tələb edən bir cəhət var – tədqiqatçılar ya yalnız* indi-*dən çıxış edir, ya da yalnız* dünən-*dən. Paradoksal hal yaranıb.* İndi-*ni görənlər tarixə də bu rakursdan baxıb, zəngin bir ideyalar mənbəyini böhranlı düşüncə çərçivəsinə salmağa çalışırlar. Əksinə,* dünən-*i görənlər bir çox məsələdə onunla səsləşməyən* indi-*ni qəbul etmirlər, əsrlər boyu elm və texnikanın, ictimai-siyasi dəyişikliklərin düşüncələrdə formalaşdırdığı yeni təsəvvürləri görməz gözə qoyurlar.*

*Bu kitab da müəyyən baxımdan islam*

*düşüncəsinin* indi-*sinə, ən yeni tarixinə*[*] *həsr edilib, lakin bir neçə əhəmiyyətli faktı nəzərə almaqla.*

*Əvvəla, islam düşüncəsi yalnız öz çərçivəsində deyil, Mütləq İdeyanın inkişaf tarixi kontekstində araşdırılır. Bununla həm fəlsəfə tarixində islam düşüncəsinin yeri və əhəmiyyəti təyin edilir, həm də ideyanın inkişaf qanunauyğunluğundan çıxış edilərək bir sıra qaranlıq məsələlərə işıq salınır. Müəyyən baxımdan, bunu islam düşüncəsinin* sabah-*ının ümumi cizgilərinin formalaşdırılması da adlandırmaq olar.*

*İkincisi, bugünün zirvəsindən, tələblərindən çıxış edilərək* dünən-*ə baxılır. Məsələ burasındadır ki, islam düşüncəsinin bugünkü böhranı təsadüfi və qısa müddət ərzində baş vermiş bir hadisə deyil. Bu, illər, əsrlər ərzində toplanmış səhvlərin, doğru bir ideyanın inkişafında yanlış istiqamətə sapmaların, ən nəhayət, bəzi məsələlərin həddindən artıq çox çeynənib şişirdildiyi halda, daha vacib və hə-*

---

[*] Nəzərə alaraq ki, Avropada və İslam Şərqində düşüncə tarixlərinin inkişaf mərhələləri fərqli olmuşdur, kitabda təqdim olunan dövrləşmə (orta əsr, Yeni Dövr və s.) yalnız zaman kontekstində aparılmışdır.

*yati əhəmiyyət daşıyan ideyaların kölgədə qalmasının nəticəsidir. Mütləq İdeyanın inkişaf qanunauyğunluğunun izlənməsi məsələnin bu tərəfinə də işıq salmağa imkan verəcək.*

*Nəhayət, eyni qanunauyğunluqdan çıxış edərək, bu kitabda islam düşüncəsinin* sabahının *rüşeymləri araşdırılır. Bunun üçün həmin rüşeymləri açıq və ya potensial şəkildə özündə ehtiva edən düşüncə sahiblərinə müraciət edilir. İslam mədəni bölgəsi həmişə vahid bir məkan olmuşdur, eyni zamanda, islami ideyalar zaman və məkan fövqündə durub ümumiyyətlə bəşəriyyətə xidmət etdiyinə görə, biz də öz tədqiqatımızda Birləşmiş Ştatlardan tutmuş, Yaponiyaya qədər diqqətə layiq, islam düşüncəsində söz sahibi olan, yaxud islam haqqında müəyyən rəy yaratmış fikirləri qələmə almış müəlliflərə müraciət etməyə çalışmışıq. Əlbəttə, bunlar yalnız bizim əldə edə bildiyimiz kitablar, əsərlərdir və istisna deyil ki, kimlər isə kənarda qalıb. Lakin, ən başlıcası, bizim məqsədimiz bir növ müasir dövrdə islam düşüncəsində aparıcı istiqamətləri müəyyənləşdirməyə cəhd göstərməkdir. Yəni diqqət ayrı-ayrı şəxslərə deyil, düşüncənin inkişaf istiqamətlərinə yönəldilir.*

*Son olaraq bildirmək istərdik ki, bu kitab islam düşüncəsi haqqında ən yeni tarixdə ümumi təsəvvür yaratmaq cəhdidir və təbii ki, bir sıra problemlərin araşdırılmasında təfərrüatlara gedilməmişdir. Məsələn, ən yeni tarixdə haqqında bəhs etdiyimiz üç istiqamətdən hər biri ayrıca tədqiqat tələb edir. Xüsusilə, vəhdətçilər. Çünki hər şeydən əvvəl, onlar günün tələblərini nəzərə almaqla islam düşüncəsinin inkişaf qanunauyğunluğunu düzgün dəyərləndirə, məsələnin dərinliyinə nüfuz edə bilirlər. Belə bir mövqe onlara islam düşüncəsini yalnız dini çərçivədə deyil, müasir fəlsəfi fikir müstəvisində təqdim etməyə imkan verir. Bundan başqa, onlar islam aləminə doğma olan və deməli, problemin bütün spesifikliyini görüb dərk edən şəxslər kimi daha optimal bir fəlsəfi sistemlə çıxış edirlər ki, bu da nəinki islam düşüncəsinin ən yeni tarixi, eyni zamanda, bu tarixin kəsilmədən davam etməsinin təminatıdır.*

# *G İ R İ Ş*

Fəlsəfə tarixinin qədimdən bəri tədqiqindən belə bir nəticə çıxartmaq mümkündür ki, bütün mövcudat müəyyən bir ideyanın, ilahi bir hikmətin təzahürüdür. Zaman-zaman müxtəlif dünyagörüşlərə müvafiq şəkildə öz fərqli ifadələrini tapan, forması, üslubu, üsulu, dili, dini fərqlənsə də, düşüncələri işıqlandırıb istiqamətləndirən bu ideyanın mahiyyəti dəyişməz və sabit olaraq qalır. Müəyyən mənada ruhlar vasitəsilə nəsildən nəslə ötürülən bu ideya ənənəsini Seyid Hüseyn: "İlahi mənbənin bəşəriyyətə açılan həqiqətləri və ya prinsipləri" [1] adlandırır. İslam fəlsəfəsində "*hikməti xalidə*" (farsca – *cavidan xirad*), Qərbdə "*peren-*

---

[1] *Сейид Хусейн Наср.* Что такое традиция // http://www.newatropatena.narod.ru/p22.htm

*nial philosophy*", induslarda "*sanatana dharma*" kimi tanınan bu "*əbədi fəlsəfə*", orta əsrlərin islam mütəfəkkiri İbn Miskəveyhin fikrinə görə, "əzəli bir ağıl, əzəli bir hikmətdir. O, dövrdən dövrə, millətdən millətə dəyişməyən, tarix fövqündə bir həqiqət, özünü əsrlər boyu müxtəlif mədəniyyətlərdə daim təzahür etdirən bir xalidə (əzəli) hikmətdir"[1]. Təbii ki, onu kölgələndirən, məğzindən uzaq salan, təhrif edən təlimlər, təhlillər də olmuş, onu görünməz hala gətirən informasiya bolluğu da yaranmışdır, lakin hər dövrdə onun mahiyyətini görən və onun parlamasına xidmət edən və bununla da yer üzündə mütləq həqiqətin qorunmasına şərait yaradan şəxslər də yaşayıb-yaratmışlar. "Müxtəlif varlıq və var olma formalarında təzahürləri nə qədər fərqli olursa olsun, mahiyyətdə eyni həqiqət", "hansı mədəni qəliblər içində şəkil qazanırsa-qazansın, mahiyyətdə eyni bilik"[2] olan bu ideyanın, hikmətin

---

[1] *İbn Miskəveyh.* əl-Hikmətu'l-xalidə (Cavidan Xirad), Beyrut, 1983, s. 375-376 // Bax: *İlhan Kutluer.* İslamın klasik çağında felsefe tasavvuru. İstanbul, İz yayıncılık, 2001, s. 29.

[2] *İlhan Kutluer.* İslamın klasik çağında felsefe tasavvuru, s. 29.

qorunması naminədir ki, Allah-Təala özünün seçdiyi peyğəmbərlərə, nəbilərə, filosoflara, alimlərə öz vəhyini, kəşfini, ilhamını lütf etmiş və etməkdədir. Belə şəxslərin düşüncələrinin, mənəvi dünyalarının bir qapısı xalqa – ideyanın təzahür meydanına, digəri isə bu hikmətin sahibi olan Haqqa, Yaradana açıqdır. Səlahəddin Xəlilov yazır: «Sivilizasiyanın ən mühüm şərtlərindən biri məhz kəsilməz tarixdir. Belə ki, cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir».[1] Filosofun bu sözlərini daha böyük miqyasda qəbul edib, onu yalnız bir xalqın tarixinə deyil, ümumilikdə Mütləq İdeyanın, vahid həqiqətin əbədi sirkulyasiyasına aid etsək, sadə, eyni zamanda, daim qorunan bir qanunauyğunluğun şahidi olarıq: *tarixdə yaranmış hər yeni ideya, fəlsəfi sistem özündən əvvəlkinin davamı, əvvəlki isə özündən sonrakı üçün sabit bir postament olmalıdır. Bu prinsipdən kənarda qalan hər bir ideya isə oyundan kənar vəziyyətə düşməyə məhkumdur.*

---

[1] *Səlahəddin Xəlilov.* Kəsilməz tarix və dövlətçilik ənənələri // İpək yolu, Beynəlxalq elmi ictimai-siyasi jurnal, № 1, 2001, s. 24.

Bu gün elm və texnologiya sürətlə yeniliklər edir, məlumatlar o dərəcədə çoxdur ki, mənimsənilməyə macal tapılmır, ən əsası isə, Qərb təfəkkürü hegemonluğu öz əlinə alaraq faktiki surətdə alternativ bir təfəkkürə meydan saxlamır və yeganə yol ağına-bozuna baxmadan onu təqlid etməyə qalır. Belə bir şəraitdə inkişafla bərabər problemlər də artır. Məsələlərin mahiyyətinin düzgün dəyərləndirilməməsi hər problemin həlli ilə başqa və daha böyük problemlərin yaranmasına və bununla da problemlərin çoxalması ilə yanaşı, əsas mahiyyətdən uzaqlaşmağa imkan yaradır. İnformasiya və problem bolluğu arasında əbədi ideyanın təzahürləri də ikinci, üçüncü dərəcəyə keçir və bununla da sanki insan özünün əsl missiyasından yayınmış, aralı düşmüş olur.

İslam Mütləq İdeyanın yüksək təzahürlərindən biridir. Lakin təəssüf ki, bu gün "problem" adı altında mübarizə aparılan obyektlərdən biri, bəlkə də, ən böyüyü "islam" fenomenidir. Buna nümunə olaraq həm "islamofobiya" mövzusunda keçirilən konfrans və simpoziumları, bu istiqamətdə yazılan əsərləri, həm də məqsədyönlü şəkildə İslamı radikallıqla eyniləşdirən və ondan "xilas olmaq" üçün yol

"axtarışlarını" göstərmək olar. Məsələn, məşhur avropalı yazıçı-mütəfəkkir Umberto Eko hazırda islamofobiyadan qurtulmağın mümkün həlli yolu kimi qərblilərin ürəyindən keçən yeni "xaç yürüşlərindən" bəhs edir.[1]

Problemin tarixi kökləri qədimlərə işləməklə yanaşı, mahiyyətcə də çox mürəkkəb olub ziddiyyətlərlə doludur. Bu baxımdan, zənnimcə, onun xüsusi təhlilə ehtiyacı vardır. Yeri gəlmişkən, onu da xüsusi vurğulamaq lazımdır ki, belə bir münasibətin həm yaranmasında, həm bu qədər geniş vüsət almasında, həm də gələcəkdə daha qorxulu nəticələrə gətirib çıxara bilməsində səbəb kimi yalnız İslamı sevməyənləri, düşmənlərini göstərmək azdır. Əminliklə demək olar ki, bu işlərdə daha böyük məsuliyyət İslamı sevənlərin, hətta fanatlarının üzərinə düşür.

İslamı tarixin səhifələrindən silmək, yox etmək mümkün deyil. Lakin onun yeni və ən yeni tarixini şübhə altına almaq Mütləq İdeyanın inkişaf tarixində bir boşluğun yaranması deməkdir. Bəli, islam fəlsəfəsi ideyanın inkişaf

---

[1] *Умберто Эко.* Возможный крестовый поход. Сценарий // Полный назад. «Горячие войны» и популизм в СМИ. М., Эксмо, 2007, с. 38-47.

tarixində əhəmiyyətli bir dövrü əhatə edir və təqdiredici haldır ki, bu fəlsəfə tədqiqatçılar tərəfindən geniş araşdırılıb, ortaya dəyərli əsərlər qoyulub və qoyulmaqdadır. Əslində zəngin bir hikmət xəzinəsi olan islam fəlsəfəsinin öz kəşfini gözləyən hələ çox səhifələri var. Bununla belə, bizim araşdırmamız islam fəlsəfəsinə fərqli bir prizmadan yaxınlaşmadır. *Məqsədimiz kəsilməz tarix prinsipinə əsasən islam fəlsəfəsini Mütləq İdeyanın inkişaf xəttinin əhəmiyyətli bir mərhələsi kimi tədqiq etməkdir.*

* * *

Bu gün İslam Şərqində təfəkkürün, fəlsəfi təfəkkürün vəziyyətini birmənalı olaraq müəyyənləşdirmək çox çətindir. Bir tərəfdən, mənəviyyatsızlaşma böhranı yaşayan Qərb İslama ciddi maraq göstərir və statistikaya görə, dünyada müsəlmanların sayı artmaqdadır. Bu, İslam Şərqində müəyyən özünəgüvən yaradır. Müsbət hal kimi dəyərləndirilən faktlardan biri də son elmi kəşflərin işarətlərinin Qurani Kərimdə tapılmasıdır. Yəni bu gün statistik məlumatlara əsaslanan hər hansı bir tədqiqatçı böyük bir əminliklə İslamın yüksələn xətt boyun-

ca inkişaf etdiyini iddia edə bilər və bir baxımdan yanılmaz.

Bununla yanaşı, danılmaz bir faktdır ki, bu gün dünyada ən çox əzilən və təhqirə məruz qalan müsəlman dövlətləridir. Bunu da danmaq olmaz ki, elmi-texniki, sosial inkişaf baxımından da müsəlman dövlətləri Qərb dövlətləri ilə rəqabətə girə bilmir. Məlum olduğu kimi, Yeni Dövrdən başlamış bu günə qədər uzun illərdir ki, müsəlman müəlliflərin əksəriyyəti əsasən məhdud bir çərçivədə yazıb-yaradırlar: təfsir, hədis və fiqh. Hələ erkən orta əsrlərdə yaranmış və haqqında kifayət qədər yüksək səviyyəli əsərlər yazılmış sahələr! Bir neçə əsr ərzində eyni mövzuların müxtəlif tərəflərdən şərhi, eyni problemlərin həlli cəhdləri və bunlardan imkan tapıb yeni problemləri görə bilməmək, dövrlə ayaqlaşmamaq! Bu, özlüyündə islam düşüncəsində bir neçə istiqamətin formalaşmasına yol açmışdır: eyni mövzuların yazılmasını əsaslandırmaq və dövr dəyişsə də, elm, texnika inkişaf etsə də, İslamın müasirliyə heç bir ehtiyacı olmadığını sübut etmək üçün *müdafiə mövqeyinə çəkilmək*, ədəb və əxlaq prinsiplərini qabardaraq təfəkkürü ondan asılı olan bir tərəf kimi qəbul etmək və bunu İsla-

mın az qala aparıcı ideyası kimi təqdim etmək və bununla da *bütün dünyaya əxlaq, ədəb-ərkan dərsi vermək,* bütün bunlarla bərabər dünyada gedən proseslər arasında öz varlığını sübut üçün *fanatlığa meyl etmək* və s. Qısa şəkildə desək, İslamın tərəfdarlarının əksəriyyəti İslamın mütərəqqi bir din olduğunu dönə-dönə təkrarlasalar da, bütün böyük elmi kəşflərin Qurani Kərimdə xatırlandığını böyük bir qürurla vurğulasalar da, yalnız yuxarıda qeyd etdiyimiz sahələrlə kifayətlənərək bu gün islam aləminin Qərb təfəkkürünün yedəyində getdiyini görmək istəmirlər. Qurani Kərim bir əxlaq, ədəb-ərkan kodeksi olmaqdan daha çox, yüksək ideyalar mənbəyidir! O, həm mənəviyyat, həm təfəkkür, həm də elm üçün istiqamət verən zəngin ayələr, işarələr sistemidir! Amma bunu dönə-dönə təkrar etməklə, böyük bir israrla sübutlar axtarmaqla, dünyanı təəccübləndirməyə çalışmaqla ifratçı imicindən başqa bir şey qazanmaq, müdafiə mövqeyindən o yana bir addım da irəliləmək olmur. Bunu mən demirəm! Bunu illər, əsrlər, müsəlmanların qanqada, problem dolu bugünkü halı deyir! Ən ağrılı fakt isə, yəqin ki, bu gün məqsədyönlü şəkildə İslam və terrorun eyniləşdirilməsi

cəhdləri və bir çox hallarda buna nail ola bilməkləridir.

Deməli, əslində, bu gün böyüyən və genişlənən daha çox İslamın zahiri tərəfidir, görünən obrazıdır və o, təbii olaraq, kimlərdə isə məmnunluq hissi doğurur, onu tanımayan, mahiyyətindən xəbərsiz olan kəslərdə isə vahimə yaradır. Nəzərə alsaq ki, bəzi təbliğatçılar məqsədli olaraq İslamın məhz qorxu, cəza, hədə ilə əlaqəli prinsiplərini, ayələrini kontekstdən ayıraraq təqdim edir, onda Qərbin bu vahimədən qorunmaq və qurtulmaq istəyi aydın olar.

Dediklərimiz bir az sərt və birtərəfli görünə bilər və bunu nəzərə alaraq qısa bir şərh verək.

İlk əvvəl qeyd edək ki, dünyada maraq İslama deyil, təsəvvüfə, hətta təsəvvüfün mahiyyətinə də deyil, onun ekzotik, mistik tərəflərinə artır. İslamın özünü bir din olaraq qəbul etməyən xalqlar belə, təsəvvüfə ciddi maraq göstərir, sufi mütəfəkkirlərin əsərlərini araşdırır, dünyanın hər yerindən onların əlyazmalarını alıb toplayır və bu araşdırmalar əsasında elmi cəmiyyətlər, tədqiqat mərkəzləri yaradırlar … və yenə qayıdıb müsəlmanlara öz mütəfək-

kirlərini, dəyərlərini tanıtmaq iddiasına düşürlər, sadəcə öz yozumlarında. Və ilk növbədə Qərbin maraqlarına xidmət etməli olan bu təhlillərdə bəzən bilməzlikdən, bəzən də məqsədyönlü şəkildə təhriflərə yol verilir. Nümunə üçün bildirək ki, bu gün sufi mütəfəkkirlərə həsr olunmuş sanballı beynəlxalq elmi konfransların təşkilatçıları əksər hallarda məhz qərbyönlü cəmiyyətlərdir. Qeyd etdiyimiz kimi, təsəvvüf daha çox İslamın mənəvi tərəfini və onun tolerantlığını ehtiva edir. Bu baxımdan, *təsəvvüf vasitəsilə həm İslamın ən gözəl, ülvi keyfiyyətlərinə sahiblənmək, həm də onun tolerantlığından istifadə edərək nəinki öz dinində qalmaq, üstəlik İslamın özünə də yuxarıdan aşağı baxmaq olur.* Məsələn, Mövlana az qala bütün dünyanı birləşdirən bir qüvvəyə çevrilib. Lakin təəssüf ki, onu İslamdan kənar qəbul edənlər də az deyil. Belə ki, Mövlananın dinindən, kimliyindən asılı olmayaraq hər kəsə ünvanlanan "Hər kim olursan, ol, gəl..." çağırışı bir çox hallarda yalnız tolerantlıq kimi yozulur və dərinə gedilmir. İzah edilmir ki, İslamın (təsəvvüfün) qapısı həqiqətən hər kəsə açıqdır və günahdan təmizlənmək, mənəvi aləmin ülvi anlarını duymaq, ilahi aləmlə vəhdətdə olmaq-

la insanlığın kamillik zirvəsinə çatmaq üçün oradan içəri girib mahiyyəti dərk etmək lazımdır. Fərq o qapıdan kənardadır. Qəbul edilmir ki, Cəlaləddin Rumini Mövlana taxtında oturdan da məhz İslamın həqiqətidir, enerjisidir.

Vurğulanmalı olan digər bir fakt da, müsəlmanların saylarının artmasıdır. Burada məsələnin iki tərəfi var. Bir tərəfdən, bu artım sırf kəmiyyət artımıdır və əsasən müəyyən cərəyanların, təşkilatların gizli niyyətlərinə xidmət edir. Təbii ki, bu nə islami təfəkkürə, nə də İslamın bugünkü mövqeyinə əhəmiyyətli bir təsir göstərə bilmir. Yəni kəmiyyətin artımı nəinki keyfiyyəti artırmır, hətta əks təsir göstərir. Belə ki, kəmiyyətə ciddi təsir göstərən cərəyanlar təriqətlər bir çox hallarda bir şəxsin maraqları çərçivəsini aşmır. Bu hal insanları İslamın əsl həqiqətindən uzaq sala bildiyi kimi, onun mahiyyətinin düzgün dərk edilməsinə də xələl gətirə bilir.

Digər tərəfdən, maraqlı bir faktdır ki, inkişaf etmiş ölkələrdə müsəlmanlığı həqiqətən dərk edib qəbul edən şəxslər məhz öz sahəsində kifayət qədər irəli gedə bilmiş və bir növ sivilizasiyanın quru, mənəviyyatsız qanunların-

dan doymuş şəxslərdir. Bunlar qanı-canı, ən əsası təfəkkürü Qərb prinsipləri ilə yoğurulmuş şəxslərdir və İslam onların ac mənəvi dünyası üçün bir qidadır, estetik zövqdür, ülvi duyğulardır. Belə şəxslər İslamın problemini duysalar da, onun öz həqiqi dəyərini tapmamasına təəssüflənsələr də, bu problemin həlli yolunu göstərə bilməzlər, çünki təməlləri, təfəkkürləri Qərbə məxsusdur. Bu, sadəcə çox müsbət təsirli və həvəsləndirici bir addımdır.

Deməli, İslamın yalnız mənəvi dəyərlərini təbliğ etmək azdır. Əvvəla, bu onun maddi həyatla əlaqəsinin reallığını və mütərəqqi xarakterini tam aça bilmir. İkincisi, onun bir estetik zövq mənbəyi kimi dar bir çərçivədə mənimsənilməsindən və ekzotik "xidmətçilikdən" qurtulmağa yol göstərmir.

Yuxarıda da qeyd etdiyim kimi, bu hal əsasən Yeni Dövrdən yaranmağa başlamışdır. Deməli, bu, heç də İslamın ruhundan gələn və müsəlman alimlərin acizliyindən doğan bir nəticə deyil. Elə isə səbəb nədir? Səbəbi islam düşüncəsinin inkişaf tarixində axtaraq.

# *İSLAM DÜŞÜNCƏSİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ*

## *Dinin ilk bilik bazasının yaranması*

Təqribən VII əsrin əvvəllərində təşəkkül tapan islam boş bir yerdə və boş bir təfəkkür üzərinə gəlmədi. Tarixçilərin də bildirdiyi kimi, həqiqətən, həmin dövrdə ərəb dünyasında əxlaq və bu əxlaq əsasında formalaşmış düşüncə cahil vəziyyətdə idi. Lakin bununla yanaşı, ərəb dünyasında bədii təfəkkür yüksək səviyyədə idi. Yalnız bunu demək kifayətdir ki, İslamın ilk illərində fəaliyyət göstərən, yazıb-yaradan və cəmiyyəti üçün yüksək nümunə olan

şəxslər – əshabələr heç də İslamla bərabər doğulan uşaqlar, yeniyetmələr deyildilər. Bunlar pozulmuş cəmiyyətə baxmayaraq, öz düzgün əxlaqlarını qoruyub saxlaya bilmiş, sağlam düşünməyi bacaran və bu səbəbdən də İslamın məziyyətlərini ilk vaxtlarından olduğu kimi dərk edə bilən və qısa müddətdə İslamın dayaq sütunlarına çevrilə bilən şəxsiyyətlər idilər.

Bəli, İslam dini yeni bir təfəkkür və həyat tərzi gətirdi və burada iki istiqamətdə inkişaf edən, lakin eyni nəticəyə aparan proseslər başlandı: bir tərəfdən, əvvəldən var olan biliklərin, düşüncənin yeni istiqamətə yönəldilməsi, uyğunlaşdırılması, digər tərəfdən, sırf İslamın öz spesifik ideyalarının get-gedə çiçəklənməsi. Məsələn, əgər bədii təfəkkür, şeir sənəti, düşüncələrin poetik ifadəsi cahiliyyə dövründən qalan bir miras idisə, fikirlər, ideyalar İslama xas idi. Əgər yüksək ticari və mədəni əlaqələr cahiliyyə zamanında kifayət qədər inkişaf etmişdisə, insan hüquqlarının tanınması və hər şəxsin haqqına hörmət göstərilməsi İslamın bəxş etdiyi bir nemət idi. Məhəmməd peyğəmbər (s.) insanlarla, onların doğru olmayan düşüncələri ilə mübarizə aparırdı, miras qalan mədəniyyətlə deyil. Buraya həm bir xalqın il-

lər, əsrlər ərzində yaratdıqları maddi və mənəvi mədəniyyəti, həm də əvvəlki dinlərdə də var olan bir sıra ənənələri, mərasimləri, ümumiyyətlə təfəkkürü formalaşdıran amilləri aid etmək olar. Təsadüfi deyil ki, o, Məkkəni müharibə ilə fəth etmədi və şəhərə sülhlə girdi; Kəbəni deyil, onun içindəki bütləri qırdı. Bu, iki təfəkkürün qarşılaşması və daha mütərəqqi, daha işıqlı olanın digərini get-gedə öz içində əritməsi, assimilyasiyaya uğratması və fərqli istiqamətdə davam etdirməsi idi.

İslam bu münasibəti bütün yayıldığı məkanlarda da göstərirdi və acınacaqlı bir haldır ki, sonrakı dövrlərdə İslamın bu liberallığı onun öz əleyhinə bir silaha çevrildi.

İlk olaraq islam düşüncəsinin formalaşmasında xüsusi əhəmiyyətə malik bir sıra amillərə qısaca nəzər salaq.

İslam tarixinin ilk illərində hər şeydən əvvəl Qurani Kərim bir mətn kimi oxucular üçün aydınlaşdırılmalı idi. Bu niyyətlə fiqh (islam hüququ) və təfsir (şərhçilik) meydana çıxdı. Eyni zamanda, Məhəmməd peyğəmbər (s.) bir şəxsiyyət kimi tanıdılmalı idi: dinin peyğəmbəri, xalqın rəhbəri və Allahın seçdiyi bir bəndə olaraq. Bu niyyətlə hədisçilik (peyğəm-

bərin həyatından və söhbətlərindən alınan nümunəvi kəlamlar) təşəkkül tapdı.

Bunlar İslamın zahiri tərəfi idi. Lakin onun mahiyyətinin də üzə çıxmasında bir zərurət var idi və bu zərurətdən təsəvvüf doğuldu. Doğuldu və onun vasitəsilə İslamın mahiyyətindəki sevgi və müqəddəslik duyğusu, insaniyyətin ali mərtəbəsinə ucalmağın, həm əxlaqını, həm də təfəkkürünü kamilləşdirməyin "xəritəsi" dünyanın ən ucqar yerlərinə qədər gedib çıxdı.

Bunlarla yanaşı bir sıra mütəfəkkirlər də var idi ki, Qurani Kərimdə irəli sürülən bəzi məsələlərlə bağlı şəxsi mülahizələrini irəli sürməyə çalışır, Quranın mətnini yalnız dini deyil, həm də fəlsəfi aspektdən dəyərləndirməyə cəhd edirdilər. Əlbəttə, qoyulan problemlərin özləri dini xarakterli olduğundan, şərhlərdə, təhlillərdə də dini yön üstünlük təşkil edirdi. Burada əsasən iradə azadlığı, ruh, dünyanın, ümumiyyətlə varlıqların yaranışı problemləri müzakirə obyekti idi. Beləliklə, kəlam, islam sxolastikası yarandı.

Bütün bunlar, İslamın mahiyyətinin açılmasına xidmət edirdi. Lakin İslam bir tayfa, məhdud bir məkana deyil, bütün bəşəriyyətə

nazil olan və mahiyyətində ümumbəşəri ideyalar ehtiva edən bir dindir və islami düşüncə məhdud bir çərçivədə qala bilməzdi, qalmadı da. Həm dünya ondan xəbər tutmalı, həm o, dünyanı tanımalı idi. Düzdür, yuxarıda qeyd etdiyimiz kimi, təsəvvüf vasitəsilə İslamın sərhədləri genişlənmişdi. Lakin təsəvvüf, necə deyərlər, könüllərə, ruhlara sirayət edirdi, İslamın rasional səviyyədəki mütərəqqi ideyaları isə çatdırılmamış qalırdı. Bundan başqa, IX əsrdə fəlsəfə aləmində artıq sabitləşmiş, özünü doğrultmuş fəlsəfi istiqamətlər, əsrlər keçməsinə rəğmən hələ də ətrafında kifayət qədər tərəfdar və ardıcıl toplayan fəlsəfi ideyalar (məsələn, Platona, Aristotelə və s. məxsus) var idi. İslam düşüncəsi onların yanında özünü təsdiqləməli, eyni zamanda, onları islam işığında təqdim etməli idi.

İslamın təşəkkülü dövründə vurğulanmalı olan başqa bir mühüm məsələ də həmin dövrə qədər 7 əsrlik bir tarix yaşamış, artıq ortaya kifayət qədər elmi-fəlsəfi ədəbiyyat qoymuş xristianlığın varlığı idi. Öz daxilindəki çəkişmələrdə və təbəddülatlarda boğulan, öz həqiqi mahiyyətini təhriflərdən qoruya bilməyən və ağır günlər yaşayan xristianlıq! Xristianlığın

timsalında insanlar, xüsusilə qərblilər acı bir təcrübə yaşamaqda idilər. Ən təhlükəli olan isə, xristianlığın İslamın həqiqiliyini qəbul etməyərək, onda ciddi bir mahiyyət görmək istəməməsi idi. Yaranmış *belə bir tarixi şəraitdə İslam bir növ həm özünü bu öldürücü dalğadan qorumalı, həm də insanlara sözün hər mənasında imanlarını qaytarmalı idi.* Bunun üçün isə insanda yaranışından var olan həqiqət sütunlarının üzərindəki əyri divarları uçurmaqla yanaşı, yeni təfəkkür tərzi, təfəkkür sistemi qurmalı idi.

Beləliklə, sonuncu din olaraq İslamın üzərinə bir çox missiyalar düşdü. Və əminliklə demək olar ki, missiyasının ağırlığı səbəbindən o, bu qədər geniş ehtivalıdır. Maraqlıdır ki, Qurani Kərimdə ilk gündən ən müxtəlif xarakterli istiqamətlər özlərinə dəstək tapa bildi, kəskin şəkildə dinin əleyhinə olan adamlar belə bu müqəddəs kitabda ruhlarını sakitləşdirəcək notlar tapdılar. Buna nümunə olaraq, İslamın əsasən ruhani yüksəkliyini özündə əks etdirən təsəvvüfün dinindən, dilindən, irqindən asılı olmayaraq dünyanın ən müxtəlif yerlərində böyük rəğbət və maraqla qarşılanmasını və əks-səda tapmasını göstərmək olar.

Nəhayət, deyilənləri yekunlaşdıraraq bir daha vurğulayaq ki, islam özündən əvvəlki əbədi ideyaları dövrün çirkabından təmizləməklə, onlara yeni həyat verməklə yanaşı, həm də yeni bir güc və böyük yaradıcı enerji mənbəyi oldu. *Bu, Mütləq İdeyanın inkişaf xəttində yeni bir mərhələnin böyük potensiala malik başlanğıc nöqtəsi, özündən əvvəlki təfəkkürlərdəki əbədi hikmətin sütunları, sağlam bünövrəsi üzərində möhtəşəm bir binanın inşasının başlanğıcı idi.*

## *Yad təfəkkürlə islam fəlsəfəsinin sintezi*

IX əsrdə Abbasi xəlifəsinin yaratdığı "Hikmət evi" qədim yunan filosoflarının əsərlərini ərəb dilinə tərcümə etməklə islam dünyası ilə qədim fəlsəfə arasında bir körpü saldı. Yad mədəniyyətin, yad təfəkkürün məhsulu olan qədim yunan fəlsəfəsinin İslam aləminə daxil olması iki reaksiya doğurdu. Birincisi, islam dinini təhriflərdən, yanlış şərhlərdən və fərqli istiqamətə yönəlmədən qorumaq idi. Bu missiyanı öz üzərinə götürənlər hələ İslamın erkən illərindən təşəkkül tapmış hədisçilər, təfsirçilər oldu. İkinci reaksiya daha çox şərh və təhlilə əsaslanan bir yol idi. Bu, qədim fəlsəfəyə islami rakursdan baxış, eyni zamanda İslama "yad gözlə" baxmaq, onu qədim fəlsəfənin terminologiyasına uyğunlaşdırmaq cəhdi idi. *Bu, iki fərqli təfəkkürün sintezi, iki qütbün kəsişmə nöqtəsinin aranması və tapılması idi!* Məhz bu səbəbdən istər mötəzililər və əşərilər,

istərsə də məşşailər fəlsəfədə yeni nəfəs, yeni istiqamət oldular və dünya fəlsəfə tarixində əhəmiyyətli rol oynaya bildilər.

Bir sıra fəlsəfə tarixçilərinin fikrinə görə, məhz bu illər, yəni orta əsrlər İslam Şərqinin qızıl dövrüdür. Tarixdə Aristoteldən sonra "ikinci müəllim" adı ilə məşhur olan Fərabi, yalnız fəlsəfəsi ilə deyil, tibdəki nəzəriyyələri və metodları ilə dünyanı bu gün belə heyrətə gətirən İbn Sina da, Qərbin yalnız XIX əsrdə "kəşf etdiyi" sosiologiya elminin əsl yaradıcısı İbn Xəldun və daha neçə dahilər də məhz bu dövrün – təfəkkürlərin sintezləşdiyi dövrün yetirmələridir. Onların irəli sürdükləri ideyalar və bu ideyalar əsasında ərsəyə gətirdikləri əsərlər qədim hikmətin islami şərhi və ya qədim fəlsəfənin terminləri ilə İslamın mahiyyətinin açılışı idi.

Təsadüfi deyil ki, *bu ideyalar neçə əsrlər sonra Avropanı əsrlərin mürgüsündən oyadan, onun qızıl dövrünü yetişdirən amil və Qərbdə yeni bir təfəkkürün təməl daşları oldular*.

Qeyd etdiyimiz iki istiqamətlə yanaşı, daha bir istiqamət də mütləq vurğulanmalıdır. Belə ki, əgər islam elmləri adı ilə məlum olan fiqh, hədis və təfsirin nümayəndələri sırf dinin

mövqeyindən çıxış edərək yad təfəkkürü yaxına buraxmır, onu küfr elan edirdilərsə, ikincilər – filosoflar öz təfəkkürlərində hər ikisinin bərabər nisbətindən və ya sintezindən çıxış edirdilər. Üçüncülərin mövqeyi isə daha orijinal idi: qədim fəlsəfəni bir pyedestal olaraq istifadə edərək *İslamın öz hikmətini ortaya qoymaq*. Şihabəddin Yəhya Sührəvərdi kimi, Mühyiddin İbn Ərəbi kimi.

Məlum olduğu kimi, Şihabəddin Yəhya Sührəvərdinin işraq fəlsəfəsinin giriş hissəsi Aristotel məntiqi olsa da, əsas hissədə mütəfəkkir əsl hikmətin – nur haqqında mülahizələrin təqdiminə keçir. Filosof yazır: «Nurlar elmindən və onun təməli üzərində olanları qeyd etməklə mənə Allah Təalanın yolu ilə gedən hər kəs yardım edib və bu, hikmət almaq qabiliyyətidir».[1] Ümumiyyətlə, İşraq fəlsəfəsinin təhlilindən belə məlum olur ki, o, yalnız bir şərqli təfəkkürünün məhsulu deyil. Universal xarakterli bir nəzəriyyə olmasından, dinindən və dilindən asılı olmayaraq bu, nur probleminin inkişaf tarixinin zirvəsidir. Maraqlıdır ki,

---

[1] سهروردي شهاب الدين يحيي. شيخ إشراق. مجموعة دوم مصنفات, بقلم هنري كربين, تهران, 1952 (*Sührəverdi Şihabəddin Yəhya*. Hikmət əl-İşraq), s. 10.

Sührəvərdi bildirir ki, bütün elmlərin başında Ağasademon (Şit və ya Şis peyğəmbər), Hermes və Asqlinos durur və bir kökdən qaynaqlanan hikmət iki istiqamətə ayrılır: antik filosofların və qədim fars müdriklərinin, Zərdüştün düşüncə və mülahizələrində, həyat tərzində və mənəvi təcrübə yollarında özünü büruzə verən hikmət. Bəşərlə bərabər doğulan və qırılmadan davam edən nur hikmətinin son olaraq İslam filosof və mütəfəkkirlərinin dünyagörüşlərində təcəlli etdiyini yazan Sührəvərdi burada da hikmət sahiblərini iki istiqamətə ayırır: məşşailərə – Aristotel fəlsəfəsinin davamçılarına və sufilərə – ilahi hikmət (mərifət) sahiblərinə. Başqa sözlə desək, o, işraqi hikmətin rasional (bəhs, tədqiq) və irrasional (ilahi hikmət) mərtəbələrdən[1] ibarət olduğunu və bu silsilənin ta qədimdən bu günə kimi uzandığını təsdiqləyir.

Fəlsəfi sistemində özündən əvvəlki hikmətləri üzvi şəkildə birləşdirən digər filosof Mühyiddin İbn Ərəbidir. Belə ki, o, özünün "Fusus əl-Hikəm" əsərində "Məhəmməd Həqiqətini" – varoluşun mahiyyətini izah etmək

---

[1] Yenə orada, s. 11-12.

üçün Adəmdən tutmuş Məhəmməd peyğəmbərə (s.) qədər əksər peyğəmbərlərin malik olduqları hikmətlərin mahiyyətini şərh edir. O yazır: «İnsanlıq Allaha xəlifə olmaq deməkdir. Allahın xəlifəsi olmaq isə vəlilik, peyğəmbərlik, risalət, imamlıq, əmirlik və idarəetməni ehtiva edən ümumi bir mərtəbədir. İnsanın yetkinliyi bütün bu mərtəbələrin yetkinliyinə bağlıdır. Bu xüsusiyyət Adəmdən sonuncu insana qədər bütün insanlarda potensial olaraq vardır».[1] Başqa sözlə desək, hər bir insan özündə əbədi hikməti ehtiva edir və öz mahiyyətini dərk etmək üçün bu əbədi hikməti izləməli, onun inkişaf qanunauyğunluğunu öyrənməlidir.

Bəli, heç bir hikmət öz inkişaf xəttində qırılmır, daha doğrusu, qırılanlar tarixdə qalmır, mənbəsiz arx quruduğu kimi. Bu həqiqətdən xəbərdar olan hər bir mütəfəkkir də öz fəlsəfəsini boş yerdə deyil, kökünü araşdıraraq, onun bugünkü təzahürünün səbəblərini, şərtlərini göstərərək təqdim edir.

---

[1] *Suad el-Hakim*. Ibnü‘-Arabi sözlüğü, çev.: E.Demirli, İstanbul, Kabalcı Yayınevi, 2004, s. 366.

Dediklərimizdə bir incə məsələni diqqət mərkəzində saxlamağa çalışırıq: islam düşüncəsi tarixində sırf dini aspektin də, qədim yunan fəlsəfəsi ilə sintezləşən istiqamətin də öz əhəmiyyəti, öz rolu olsa da, məhz *özündən əvvəlki hikmətin üzərində qurulan fəlsəfə öz yeniliyi və orijinallığı ilə əvvəlkilərə və ümumiyyətlə tarixə, zamana "meydan oxuya" bildi.* O, özündə əvvəlki hikməti yaşatmaqla yanaşı, daha vacibi, onun yeni bir qatını açmış olur, əvvəlkinin inkişafını yeni şəraitdə davam etdirməklə özünün əbədi hikmətin bir halqası olduğunu təsbitləmiş olur. Hər dövrün, şəraitin tələbinə, daha doğrusu, dəbinə uyğun yazılan, bir çox hallarda hətta müəyyən bir müddət ərzində məşhurlaşan ideyalar isə məhz sıfırdan başlamağa üstünlük verərək yenilik adına qədim köklərindən imtina etdiklərinə görə sönməyə məhkumdur.

## *İslam düşüncəsinin durğunlaşması*

XII-XIII əsrlərdən başlayaraq İslam Şərqində yazılan əksər əsərlər şərh xarakterli olmuşdur: böyük filosofların əsərlərinin təhlili və bu təhlillərə yazılan təhlillər (haşiyələr). Məsələn, təkcə İbn Sinanın əsərlərinə yüzlərlə şərh və haşiyələr yazılmışdır. Təbii ki, onlarda hər hansı bir orijinallıq axtarmaq çətin məsələdir, çünki müəllifin məqsədi ilk növbədə öz sələfinin əsərini təqdim və təhlil etmək idi. Bu, həmin əsəri anlama və dərk etmə baxımdan xeyirli və lazımlı bir addım olsa da, burada nə irəliyə inkişaf etməkdən, nə də hər hansı əhəmiyyətli yenilikdən söz gedə bilməzdi.

İslam Şərqində dinin rolunun artması ilə əlaqədar olaraq, elm və mədəniyyət sahələrində də aparıcı rol təfsirçiliyə, hədisçiliyə və fiqhə verilirdi. Bunların inkişafı isə ədəb-əxlaqın digər mövzuları üstələməsinə səbəb olurdu. Həmin dövrdə əksər müəlliflərin əsərləri nəsi-

hətlər, vəsiyyətlər şəklində yazılırdı, islami də-yərlərin məişətdə düzgün tətbiqi ətraflı izah edilirdi. Maraqlıdır ki, yuxarıda orijinallığını və yeniliyini vurğuladığımız təsəvvüf fəlsəfəsi də bu ənənəyə qoşulmuşdu. Bu dövrləri təsəv-vüfdə parçalanma – təriqətlərin yaranması pro-sesinin geniş vüsət alması ilə səciyyələndir-mək olar: hər təriqətdə ayrı-ayrı mürşidlərin nüfuzu əsasında öz ədəb-əxlaq tələbləri olan kiçik, lokal hakimiyyətlərin qurulması və ayrı-ayrı şəxslərin, təriqətlərin eyni şeyləri fərqli üslublarda və üsullarla çatdırması.

Düzdür, islam mədəniyyət bölgəsi öz va-hidliyini həm coğrafi, həm də mədəniyyət ba-xımdan qoruyub saxlayırdı. Əsasən ərəb dilin-də yazılmış əsərlərə elə ərəb dilində və ya fars dilində şərhlər yazılırdı. Mahiyyətdə isə bu, İs-lamın bütünlüyünün parçalanma prosesinin başlanması, vahid qüvvənin hissələrə bölün-məklə zəifləməsi və bir-birinin qəniminə çev-rilməsi idi. Təsadüfi deyil ki, orta əsrlərin son dövrlərində İslam Şərqində də Uzaq Şərqdə müşahidə edilən bir hal yaşanmaqda idi: qədim ənənəyə sadiqliyin nəticəsi kimi yeni fəlsəfi cərəyanlar yaranmır, əksinə, sayları artırdı, yə-ni dəyişikliklər keyfiyyətdə deyil, kəmiyyətdə

özünü göstərirdi. Əhəmiyyətli və dərin mənalı dəyərlər (xüsusilə, təsəvvüfdə) xırdalanır, yüksək təfəkkür səviyyəsi üçün nəzərdə tutulan meyarlar primitiv səviyyəyə endirilir, kütlə üçün təqdim edilirdi. Zahiri amillər əsl mahiyyəti kölgədə qoymaqda idi.

Bu prosesi bir növ yuxarıda da qeyd etdiyimiz kimi, möhtəşəm bina üçün nəzərdə tutulmuş təməl üzərində xırda-xırda gecəqonduların tikilməsinə bənzətmək olar. Birlik var, vahid, möhkəm kök var, eyni zamanda, parçalanma, ziddiyyət də var.

Həmin zaman kəsiyində (XVII əsrdə) Qərbdə artıq millətlərin və bunun zəminində ayrı-ayrı millətlərə xas fəlsəfənin formalaşması prosesi gedirdi, yəni milli kimliyin formalaşması prosesi getməyən İslam Şərqinin qarşısına artıq get-gedə özünü təsdiqləməkdə olan ayrı-ayrı milli fəlsəfi sistemlər – alman fəlsəfəsi, fransız fəlsəfəsi və s. çıxmağa başlamışdı. *Qərbdə öz milli xüsusiyyətlərini anlayan, öz milli ruhunu tanıyan millətlər onu İslam Şərqindən aldıqları hikmətlə sintezləşdirməklə fəlsəfi təfəkkürdə irəliyə doğru daha bir addım atmış oldular.*

Məhəmməd İqbal Qəzali ilə Kantın rasi-

onalizm və iman arasında sərhəd qoymaqdan ibarət olan "peyğəmbəranə bir mahiyyət daşıyan" missiyasını müqayisə edərək bildirir ki, "Kant öz prinsiplərinə uyğun gələn formada hərəkət etdiyi üçün Allahı tanıma imkanını qəbul etməzdi. Qəzali isə düşüncə analizinə bel bağlaya bilmədiyi üçün mistik təcrübəyə yönəldi və orada din üçün müstəqil bir məzmun tapdı. Beləliklə də, dinin elmdən və metafizikadan tamamilə müstəqil şəkildə mövcud olmaq hüququnu təmin etməyə müvəffəq oldu".[1] Belə məlum olur ki, Kantdan fərqli olaraq Qəzali ağlın məhdud çərçivəsinə bir qapı qoydu – dini-mistik təcrübə. Yəni həm Qəzali, həm də Kant rasional təfəkkür və din arasında sərhəd qoydular. İslam Şərqində Qəzalinin göstərdiyi yol bir tərəfdən bu istiqamətdə inkişafı təmin etsə də, insanın bir ruhani varlıq kimi imkanlarını artırsa da, digər tərəfdən rasional təfəkkürün məhdud imkanlı olduğu üçün ümumiyyətlə "qıfıllanmasına" səbəb oldu. Qərbdə isə hər bir tərəfin öz hüdudlarını qorumaqla dərinə inkişaf etməyə üstünlük verildi.

---

[1] *Məhəmməd İqbal.* Bilik və təcrübə // Fəlsəfə və social-siyasi elmlər, № 4, 2008, s. 189.

İslam Şərqində müzakirələr, mübahisələr hələ də təməl ətrafında getdiyinə görə, zədələr də məhz ona – İslamın mahiyyətinə dəyirdi. Qərbdə isə çoxdan bu təməl üzərində yeni ideyalar yaranmışdı və təməl nəinki zədələnmir, əksinə qat üstünə qat gəldikcə möhkəmlənir, birləşdirici qüvvəsi artırdı. Qərbdə milli fəlsəfələrin yaranması fəlsəfə tarixində yeni səhifənin, yeni sözün deyilməsinə səbəb ola bilirdi və burada fəlsəfə mərhələ-mərhələ irəliləyirdi. İslam Şərqində isə ayrı-ayrı cərəyanlar üzərində durduqları təməlin bir hissəsini öz görüşləri hüdudunda dəyərləndirir və bunu bütün İslama şamil etməyə çalışırdılar. Təbii ki, bütün bunlar islam aləmində mənasız çəkişmələrə və münaqişələrin yaranmasına gətirib çıxarırdı.

Burada daha bir əhəmiyyətli faktı da vurğulamaq lazımdır. Xristianlıqda insanın Allaha yolu kilsədən keçir və Qərb təfəkkürünün ilk işi bu vasitədən qurtulmaq – az qala dinin, imanın sinoniminə çevrilmiş kilsəni aradan götürmə oldu. İslamda isə bu müqəddəs əlaqədə – əhddə heç bir kənar vasitə yoxdur, amma min bir yola əl atırdılar ki, bu vasitə yaransın. Dediklərimizin daha dəqiq mənzərəsini hər iki təfəkkürdə aparılmış "islahatlaşma" prosesləri

timsalında daha aydın təsəvvür etmək mümkündür.

Avropada islahatlaşma prosesi, demək olar ki, Renessans dövründən başlamış və əsas məqsəd kilsənin hakim ideologiyasının düşüncələrdə yaratdığı durğunluğu ortadan qaldırmaq olmuşdur. Dediklərimizə nümunə olaraq həm o dövrdə təşəkkül tapan və kilsənin əleyhinə qalxan protestantlığı, həm də insanın iç dünyasından, əsl həqiqətdən uzaq düşən sxolastikada düşüncənin və mənəviyyatın əhəmiyyətinin yenidən qaytarılmasında əhəmiyyətli rol oynamış mistik filosofları göstərmək olar. Təsadüfi deyil ki, «islahatlaşma» prosesinin başlıca qaynağı kimi sxolastika dövründə mövcud olan alman mistisizmini[1] və onun ən görkəmli nümayəndəsi, «almanca fəlsəfə terminlərinin atası»,[2] özündən sonrakı əksər mistik filosofların istinad yeri olan Meyster Ekxartı (1327) göstərirlər.

Avropada aparılan islahatlaşma dinin elmdən ayrılmasına səbəb oldu və bununla da Qərbdə yüksək inkişafın təməlini qoydu. İslam

---

[1] Geniş bax: *Macit Gökberk.* Felsefe tarihi. İstanbul: Remzi Kitabevi, 1999, s. 178.

[2] Geniş bax: yenə orada, s. 179.

Şərqindən alınan yeni ideyalarla xristian aləmi nəinki öz təfəkküründə yeni imkanlar açdı, həm də din və elm arasındakı mübarizədə hər birinin öz yerini təyin edə bildi və hər birinin öz istiqaməti boyu inkişaf etməsinə şərait yaratdı. Məsələ burasındadır ki, xristianlıqda elm dinlə mübarizə aparmalı idi. Çünki din elmin düşməni idi. Nümunə üçün göstərək ki, həm Apologetika, həm də sonrakı dövrlərdə qədim yunan fəlsəfəsi və ümumiyyətlə dindən kənar hər hansı mütərəqqi fikir, ideya kilsə tərəfindən ciddi şəkildə təqib olunur, hətta ölümlə cəzalanırdı. Hazırda tarixin həmin acı dövrünü təsvir edən bir çox əsərlər yazılır. Buna nümunə olaraq U.Ekonun "Qızılgülün adı", D.Braunun "Mələklər və iblislər" və s. əsərlərini göstərmək olar. Bununla belə, maraqlıdır ki, Qərbdə həm dinin institutlaşması və müstəqil hakimiyyətə sahib olması, həm də elmi nailiyyətlər elə bir səviyyəyə qalxıbdır ki, aralarındakı dərin nifaq yalnız bədii əsərlər hüdudlarında təsvir edir.

İslamın timsalında isə din elmə nəinki mane olmadı, əksinə, yeni ideyalar üçün mənbə ola bildi və elə ilk illərindən elmin, fəlsəfənin inkişafına xüsusi diqqət göstərdi. Bu

qayğının təzahürü kimi elmin hər bir sahəsi dinin çərçivəsi daxilində inkişaf etməkdə idi. Bunu nəzərə alaraq Səlahəddin Xəlilov yazır: "İslam yarandığı vaxtdan nəinki elmə qadağa qoymamış, hətta insanları elmi fəaliyyətə sövq etmişdir. ...Məhz buna görə də İslamın yarandığı və yayıldığı ilk əsrlərdə elm sürətlə inkişaf etmiş və əvvəlcə ərəb ölkələri, sonra isə bütün islam dünyası elmin inkişaf səviyyəsinə görə dünyada ən qabaqcıl mövqe tutmuşlar. Böyük din xadimləri eyni zamanda böyük elmi kəşflər etmiş, elmin bir sıra sahələrini inkişaf etdirmişlər". [1] Qurani Kərimin zəngin bilik mənbəyi olması və həyatın ən müxtəlif tərəflərini ehtiva etməsi imkan yaratdı ki, tədricən din elmi nəinki sıxışdırsın, hətta onu əvəz etmək iddiasına düşsün. İslam tarixində islahatlaşma kimi məlum olan proses də məhz bu ideyaya xidmət etmişdir.

XI əsrin görkəmli ortodoks alimi İbn Həzmin (1064) ideyalarından qaynaqlanan islahatlaşma prosesi XIV əsrdə Əhməd b. Teymiyyə əl-Hərraninin (1327) simasında yeni bir

---

[1] *Səlahəddin Xəlilov.* Şərq və Qərb. Ümumbəşəri ideala doğru (fəlsəfi etüdlər). Bakı, «Azərb. Universiteti», 2004, s. 145.

qüvvə ilə inkişaf etdi. [1] Məqsəd İslam adına səslənən hər bir ideyanı, dini-fəlsəfi cərəyanı təftiş etmək və İslamı Məhəmməd peyğəmbərdən (s.) sonrakı yeniliklərdən təmizləmək idi. Bunu neçə əsrlər keçəndən sonra İslamın təməlini "bərpa etmək", peyğəmbər dövründəki halını qaytarmaq cəhdi də adlandırmaq olar. İslahatlaşma prosesi bir tərəfdən, islam düşüncəsində müəyyən aydınlıq yaratmaq niyyəti ilə aparılsa da, digər tərəfdən onu əkilmiş ağacın qol-budaq atıb böyüməsi, çiçəkləməsi, bar verməsi üçün uyğun şərait yaratmaq əvəzinə, tez-tez qazıb ağacın kökünü yoxlamağa, pöhrələrini qırıb atmağa bənzətmək olar. Ən əsası isə, bu, dini təfəkkürün daha da sabitləşməsinə və dünyagörüşlərdə, o cümlədən, elmin inkişafının istiqamətlənməsində aparıcı qüvvəyə çevrilməsinə səbəb oldu.

Həm xristianlıqda, həm də İslamda aparılan islahatlaşma fərqli nəticələrə gətirdi. *İslam aləmində elm və din siam əkizləri kimi həm doğma bağlarla əlaqəli idilər, həm də bir-birinə mane olurdular.*

---

[1] Geniş bax: *Macit Fahri.* İslam felsefesi tarihi / Terc. K.Turhan. İstanbul: Ayışığı kitabları, 1998, s. 319-322.

İslam fəlsəfəsi qərblilərə elm və din arasında bir aydınlıq gətirmək üçün müəyyən mənada təkan oldu. Məhəmməd İqbalın fikrinə görə, "Avropa mədəniyyəti sadəcə olaraq intellektual cəhətdən İslam mədəniyyətinin bəzi ən önəmli mərhələlərinin daha çox inkişaf etmiş formasıdır".[1] Təsadüfi deyil ki, S.Xəlilov da tarixdən götürdüyü faktlar əsasında belə bir nəticəyə gəlir ki, "...Şərq təfəkkürünə ən çox uyğun gələn – xristianlıqdır. ...Belə ki, dinlər insandan bir qayda olaraq fərd kimi bəhs etdikləri halda, yalnız islam dinində toplum – cəmiyyət anlayışı önə çəkilir, ictimailəşmə və deməli həm də sivilizasiyanın təməl şərtləri dini müstəvidə öz əksini tapır".[2]

Əlbəttə, kimsə iddia etmir ki, xristian aləmindəki inkişafın hamısı yalnız İslamın xidmətidir. Lakin belə demək mümkündürsə, ideyanı götürüb onun təzahürü üçün yeni şərait və imkanlar yaratmaq növbəsi bu dəfə Avropanın idi: onlar islam fəlsəfəsindən aldıqları ideyalar üzərində öz yeni istiqamətlərini qurdular

---

[1] *M.İqbal*. Bilik və təcrübə, s. 190.

[2] *Səlahəddin Xəlilov*. Tarixin səhvi: islam və xristianlıq sivilizasiya kontekstində//www.felsefedunyasi.org /site/?name=xeber&news_id=44

və zəncirvarı reaksiya kimi inkişaf getdi. M.İqbal da təsdiqləyir ki, "bizim intellektual donuqluq içində keçirdiyimiz bütün əsrlər boyunca Avropa İslam filosof və alimləri üçün əhəmiyyətli olan böyük məsələlərlə ciddi şəkildə məşğul olmuş, bunları düşünmüşdür".[1] Avropa yeni bir addım ata bildi, durğunluqdan qurtularaq həm təfəkküründə, həm də elmində əhəmiyyətli irəliləyiş etdi. Təsadüfi deyil ki, bir sıra filosoflar Qərb təfəkkürünün yaranışını məhz bu dövrə aid edirlər.

İslam Şərqini bürüyən monotonluq arasında təbii ki, bəzi sıçrayışlar da olmuş və islam aləmində orijinal düşüncəli filosoflar yetişmişlər. Bunlardan Molla Sədra adı ilə məşhur olan Sədrəddin Şirazinin (1641) adını xüsusilə qeyd etmək lazımdır. Belə ki, işraqilik fəlsəfəsinin ardıcılı olan və Şihabəddin Sührəvərdinin, İbn Sinanın bir sıra əsərlərinə şərh yazan Molla Sədra eyni zamanda orijinal ideyalar irəli sürərək öz düşüncələrində ibnsinaçılığı, işraqiliyi və təsəvvüfü sintezləşdirmişdir.[2] Bəli, bu, özünəqədərki islam fəlsəfəsinin yeni

---

[1] *M.İqbal*. Bilik və təcrübə, s. 190.

[2] Geniş bax: *Macit Fahri*. İslam felsefesi tarihi, s. 312-313.

bir şərhi, sintezləşməsi və deməli, yenilik idi. Təbii ki, bu təlim dünya fəlsəfə aləmində öz səsini müəyyən dərəcədə eşitdirə bildi və bu gün Molla Sədra fəlsəfəsini öyrənmək, tədqiq etmək istəyən bir çox alimlər vardır. Lakin bu, yenə də islam düşüncəsinin irəliyə addımı ola bilmədi.

Molla Sədradan başqa islam düşüncəsinin yenidən dirçəldilməsi yolunda bir sıra mütəfəkkirlər olmuşlar ki, onların əməyi, gördükləri işlər diqqətdən kənarda qala bilməz: Molla Fənari (1350-1431), Cəmaləddin Əfqani (1838-1897), Məhəmməd Abduh (1849-1905) və s. Başqa sözlə desək, əsrlər boyu İslamın mahiyyətindəki həqiqəti üzə çıxarmağa, onu Qərbin "yedəyindən" xilas edərək öz ayaqları üzərinə qoyub, Qərb təfəkkürü ilə üzbəüz qoymağa çalışan bir çox mütəfəkkir olmuşdur.

# *İSLAM FƏLSƏFƏSİNİN ƏN YENİ TARİXİ*

Tədqiqatımızın ilk hissəsi islam düşüncəsinin dünənini – tarixini ehtiva edir. Təəssüfləndirici haldır ki, bu tarix artıq neçə əsrlərdir ki, tarixi keçmişi öyrənməklə yazılır. Əsrlər boyu islam fəlsəfəsi arxaya baxa-baxa irəliləmək taktikasını mənimsəyib. Bunu nəzərə alaraq, araşdırmanın ikinci hissəsi islam fəlsəfəsinin ən yeni tarixinə həsr edilib. Əslində bu, çox geniş və mürəkkəb bir mövzudur və bizim təqdim etdiyimiz hər istiqamət, hər filosof ayrıca bir tədqiqatın obyektidir. Belə kiçik həcmli bir əsərdə isə biz yalnız islam fəlsəfəsinin ən yeni tarixinin əsas ideya istiqamətlərinin və ümumi konturlarını təyin etməyə cəhd göstərəcəyik.

İslam fəlsəfəsinin, ümumiyyətlə islam düşüncəsinin bu günü bir çox alim və filosofun diqqət mərkəzindədir. Onlar günün reallığından çıxış edərək axtarışlar aparır, ideyalar irəli sürürlər ki, bu addımlardan hər birinin öz dəyəri, öz əhəmiyyəti vardır.

Hazırda Qərb düşüncəsi dünya fəlsəfəsində aparıcı mövqe tutduğuna görə, islam düşüncəsinin ən yeni tarixində də bu fakt əhəmiyyətli rol oynayır.

Mütəfəkkir və tədqiqatçıların ideya və məqsədlərini, təklif etdikləri əsas inkişaf istiqamətləri nəzərə alaraq onları şərti olaraq üç qola ayırmaq mümkündür:

1. ***Modernistlər*** – islam düşüncəsinin "avropalaşma" vasitəsilə yenilənməsinin tərəfdarları.

2. ***İslahatçılar*** – klassik İslamın yeni təfsirçiləri və maarifçilər.

3. ***Vəhdətçilər*** – islam fəlsəfəsinin daxili potensialı ilə bugünün hakim fəlsəfi təfəkkürü arasında günün real şəraitinə uyğun olaraq vəhdət yaradanlar.

## *Modernistlər*

Birinci qolun nümayəndələrinin fəaliyyət istiqaməti Qərb siyasəti və ideyaları ilə daha çox səsləşdiyinə görə, hazırda kifayət qədər geniş vüsət almış və daha sabit, iri miqyasda inkişaf etməkdədir. Bunlar İslamı inkişaf etdirmək naminə istəyənlər, onu orta əsrlərin keçmişindən çıxararaq modern dünyaya uyğunlaşdırmağı ən düzgün yol kimi görənlərdir. Düzdür, İslamın yalnız bir neçə prinsipini əsas götürərək əsl mahiyyətdən uzaqlaşmağın və İslamın özünü də məhz bu rakursda təqdim etməyin əslində islam düşüncəsinə bir aidiyyatı yoxdur. Bununla belə, nəzərə alsaq ki, bu proses islam dövlətlərində, müsəlman cəmiyyətlərində bir çox halda nüfuz sahibi olan şəxslər tərəfindən akademik səviyyədə həyata keçirilir, onda qısa şəkildə olsa da, ona toxunmağımız məqsədəuyğun olar.

Bu ideyaya xidmət edənlər sırf Avropanın yolunu və Qərb təfəkkürünü rəhbər tutaraq

İslamda müəyyən islahatlar aparılmasının zəruriliyini vurğulayır, bu istiqamətdə dialoqlar qurur, konfrans və simpoziumlar təşkil edərək islami dəyərlərin «avropalaşdırılması» yollarını axtarır, ümumi cəhətlər vasitəsilə Şərq və Qərb arasında barışıq əldə etməyə çalışırlar. Maraqlıdır ki, belə alimlər Qərbdə daha tez qəbul edilir və bir növ öz ölkəsində Qərbin dayaq nöqtəsinə çevrilirlər. Əbu-l-Həsən Əli Nədvi belə şəxsləri nəzərdə tutaraq yazır: «Şərq xalqları ona müqavimət göstərirlər ki, Qərb ideyaları və idealları onlara kənardan sırınır; onlar bunu könüllü etmək üçün imkan istəyirlər. Onlar nəinki Qərb sivilizasiyasının ideallarından imtina etmək istəmirlər, əksinə, bu sivilizasiyanın bayraqdarı olmaq istəyirlər».[1] Düzdür, ilk növbədə vurğulanır ki, məqsəd islam dünyasını irəli aparmaqdır, lakin bu da bir reallıqdır ki, Qərb meyarları aparıcıdır və «avropalaşma», «qloballaşma» qəlibindən kənarda qalan dəyərlər sadəcə olaraq "kəsilib atılır".

Bu istiqamətin nümayəndələri İslamı Qərbin təqdimatında qəbul etməklə həm də öz

---

[1] *Абу-ль-Хасан Али Надви*. Что потерял мир по причине отхода мусульман от Ислама. Пер. с англ. М., Изд. дом «Ансар», 2006, с. 163.

ideyalarını Qərbin hazırda boşluq üzərində var olan və uçuruma məhkum olan prinsiplərinin üzərində qurmağa çalışırlar. Modernləşmə, yaxud avropalaşma adlandırıla biləcək bu proses əslində İslamın tarixi kökləri ilə bağlı olmaqdan daha çox, Qərb ideyalarının İslama daha dərindən nüfuz etməsidir. *Bu işin ən faciəli tərəfi isə müsəlmanın özünün öz dininə qarşı düşmənə çevrilməsi və onun «köhnə» qanunları ilə mübarizəyə qalxmaq, qərbsayağı islahatlar aparmaq həvəsinə düşməsidir*.

Modernistlərin hazırda əsas istifadə etdikləri üsullardan biri dinlərarası dialoqdur. Keçən əsrin 60-cı illərindən aktual olan bu mövzu ətrafında kifayət qədər müzakirələr gedib, kitablar yazılıb və hazırda bu proses, yəni "dialoq" artıq akademik səviyyədə aparılmaqdadır. Yəni mövzunun miqyası həm dərininə, həm də eninə böyüməkdədir. Tədqiqat problemimizlə müəyyən nöqtələrdə kəsişdiyinə görə, biz də qısa şəkildə öz fikrimizi bildirək, bu üsulun kimə və hansı məqsədə xidmət etməsinə qısa bir təhlil verək.

İlk növbədə vurğulayaq ki, dialoq hazırda Şərq və Qərb arasında yaranmış həm gizli, həm də aşkar qarşıdurmada ən optimal yoldur.

Elmir Quliyev yazır: “Dini şəbəkə kimi İslam özünün açıqlığı, rahat şəkildə genişlənmək imkanı, dəyişən şəraitə tez uyğunlaşması, həmçinin (bir çox başqa dinlərdən fərqli olaraq) sərt mərkəzləşmənin, iyerarxiyanın və qərar qəbulunda mürəkkəb mexanizmlərin olmaması ilə xarakterizə olunur və qloballaşma dövründə çox gözəl inkişaf perspektivlərinə malikdir”.[1] Bizim tənqid etmək istədiyimiz nə islam və xristianlığın ortaq bir barış nöqtəsi tapıb bəşəriyyətin xeyri üçün bərabər çalışmasıdır, nə də Şərq və Qərb təfəkkürünün vəhdət zirvəsinə ucalmaq istəməsı. Əbu Turxan deyir ki, “qütblər zirvədə birləşir”. Deməli, bütün dinlərin, inancların, siyasətdən uzaq ən ali prinsipləri eynidir və eyni məqsədə xidmət edir. Burada ortaq nöqtənin axtarılmasına, bir dinin digərinə “uyğunlaşdırmasına” xüsusi ehtiyac yoxdur.

Əlbəttə, günün reallığı kimi “müsəlman dünyasının başqa sivilizasiyalarla dialoq perspektivi və belə dialoqun konceptual əsaslarının təyin edilməsi tələb olunur. Bu isə həmin sahədə mövcud olan bir sıra ziddiyyətlərin və

---

[1] *Эльмир Кулиев.* Коран и глобализация: в поисках гуманистических идеалов. Баку, «Абилов, Зейналов и сыновья», 2005, s. 10.

həll olunmamış məsələlərin ortaya çıxartdığı əhəmiyyətli çətinliklərlə müşayiət olunur”. [1] Lakin bunu da nəzərə almamaq olmur ki, bu dialoqlar daha çox monoloq xarakterlidir, Qərb – aparıcı, İslam Şərqi isə yardımçı fikir sahibləridir, Qərb – əsas təməl və korpus, İslam Şərqi isə yalnız bu mexanizmin bəzi boşluqlarını dolduran detaldır, onda belə bir nəticəyə gəlmək olar ki, bunlar məqsədyönlü bir siyasətin ayrı-ayrı gedişləridir. Dediyimizə təsdiq olaraq 1963-cü ildə (1962-1965-ci illərdə keçirilən II Vatikan Qurultayı zamanı) ilk dəfə dinlərarası dialoq ideyasını irəli sürən və bununla bağlı olaraq kilsənin tarixi missiyasını xatırladan Vatikan Papası VI Paulun dediklərinə müraciət edək: “Katolik kilsəsi daha uzaqlara – xristianlığın üfüqündən o yana baxır. ...İncil: “hər yaradılmışa İncili çatdırmaq üçün bütün dünyaya yayılın”, – deyir”.[2] Əlbəttə, hər bir din xadiminin öz dinini təbliğ etməsi, onun inkişafı üçün çalışması təqdiredici haldır. Bununla belə, bu prosesin bir də fərqli bir üzü var ki, mütləq nəzərə alınmalıdır. Aydın məsələdir ki, İslama

---

[1] Yenə orada, s. 10-11.

[2] www.hakikat.net/icerik/anasayfa_hristiyanlik/diyalogtan_misyonerlige.php

qarşı yönələn uzun əsrlərin mübarizəsi hələ bitməyib. Və bunun bir təzahürüdür ki, qarşı tərəf İslam Şərqinin ideologiyasında boşluqlar axtarır, yaxud məqsədyönlü şəkildə belə boşluqları yaradır və sonra da onlar vasitəsilə öz ideyalarının, niyyətlərinin reallaşması üçün geniş meydan qazanır. Qısa şəkildə desək, müasir dövrün ən «mütərəqqi» təklifi olan *dinlərarası dialoq – yeni bir istismarçılıq siyasətinin yürüdülməsidir*. Bu dəfə istismar edilən isə təfəkkür, dəyərlər və mənəviyyatdır.

## *İslahatçılar*

İslahatçıların fəaliyyətləri artıq dünyanın bir sıra inkişaf etmiş ölkələrində əks-səda tapmış və hazırda kifayət qədər yayılmışdır. Burada əsas məqsəd İslamın mahiyyətini həm müsəlmanların özünə, həm də qeyri-müsəlmanlara çatdırmaq, bu istiqamətdə maarifçilik işləri aparmaq və bununla da bir növ İslamın itirilmiş, yaxud örtülmüş simasını üzə çıxarmaqdır.

Qloballaşma və qərbləşməyə əks proses kimi təqdim edilən "islamlaşdırma" prosesinin təməl prinsiplərindən biri "biliyin islamlaşdırılmasıdır".[1] Biliyin, yaxud elmlərin islamlaşdırılması şüarı ilə həyata keçirilən bu proses keçən əsrin sonlarından başlanıb və hətta bəzi ölkələrdə, məsələn, İndoneziyada, Malayziya-

---

[1] Islamization of Knowledge. General Principles and Work Plan. Edit. by Abdul Hamid A. Abu Sulayman. International Institute of Islamic Thought, Herndon, Virginia USA, 1995, p. 83.

da dövlət səviyyəsində aparılmaqdadır. Ümumiyyətlə, "biliyin islamlaşdırılması" termin olaraq ilk dəfə elmi ədəbiyyata malayziyalı alim Seyid Məhəmməd Nakib əl-Attas tərəfindən 1978-ci ildə nəşr etdirdiyi "İslam və Sekyularizm" kitabında gətirilmişdir. Ondan sonra ideya daha geniş şəkildə fələstin alimi İsmail Faruki tərəfindən 1982-ci ildə "ümmətin (möminlərin) tənəzzülü" kontekstində istifadə edilmişdir. Təqdiredici bir faktdır ki, bu ideya hazırda ABŞ-da (Virciniyada) Beynəlxalq İslam Düşüncəsi İnstitutu sayəsində daha geniş vüsət almış və iri miqyaslı işlər görülməkdədir. Belə alimlər sırasında Əbdülhəmid Ə. Əbu Süleymanın, Taha Cabir Əlvaninin və başqalarının adlarını çəkmək olar. Məsələn, adı çəkilən institutun yaradıcılarından və öndə gedən alimlərindən olan Əbu Süleyman bildirir ki, "Bizim tədqiqatımızın və araşdırmamızın məqsədi bizim (müsəlmanların – K.B.) görüşlərimizi yeniləməklə, gələcəyə bir addım atmaq, metodologiyamızda islahatlar aparmaq, güc mənbələrimizi inkişaf etdirmək olmalıdır".[1]

[1] *Abdul Hamid A. Abu Sulayman.* Crisis in the Muslim Mind. Trans. by Yusuf Talal DeLorenzo.

Həm bu alimlərin öz fəaliyyətlərinin, həm də bu fəaliyyətin əks-sədası kimi artan ideya tərəfdarlarının əməklərinin nəticəsində bu gün təhsilli və savadlı müsəlmanların sayı artmaqdadır. Nəzərə alsaq ki, bu gün bəzi təriqətlər və bir sıra radikal qüvvələr və qruplaşmalar da öz şəxsi maraqları çərçivəsində müəyyən "maarifləndirmə" işləri aparırlar, onda islahatçıların "biliyin islamlaşdırılması" istiqamətindəki fəaliyyətlərinin necə böyük əhəmiyyət və dəyər daşıması aydın olar.

Bir neçə kəlmə bu fəaliyyətin mahiyyəti və islam düşüncəsinin inkişafındakı rolu barədə.

Bu ideyanın tərəfdarları islam aləmini bürüyən böhranın üç sahədə özünü göstərdiyini bildirirlər: "ağlın böhranı, ideologiyanın və mədəniyyətin böhranı, mənəviyyat və tərbiyənin böhranı".[1] Çıxış yollarından biri kimi isə Qərbdə artıq kifayət qədər inkişaf etmiş bilikləri İslam prinsipləri çərçivəsində, islam me-

---

International Institute of Islamic Thought, Herndon, Virginia USA, 1997, p. 62.

[1] *Əbdülhəmid Ə. Əbu Süleyman*. Müsəlmanın iradə və mənəviyyatının böhranı, Bakı, "İdrak" İctimai Birliyi, 2009. s. 10.

todologiyası əsasında və müsəlman cəmiyyətində tətbiq etməyi göstərirlər. Əbu Süleymanın yazdığına görə, "Sivilizasiya ilə ayaqlaşa bilməmək böhranın təməlidir. Lakin vəziyyət bir sıra başqa məsələlər diqqətə alınmayana qədər öz həllini tapmayacaq: müsəlman ağlının kursu düzgün müəyyənləşməyənə; islam düşüncəsinin müxtəlif (bir neçə) məsələlərə yanaşma metodları düzəlməyənə və onun metodologiyası hadisələr, meydan oxumalar, münasibətlər və sosial həyatın digər aspektləri ilə məşğul olmağa qadir ola biləcək bir yolla yenidən strukturlaşmayana qədər. Əgər ümmətin metodologiyası sağlamdırsa, onda onun düşüncəsi (təfəkkürü) də ona (ümmətə) islahat səyləri üçün və qarşılaşdığı meydan oxumalara sinə gərmək üçün lazımi enerji təmin etməyə qadir olacaqdır".[1]

Əhəmiyyətli bir haldır ki, islahatçılar islam aləmini böhrandan qurtarmağın yolunu İslamın öz ideologiyasının yaranmasında görürlər. Müsəlman cəmiyyətinin mənəvi aləminə, psixologiyasının ənginliklərinə nüfuz etməyi islam mütəfəkkirlərinin həqiqi problemlərinin

[1] *Abu Sulayman.* Crisis in the Muslim Mind. p. 35.

və islam ideologiyasındakı təhriflərin həll yolu kimi görən Əbu Süleyman yazır: "Bundan sonra düzgün elmi metodologiya hazırlayıb təşəbbüskarlığı ümmətin öz övladlarının – ziyalılarının, ideoloqlarının əlinə vermək olar[1].

İslahatın ilk addımı ***İslamın təməl prinsiplərinə yenidən müraciət etmək və onları yeni şərtlər kontekstində şərh və tətbiq etməkdir.*** Əbu Süleyman yazır: "Nə qədər ki, müsəlmanlar sələflərinin qoyduğu mirasla real surətdə məşğul olmaqdan imtina edirlər, onları və onların əsərlərini davamlı olaraq müqəddəs bir şey kimi qəbul edir, onların (klassik islam alimlərinin) ideyaları və təcrübələri müasir problemlərin həllində istifadə edilə bilməz və müsəlmanlara müasir insanın və cəmiyyətin həyatının reallıqları ilə İslamı əlaqələndirməkdə kömək edə bilməz".[2] Bəli, ənənəyə qayıdılır, amma rasional və bugünün elmi nailiyyətləri nəzərə alınmaqla, çünki alimin də qeyd etdiyi kimi, "bizim ənənəvi metodologiyanın gündəlik problemlərin həllindən harada geri qalmağını başa düşməyimiz vacibdir. Çünki

---

[1] *Əbu Süleyman*. Müsəlmanın iradə və mənəviyyatının böhranı, s. 10-11.

[2] *Abu Sulayman.* Crisis in the Muslim Mind, p. 57.

çatışmazlıqlar yalnız metodologiyada deyil, həm də ənənəvi alimlərin bu metodologiyanı istifadə qaydalarındadır”.[1] Deməli, məqsəd sadəcə təmələ qayıdış deyil, ona dinamik bir münasibət bəsləməkdir. Sələfləri müqəddəs elan edib, toxunulmaz saxlamaq yox, müasir dövrlə səsləşən və səsləşməyən, üstün və çatışmayan cəhətləri təhlil etməkdir.

İslahatlaşmanın, yaxud biliyin islamlaşdırılmasının ikinci prinsipi həm də ***tarixdən düzgün dərs almaqdır***. Əbu Süleyman yazır: “Biz gərək öz keçmişimizi anlayaq, onun verdiyi dərslərdən yararlanaq onun pozitiv aspektlərinə diqqət verməklə onu güc mənbəyi edə bilək və sonra onun üzərində nə isə quraq. Biz artıq əsrlərimizi tarixin neqativ aspektlərinə boş-boşuna yandırmışıq və biz hədər yerə belə şeylərə daha artıq vaxt və güc sərf edə bilmərik”.[2] Bəli, islam düşüncəsinin həm çiçəklənmə, həm də böhranlı dövrləri dərs almaq üçün zəngin bir nümunədir. Deməli, sadəcə təmələ qayıtmaq yox, arada böyük bir zaman kəsiyini əhatə edən inkişaf (yaxud mövcudluq) tarixi-

---

[1] Yenə orada.
[2] Yenə orada, s. 60.

nin özünə də yaradıcı münasibət bəsləmək lazımdır.

Yeri gəlmişkən, maraqlıdır ki, İslamı terrorda və radikallıqda günahlandıran fransız tarixçi Jil Kepel "biliyin islamlaşdırılması" ideyasını müsbət qiymətləndirərək belə vurğulayır: «Bu siyasətin («biliyin islamlaşdırılmasının» konsepsiyası ilə tərbiyə olunan islam elitasının hazırlanması) nəticəsində gənclik öz ideologiyalarının radikal interpretasiyasına, deməli, həm də mövcud nizamın yenidən nəzərdən keçirilməsinə maraqlarını itirirlər». [1] Tarixçinin sözlərində Qərbi qane edən iki ana diqqət yönəldək: radikallıqdan uzaqlaşmaq və öz durumunun əsl mahiyyətinə varmadan, mövcud vəziyyətlə barışaraq nə isə dəyişmək həvəsində olmamaq; birinci nə qədər xoş və məqbul addımdırsa, ikinci bir o qədər etiraz və narahatlıq doğurur.

Nəzərə alsaq ki, Jil Kepel bir növ prosesə kənardan bir baxışdır, onda bu prosesin mahiyyəti üzərində nisbətən geniş dayanmaq məqsədəuyğun olardı.

---

[1] *Жиль Кепель.* Джихад. Экспансия и закат исламизма. Москва, Научно-издательский центр «Ладомир», 2004, с. 92.

Biliyin islamlaşdırılması bir islahat prosesidir ki, kökündə, Yeni Dövrdə (XIV əsr) olduğu kimi, təməl prinsiplərə qayıtmaq şərti durur. Düzdür, burada məsələyə artıq rasional bir yanaşma, Farukinin bildirdiyi kimi, "bütün biliklərin islami epistemoloji təməllə yeni bir sintezi" lazımdır və "müsəlmanların intellektual həyatda aktiv iştirakçı olub ona islami nöqteyi-nəzərdən təsir göstərməsi"[1] vacib məqsədlərdən biridir. Bununla belə, bütün proseslər, islahatlar yenə də təməl üzərində aparılır. İslamlaşdırılmaq üçün "import" edilən biliklər sırasına əsasən humanitar və ictimai sahələrə məxsus biliklər aiddir. Farukinin görüşlərini təhqiq edən türk alimi İbrahim Qalın yazır ki, "Farukinin layihəsi Qərbdən alınan mövcud elmlərin islamlaşdırılması üçün təklif edilsə də, onun diqqəti yalnız humanitar sahəyə yönəlib, elmi biliklərə isə praktiki olaraq toxunmur. Mümkün ki, onun belə bir ideyanı qəbul etməsi müasir təbiət elmləri ilə yaranmış biliyin gövdəsinin neytral olması və buna görə də xüsusi bir diqqətə layiq olmaması ilə əlaqədar-

---

[1] http://www.ismailfaruqi.com/news/dr-ismail-al-faruqis-approach-to-islamization-of-knowledge/

dır".[1] Deməli, Qərbin ən son elmi nailiyyətləri ilə İslamın ilkin dövrləri qarşılaşdırılır, sintez yolları araşdırılır.

Yuxarıda da qeyd etdiyimiz kimi, islam filosoflarının Qərbdə uğur qazanmış bir sıra ideyaları vardır ki, onların müəllifləri və həmin ideyanın əsl kökü hazırda həm Qərb, həm də islam aləmində kölgədə qalmaqdadır. Məsələn, "ağıl və vəhy arasında xəyali (qeyri-real) mübarizəni" və onun nəticələrini təhlil edən Əbu Süleyman yazır: "Nəticədən biri də bu idi ki, teologiya elmi islam ağlı ilə heç bir əlaqəsi olmayan fəlsəfi arqumentlər və rasional müzakirələr arasında dolaşıb qaldı".[2] Belə məlum olur ki, fəlsəfi təfəkkürlə, arqumentlərlə islam düşüncəsinin heç bir əlaqəsi olmamalıdır!? İslam düşüncəsinin gələcək ideologiyası fəlsəfədən uzaq yaranmalıdır?!

Əsrlər boyu mübahisəyə səbəb olmuş bu məsələ, yəni din və fəlsəfənin münasibəti bila-

---

[1] *Ibrahim Kalın*. God, Life and the Cosmos. Ashgate, 2002, p. 60-61 // http://www.ismailfaruqi.com/news/dr-ismail-al-faruqis-approach-to-islamization-of-knowledge

[2] *Əbu Süleyman.* Adı çək. əsər, s. 46.

vasitə tədqiqat mövzumuzla əlaqəli olduğuna görə, bu barədə bir neçə kəlmə deyək.

Adətən fəlsəfə tarixində ilk islam filosofu kimi Fərabinin, daha yaxşı halda isə Kindinin, yəni qədim yunan fəlsəfəsinin nəfəsini İslama gətirənlərin adlarını çəkirlər. Onların qədim yunan fəlsəfəsinə "doğmalıqlarını" və "layiqli varis" olduqlarını göstərmək üçün hətta bəzən Fərabiyə Aristoteldən sonra "ikinci müəllim" də deyirlər. Əlbəttə, ta erkən orta əsrlərdən bəri təsdiqlənə-təsdiqlənə gələn bu rəyə nə isə əlavə etmək çətindir və bu fikirdən uzağıq. Lakin bir də alternativ bir rəylə tanış olaq.

Səlahəddin Xəlilovun haqlı olaraq bildirdiyinə görə, "islam yaranandan çox az sonra az qala dünyanın yarısında yayıldığı halda, guya IX əsrə qədər onun fəlsəfəsinin olmaması haqqında formalaşmış fikir" [1] təəccüblü haldır. Fəlsəfə (philosophy) qədim yunan sözü olsa da, özü yalnız yunanlara aid deyil. Müdriklik – özünütanıma, özünüdərk hissi, malik olduğu həqiqətlərin mahiyyətinə varmaq arzusu və bunun üçün müvafiq üsulların axtarılması insan

[1] *Səlahəddin Xəlilov.* İslam fəlsəfəsi nə vaxtdan başlayır // Fəlsəfə və sosial-siyasi elmlər, № 1, 2010, s. 20.

yaranandan mövcuddur. Əbədi hikmətin yalnız bir qoluna – yunanlara kəşf olunan, onların dilində və təfəkkürü işığında təzahür edənlərə fəlsəfə adı verib digərlərini bu addan məhrum etmək necə əsrlik qədim fəlsəfələrə, hikmətlərə qarşı haqsızlıqdır. Qəribə və təəssüfləndirici bir haldır ki, Şərqin yalnız seçmə (Qərbin seçdiyi!) şəxsiyyətlərinə filosof titulu verildiyi halda, Qərbdə düşünməyi bacaran hər bir alim filosof hesab edilir. Məsələn, X əsrin görkəmli simalarından olan, düşüncələri və şəxsiyyəti bu gün də güclü təsirə malik olan Mənsur Həllac tarixdə bir sufi, mistik, ən yaxşı halda bir sufi mütəfəkkiri kimi tanınır. Onunla eyni mövqeli, eyni mövzunu "paylaşan", alman fəlsəfəsinin inkişafında müstəsna rolu olan Meyster Ekxart isə şərtsiz olaraq filosofdur, yalnız bəzi xırdalıqlara varılanda, haqqında mistik, teoloq kimi ifadələr işlənir. Bənzər nümunələri uzatmaq da olar. Lakin bizim diqqət yönəltmək istədiyimiz başqa bir real problem var – eyni münasibət bu gün də var və artıq Şərqin özündə də bir aksiom olaraq qəbul edilməkdədir: Şərqdə filosof yoxdur, ola da bilməz. Heç bir alternativə yer qoymayan, bir kəlmə ilə Qərb ideologiyasının boyunduruğunu qəbul

edən bu təslimiyyətdə daha çox Hegelə – qərbli filosofa istinad edilir. Düzdür, Xəlilov bunun səbəbini belə izah edir: “İslami dünyagörüşü əsrlər keçməsinə baxmayaraq, hələ də sinkretik halda qalmaqdadır. Yəni müxtəlif fərqli yanaşmalar, hətta bir-biri ilə mübarizə aparan alternativ təlimlər fəlsəfi prizmadan keçirilməmiş, onların təməl prinsiplərini ehtiva edən fəlsəfi cövhər müstəqil bir müstəviyə köçürülərək ənənəvi fəlsəfi terminologiya kontekstinə salınmamışdır”.[1] Lakin bununla yanaşı, Xəlilov alternativ bir yolun varlığından da xəbər verir. Belə ki, o, ənənəvi, yəni aristotelçi fəlsəfədən uzaq olan, lakin əslində “eyni bir fəlsəfi mahiyyətin fərqli rakursdan üzə çıxışı” olan və islam fəlsəfəsinin tarixini Kindidən daha əvvəlki dövrlərə aparan təsəvvüfü fəlsəfədə, əbədi hikmətin təzahüründə daha fundamental bir model adlandırır: “İnsan dünyaya öz ruhani aləmindən açılan pəncərədən baxır. Yəni insan özü ruh və Allahla eyni bir cəbhədədir. Və o təbiətin bir hissəsi olmayıb, təbiətlə qarşı tərəfdir”. Filosofun dedikləri fəlsəfədə yeni

[1] Yenə orada, s. 21

üfüqün varlığından danışır, üstəlik bu üfüq məhz İslama aiddir.

İslam düşüncəsinin əhəmiyyətli bir dövrünün, üstəlik Qərb təfəkkürünün inkişafına müsbət təsir göstərən bir dövrünün qəbul edilməməsi isə yenə də təməldən başlamağa üstünlük vermək deməkdir.

Onu da mütləq vurğulamaq lazımdır ki, biz heç də İslamın əsas prinsiplərinin deyil, əksinə, onların hər dövrə və hər alimin dünyagörüşünə müvafiq dönə-dönə dəyişdirilməsinin əleyhinəyik. *Dəyişməli olan bu təməl üzərində dövrlə səsləşən ideologiya, fəlsəfi sistem olmalıdır.* İslam dininin prinsipləri özündə inkişafın, dinamizmin potensialını ehtiva edir. Elmir Quliyev yazır: "İslam əqidəsinə görə, Quran dəyərlərinin məqsədi sivilizasiyanı ilahi iradəyə və insanın təbiətinə uyğun yola qaytarmaqdır". [1] Qurani Kərim zəngin ideyalar mənbəyidir və tarixdən də məlum olduğu kimi, bir çox dini və fəlsəfi cərəyanlar bu mənbəyə istinad etmiş və etməkdədirlər. Deməli, İslamın yalnız bir istiqamətini rəhbər tutaraq digərlərini ona maneə kimi qəbul etmək düzgün deyil,

---

[1] *Эльмир Кулиев.* Коран и глобализация, с. 167.

onun bütün potensialını üzə çıxarmağa çalışmaq, ondan düzgün yararlanmaq və bu vasitə ilə onun hərəkətverici enerjisini oyatmaq lazımdır.

İslamın öz mahiyyətini, öz fəlsəfi qatını kəşf etmək bir zərurətdir. Bu işi isə filosoflar öz üzərlərinə götürməlidirlər – İslamın öz fəlsəfəsini, öz müdrikliyini anlayan, yaşayan və İslama canı yanan şəxslər.

## *Vəhdətçilər*

İslam düşüncəsinin böhranının həlli yollarını fəlsəfi qatda axtaran və bununla digər iki istiqamətdən fərqlənən *vəhdətçilər* də öz növbəsində iki yerə ayrılırlar.

Birincilər İslamın zəngin irsini və potensialını göstərən, günün real problemini dərk edərək onu bütün çılpaqlığı ilə təqdim edən və hansı istiqamətdə hansı addımların atılmasının zəruriliyindən danışan və yazan şəxslərdir. Bir çox məsələlərdə istinad etdikləri prinsiplər və istifadə etdikləri metodlar bir-biri ilə səsləşdiyinə görə, ənənəçiləri də bu sıraya aid etmək mümkündür. Qısa desək, onların görüşləri hazırda islam düşüncəsinin durumunun düzgün təhlili olsa da və məsələnin bəzi tərəflərinə aydınlıq gətirsə də, bu, problemin yalnız üfüqi müstəvidə həllidir. Bu sırada bizim tanış ola bildiyimiz müəlliflərdən Əbu‘l-Həsən Əli Nədvini, Seyid Hüseyn Nəsri və Kənan Gürso-

yu* göstərmək olar.

İkincilər isə, bizim fikrimizcə, İslamın hərəkətverici enerjisini bərpa etməklə yanaşı, öz addımları ilə fəlsəfədə yeni bir mərhələnin başlanğıcını qoya bilmiş, yəni məsələnin həm də şaquli istiqamətdə həllini təklif etmiş şəxslərdir. Bu sıraya Məhəmməd İqbalı, Toşihiko İzutsunu və Səlahəddin Xəlilovu aid etmək olar.

Deyilənləri aydınlaşdırmaq məqsədi ilə hər iki istiqamətin təməl prinsipləri haqqında müəyyən bir şərh verək. Mövzunu daha konkret və aydın şərh etmək üçün filosofların görüşlərini tezis şəklində ümumiləşdirərək təqdim etməyə çalışacağıq.

Onu da bildirək ki, vəhdətçilərin əksər prinsipləri islahatçıların prinsipləri ilə üst-üstə düşür. Bu, təbii, hətta məntiqlidir. Hər halda söhbət eyni obyektdən – islam düşüncəsindən, mənəviyyatından və ideologiyasından və eyni

---

* Bu və irəlidə adlarını çəkəcəyimiz alimlərdən hər biri kifayət qədər dünya çapında tanınırlar və biz bilərəkdən onları ümumi islam dünyasının filosofları olaraq təqdim edərək, hansı millətə, dövlətə aid olduqlarını yazmırıq.

məqsəddən gedir. Fərq məsələyə yanaşma metodunda və baxış prizmasındadır.

# I

İslam ümumbəşəri bir dindir və onun malik olduğu yüksək prinsipləri aşkarlamaqla, onların əsl mənasını hər kəsə çatdırmaqla həm İslamın ali mahiyyəti sübut edilmiş olar, həm də bəşəriyyət indiki dövrdə yaşadığı ruhi-mənəvi böhrandan xilas olar. Bu baxımdan, ***ilk istinad olunan prinsip imandır.*** İlk baxışda bu tezis islahatçıların düşüncələri ilə səsləşir, onlarla eyniyyət təşkil edir. Əslində, bu, təəccüblü deyil, çünki söhbət İslamdan və onun kainat, bəşəriyyət üçün bir xilasedici ideyaya malik olmasından gedir. Lakin burada əhəmiyyətli bir fərq var. İslahatçılar məsələyə sırf dini aspektdə yanaşdıqları və aparılacaq dəyişiklikləri dinin özündəki islahatlardan başlamağı düşündükləri halda, filosoflar İslamın öz fəlsəfəsini açmaqla və İslamın mahiyyətinin fəlsəfi səviyyədə təbliği vasitəsilə həyata keçirməyin tərəfdarıdırlar. Bunu bir növ bəşəriyyətə üst qatdan təsir də adlandırmaq olar. Məsələn, Kənan Gürsoy yazır: «İslamiyyət bütün bir kainat üçün, kosmopolit insan üçün, yəni bütün in-

sanlıq üçündür. Belə olan halda, İslam dini üzərində bir layihə hazırlasaq, onun gələcəyi haqqında danışsaq, bütün insanlığı təməl olaraq götürmək, bütün insanlığı söhbət mövzusu etmək məcburiyyətindəyik».[1]

İman İslamın ən güclü silahıdır və filosofların ilk növbədə ona müraciət etmələri təəccüblü deyil. Nədvi yazır: «İman əxlaqi tərbiyənin əla mənbəyi idi. O, öz davamçılarında heyrətamiz iradə gücü, özünütənqid və özünə qarşı ədalət hissini yaradırdı. Heç bir şey Allaha canlı bir iman qədər insanın daxili istəklərinə qarşı dura bilməz…»,[2] «müsəlmanın gücü onun İlahi mükafata və axirət həyatına imanındadır».[3] Seyid Hüseyn Nəsr isə müsəlmanın öz imanı ilə hətta bütöv Qərbə qarşı dura biləcəyi fikrindədir: «Çökməkdə olan gizlin azmaq zəncirindən qurtulmağın bir tək yolu vardır. Bu da İslamın hər cür şərtlərin fövqündə olan dəyişməz və sonsuz səbəblərinə inancla bağlanmaq və sonra da bu səbəbləri müsəlmanların qarşısına çıxan hər cür vəziyyətə və onla-

---

[1] *Kənan Gürsoy.* Bir Felsefe Gelenegimiz Var Mı? İstanbul, Etkileşim Yayınları, 2006, s. 123.

[2] *Надви.* Что потерял мир…, с. 48.

[3] Yenə orada, s. 168.

rı irəli aparan hər cür dünyaya uyğunlaşdırmaqdır.[1]

Bu gün İslam təəssübkeşlərinin sayı gün-bəgün artmaqdadır. Bu statistik dəyişikliyin əhəmiyyətini müharibədə böyük bir ordunun sıravi əsgərlərinin sayının artmasına bənzətmək olar. Qanları-canları bahasına hər qarış «torpağı» müdafiə edən, onun müqəddəsliyini qoruyan vətənpərvər şəxslər. Eyni zamanda, ağıllı taktikaya, strategiyaya və sağlam bir ideya ilə idarə edən rəhbərə ehtiyacı olan ordu. Düzdür, bu imana istiqamət vermək üçün yeni-yeni təfsirlərə, hədislərə müraciət olunur, maarifləndirmə işləri aparılır. Lakin bunu da təəssüflə qeyd etməliyik ki, müasir şəraitin, ictimai-siyasi şərtlərin tələbinin nəticəsidir ki, bəzən bu orduya rəhbərlik İslamdan kənar, hətta ona inkarçı mövqedə duran şəxslərin əlində cəmləşir və fanat iman son məqsədi şəxsi mənafedən uzağa getməyən şəxslərin, qrupların «vuran əli»nə çevrilir.

Dediklərimizi başqa şəkildə belə ifadə edə bilərik. Qüvvə, əməl nəzəriyyəyə əsaslan-

---

[1] *Seyid Hüseyn Nasr*. İslam ve Modern İnsanın Çıkmazı, s. 172.

malı və onunla istiqamətlənməlidir. Bu nəzəriyyə, ideologiya olmayanda o, mütləq kənardan «yamaq edilir» və hazırda da Qərb bu nəzəriyyəçi missiyasını öz üzərinə götürüb və təbii ki, öz xeyri və İslamın ziyanı üçün istifadə edir. Jil Kepel yazır: «Keçmiş və ya dünənki marksistlər, özlərində çatmayan kütləviliyi İslamda görəndə, çalışırdılar onlara sosial xeyirxahlar versinlər, onlarla siyasi dialoq aparır, bəzən hətta onların cildinə girirdilər».[1] Demək olar ki, bu artıq sübut olunmuş bir həqiqətdir ki, təfəkkürsüz, fanat iman özünə belə ziyan vura biləcək çox böyük bir qüvvədir. Hazırda İslamın özünün ideologiyasının, nəzəriyyəsinin, ən nəhayət, fəlsəfi sisteminin olmaması nəinki bugününü, həm də orta əsrlərdəki qızıl dövrlərini belə dərsliklərdən çıxartmaqla onun tarixini də silməyə imkan verir. Bəli, həqiqətən də Nədvinin qeyd etdiyi kimi, «İslamın planı əbədi plandır. O, öz gücünü bütün zamanlar üçün saxlayıb. Öz dinlərinə səbəb müsəlmanlar bəşəriyyətin qoruyucularıdırlar və onlar yuxudan oyananda öz vəzifələrinə dönəcəklər. Onlar, şübhəsiz ki, elə bir qığılcıma malikdir-

[1] *Жиль Кепель.* Джихад, с.19.

lər ki, o, alovlananda (əgər bu baş verərsə) cəhalətin bütün binalarını yandıracaq».[1] Lakin bu da bir həqiqətdir ki, Jil Kepelin də vurğuladığı kimi, bütün dünyada (müsəlman cəmiyyətləri nəzərdə tutulur – K.B.) yerli lokal konfliktlər qərəzli şəkildə cihada (cihadın əsl mahiyyətindən çox uzaqda olsa belə – K.B.) çevrilir, cihad alınmayanda fitnəyə, qardaş (məzhəb) qarşıdurmasına çevrilir[2] və «müsəlmanların qəzəb və narazılığı ustalıqla müdafiə cihadını təbliğ edən ruhanilər tərəfindən istismar edilir və bunu onunla əsaslandırırlar ki, «İslamın torpağı» «kafirlərin» hücumuna məruz qalıb»[3] və bütün bunların nəticəsi kimi, «islami cərəyanlar, artıq 90-cı illərin ortalarından daha da sürətlənən tənəzzül fazasına giriblər».[4]

Ona da diqqət yönəldək ki, Nədvi bir müsəlman olaraq İslamın potensialından, ideallarından danışır, İslama nifrətlə köklənmiş Qərb təfəkkürlü fransız tarixçi isə real proseslərdən və bu proseslərin apardığı məntiqi nəticədən. İki təfəkkürün – Şərq və Qərb təfəkkü-

---

[1] *Надви.* Что потерял мир…, с. 164.
[2] *Жиль Кепель.* Джихад, с. 148.
[3] Yenə orada, s. 12.
[4] Yenə orada, s. 21.

rünün eyni obyektə fərqli münasibəti və gəldiyi nəticə!

Əslində, burada mübahisə ediləcək bir məsələ yoxdur. Belə ki, həqiqətən də, hər bir inkişafın kökündə duran da, ona hərəkət verən və son nəticəyə uğurla çatdıran da məhz imandır. Bununla belə, o da xüsusilə vurğulanmalıdır ki, söhbət hər nə qədər Allaha, peyğəmbərə, Axirətə imandan getsə də, bütün ümidlər yalnız bu imana bağlana bilməz. Burada *mərkəz nöqtədə həm də özünə, öz gücünə, öz imanına iman durmalıdır.* Bildirdiyimiz kimi, müsəlman özünəgüvəni itirib. Müsəlman özünün Allaha olan imanının alətinə çevrilib. Ağlı, təfəkkürü də daha çox bu istiqamətdə çalışır.

Başqa sözlə desək, bir var iman insanı ayaq üstə saxlayan, bir şəxsiyyət kimi yetişdirən və stabilliyini qoruyan hərəkətverici qüvvədir. Bir də var iman insanın əl-qolunu bağlayan, təslimiyyət aşılayan və idarə edən qüvvədir. Maraqlıdır, əslində birinci növ imana üstünlük verən islam, xüsusilə təsəvvüf, Allahdan başqasından qorxmağı və təslim olmağı qəbul etmədiyi halda, ədəbiyyatlarda, incəsənətdə mömin müsəlman daha çox bürüşmüş, əldən düşmüş, dünyaya laqeyd qoca kimi təs-

vir edilir. Eyni zamanda, digər bir qütbdə – Qərb ədəbiyyatlarında mömin müsəlman tüklü sifətdən vəhşi gözlərlə baxan bir terrorçu kimi təsvir edilir. Hansıdır İslamın verdiyi iman?! Əminliklə demək olar ki, heç biri. Təsadüfi deyil ki, "müsəlmanlar tövhidə inandıqlarını israrla söyləyirlər, amma qəlbləri hələ də bütpərəst inancı daşıyır", – deyə yazan Məhəmməd İqbal belə bir dua edir: "Allahım! Köksləәrdəki əzm və iradələri yenidən oyandır. Müsəlmanın bəsirət və baxışlarına yenidən qılınc kəskinliyi ver!"[1] Bəli, böyük filosof müsəlmanın ağlı, bəsirəti üçün qılınc kəsərliyi istəyir, silah yox, öz ağlını düzgün istiqamətləndirməsi üçün əzm, iradə istəyir, təslimiyyət yox.

Vəhdətçilərin istinad etdikləri ***ikinci prinsip vəhdət ideyasıdır.*** Burada söhbət həm İslamın əsas təməl və mərkəz ideyası olan tövhiddən, həm də irqindən, dilindən, dinindən asılı olmayaraq insanlar arasındakı birlikdən, həmrəylikdən gedir. Bu ideya daha kamil şəkildə məhz təsəvvüfdə öz ifadəsini tapdığına görə, filosoflar da müraciət etdikləri islam fəl-

---

[1] *Ahmet Akbayrak.* Muhammed İkbal sözlüğü. İstanbul, Lamure, 2005, s. 142.

səfəsinin bir çox prinsipləri və metodları arasında üstünlüyü əsasən təsəvvüfə verirlər. Təsəvvüf İslamın özək xəttini ehtiva edir və məhz burada İslamın ümumbəşəriliyi, tolerantlığı, insansevərliyi ən yüksək səviyyədə təzahür edir. Maraqlıdır ki, bu gün hətta İslamı sevməyənlər də təsəvvüfə müraciət edir, onu dərindən dərk etməyə çalışırlar. Başqa sözlə desək, təsəvvüf istər dinlər arasında, istər məzhəblər arasında çox gözəl bir körpü rolunu oynaya bilir. Məsələn, Kənan Gürsoy təsəvvüfü Qərb aləmi ilə eyni nöqtəyə gəlməkdə ən gözəl üsul hesab edir: «Bu nöqtədə bütöv bir bilik əldə edilmiş olur. ...Bir tərəfdə ağlı, bir tərəfdə könlü olan deyil, ağlı ilə könlünü, ikisini də var sayaraq yaranan bir fəlsəfə ortaya çıxmış olur».[1] Filosof təsəvvüfü özündə təfəkkürün həm rasional, həm də irrasional qatını ehtiva etdiyi üçün daha optimal bir həll yolu hesab edir[2] və onun fikrinə görə, təsəvvüf "fəlsəfə aləminə qata biləcək bir gözəlliyə sahibdir və eyni zamanda da təsəvvüfün zənginləşəcəyi bir

---

[1] Kənan Gürsoyla AFSEA-da görüş // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 1, 2009, s. 150.

[2] Kənan Gürsoyla AFSEA-da görüş // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı,, № 2, 2009, s. 153.

nöqtə var, çünki dönəmi ilə görüşmüş olacaq, çünki dönəminin problemləri ilə görüşmüş olacaq”.[1] Bəli, təsəvvüf öz içində potensial şəkildə insana özünü ağıl və könülün vəhdəti olduğunu dərk etdirən hikmət saxlayır. Bunu kəşf etməklə insan həm yüksək mənəviyyata sahiblənməklə yüksək etika sahibi və vicdanlı bir vətəndaş olur, həm də rasional düşüncə ilə günün problemlərini daha dolğun dərk edən və həll etməyə qadir bir müdrik ola bilir.

Maraqlıdır ki, digər bir müəllif – Seyid Hüseyn Nəsr təsəvvüfün və deməli İslamın malik olduğu bu zənginliyin özü-özünə kifayət edəcəyini düşünərək İslam aləminin Qərblə səsləşməyinin əleyhinədir və Qərbin təcrübəsindən ziyanlı bir şey kimi kənar durmağa çağırır. O, yazır: «Həqiqi bir islami renessans üçün birinci şərt... Qərbin və modern Qərbi xarakterizə edən hər şeyin təsirindən asılı olmamaqdır. Modernizmin təsirinə düşməmiş bir müsəlman mənəvi yenilənməyi gerçəkləşdirə bilər və eyni zamanda modern dünyada olub bitənlərə qarşı mətin qala bilər».[2] Seyid Hü-

---

[1] Yenə orada, s. 154.
[2] *Nasr*. İslam ve Modern İnsanın Çıkmazı, s. 171.

seyn mahiyyətlərindəki uyğunluğu nəzərə alaraq, İslamın (təsəvvüfün) zen-buddizmlə, yoqa ilə və s. Uzaq Şərq hikmətləri ilə birləşməyinin tərəfdarıdır: «Sadəcə müdafiə olunmağı kənara qoymaq deyil, eyni zamanda təşəbbüsü ələ keçirib hücum edə bilmək və əgər xəstə lazım olan müalicəni almaq istəyirsə, Allahın verdiyi hikmət xəzinələrindən modern dünyanın tutulduğu ən təhlükəli xəstəlikdən və bu gün içində olduğu düyündən qurtara bilən tək əlacı verə bilmək üçün öz aralarında sıralarını sıxlaşdırmalı və Asiyanın digər böyük ənənələri ilə əl-ələ verməlidirlər».[1]

Göründüyü kimi, istər İslamın potensialının üzə çıxarılmasında və bununla da müsəlmanın özünəgüvəninin qayıtmasında, istərsə də İslamın ümumiyyətlə dünyanı düşdüyü mənəvi böhrandan xilas edə biləcək qüvvəsinin kəşf olunmasında təsəvvüf ilk müraciət edilən metod və təfəkkür formasıdır. Kənan Gürsoy Qərbdən alınan rasional fəlsəfə ilə təsəvvüfün indiyədək naməlum qalan qatlarını ortaya çıxartmağın mümkünlüyündən danışırsa, Seyid Hüseyn Qərbi hər cəhətdən təhlükəli hesab

---

[1] Yenə orada, s. 198.

edərək, təsəvvüfü güvvə toplamaq üçün xaraktercə ona daha yaxın olan Asiya ənənələri ilə birləşməyin daha optimal olduğunu hesab edir.

Bəli, təsəvvüf həm Qərbin rasionallığını, həm də Şərqin ezoterikliyini ehtiva edən bir hikmətə malikdir. Bütün bunlarla yanaşı, nəzərə alsaq ki, təsəvvüf islami dəyərləri dərindən anlamaq, gerçəkliyin ən ağır problemlərinə qarşı mətin olmaq, ruhunun təmizliyini, ülviliyini, müqəddəslik duyğusunu qorumaq, eyni zamanda, özünəgüvəni tərbiyə etmək, bir insan kimi sabitləşmək üçün çox güclü bir silah və dağılmaz bir sipərdir, onda həm hər iki alimə, həm də oxşar mövqedə olan digər müəlliflərə haqq qazandırmaq olar. O da xüsusilə vurğulanmalıdır ki, *təsəvvüf həm də vəhdət ideyasının, yaxud əbədi hikmətin kamil ifadəsidir.*

Daha bir vacib fakt isə, Səlahəddin Xəlilovun yazdığı kimi, təsəvvüfün ənənəvi fəlsəfənin qarşısına çıxa biləcək bir fəlsəfi metoda malik olmasıdır.

Lakin bu da nəzərə alınmalıdır ki, bütün bu sadaladığımız keyfiyyətlərə malik bir insan həm də elm və texnikanın inkişafı ilə dəyişən, artıq məhdud çərçivə daxilində qalmayan və kənar təsirlərin qarışması, bəzi hallarda hətta

diktəsi ilə gözlənilməz istiqamətlərə yönələn mədəniyyətin, artıq dünyanın hakim cərəyanına çevrilmiş qloballaşmanın var olduğu bir dönəmdə yaşayır. Yəni o, içində yaşayıb var olduğu cəmiyyətə ehtiyacı olan bir sosial varlıqdır. Belə olan halda təsəvvüf bu «mübarizədə» yalnız, köməksiz görünür. Məsələ yalnız təsəvvüf və ya iman çərçivəsində həll edilə bilməz. Problem daha iri miqyasda götürülməli və dərindən əhatə edilməlidir. Təsəvvüf – batinə, mənəvi dünyaya yönəli, yuxarıda da qeyd etdiyimiz kimi, insanın daxili dünyasını zənginləşdirən və imanının ən üst qatına qalxmaqda yardımçı olan bir təfəkkür tərzidir, eyni zamanda, o, həm də fəlsəfədə yeni bir modeldir. Bütün bunlara baxmayaraq, bu gün Qərbin stabil bir mexanizmi xatırladan cəmiyyətlərinin, yüksək inkişaf etmiş ictimai şüurunun qarşısında Şərqin bir fərd ətrafında toplanan “qruplaşmaları”, “mən” çərçivəsində qalan fərdi şüuru təcrid olunmuş şəkildə zəif görünür. Başqa sözlə desək, təsəvvüf islam düşüncəsinin əhəmiyyətli bir hissəsi, özək xətti olsa da, sosial-siyasi şərtlərin diktə etdiyi bir şəraitdə o, digər hissələrlə tamamlanmaq, bütövləşməlidir. Bunu öz ətrafında tapa bilməyəndə isə Qərbə üz

tutmalı olur və nəticədə bu yad, amma bütöv bir orqanizmin bəzəyinə, əyləncə obyektinə çevrilir. Hal-hazırda olduğu kimi!

Dediklərimizdən belə məlum olur ki, müsəlmanın ağılsız imanının fanatlığa çevrilməsi, batiniliyə qapanıb özünü həqiqətin mərkəzində bilə-bilə reallıqdan kənarda qalıb təcrid olunması və elm deyə-deyə elmsiz qalması çətin qəbul edilən acı və ağrılı bir problemdir. Lakin bu onun özünəgüvəninin itməsinin həm səbəbi, həm də nəticəsidir. Əlbəttə, bu fakt alimlərin gözündən yayına bilməzdi. Bunu nəzərə alaraq vəhdətçilər öz düşüncələrində əsas götürdükləri ***üçüncü prinsip maariflənmədir***. Maariflənmə deyəndə, burada məhz islami prinsiplərin düzgün dərk edilməsi nəzərdə tutulur, İslamın modernləşməsi, yaxud yeni təfsirlərə yaranan ehtiyac deyil. Məsələn, Kənan Gürsoy bildirir ki, «gələcək bir təfəkkür olmasa; bu aktiv, canlı, dinamik təfəkkür olmasa, əsla bizim gələcəyimiz, inanan bir insanın gələcəyi olmayacaqdır».[1] Nədvi də eyni mövqeni bölüşdürür: «İslamın yenidən dirçəldilməsi

---

[1] *Kənan Gürsoy*. Bir Felsefe Gelenegimiz…, s. 128.

üçün islami dövlətlərdə maarifçi və məsuliyyətli ictimai rəyin inkişafına yönələn şüurlu cəhdlər zəruridir. Bunsuz dini entuziazm, yaxud siyasi çarpışma heç bir böyük əhəmiyyət kəsb etməyəcək».[1]

*İslamın digər güclü silahı elmə və rasional ağıla verdiyi dəyərdir ki, filosoflar da məhz bu faktı canlandıraraq dini elmlərlə yanaşı, digər elmləri də öyrənməyi gərəkli sayırlar.* Məsələ burasındadır ki, Qərbin Şərqi çox geridə qoymasının səbəbi elm və texnikanın inkişafı ilə sıx əlaqəlidir. Nədvi İslam tarixinin orta əsrlərdə yaşadığı qızıl dövrdən sonrakı tənəzzülünün səbəblərini belə izah edir: «Osmanlıların yol verdikləri ən böyük səhv öz əqllərinin hərəkətsiz qalmasına imkan verməkləri oldu. Onlar silahlanma sahəsində və hərbi təşkilatlanmada düşmənlərin ürəyinə qorxu salmaq üçün öz güclərini imkanlarının ən son həddinə qədər hazırlıqlı tutmaq barədə İlahi buyruğa tamamilə laqeyd qaldılar və əla bir hərbi maşının paslanıb çürüməsinə imkan verdilər».[2] Nədvi əminliklə onu da bildirir ki,

---

[1] *Надви.* Что потерял мир…, с.173.

[2] Yenə orada, s. 91-92.

«Əgər müsəlman dünyası öz qarşısında həmin dünyəvi idealları məqsəd olaraq qoysa və həmin maddi bilik və qüvvələrin şəbəkəsinə düşsə, əlbəttə ki, tam əsasla üstünlüyə iddia edəcəkdir».[1]

Ümumiyyətlə, bir çox müəllif İslamın inkişafında yaşanan tənəzzülün əsas səbəbi kimi xəlifələrin maddi nemətlərə meyl göstərməklərini, əsl islami dəyərləri, daha dəqiq desək, elmə, inkişafa çağırışı unutmaqlarını göstərirlər və bu fikirdə həqiqət payı kifayət qədərdir. Lakin bu işdə yalnız xəlifələrin deyil, alimlərin də "xidməti" az deyil. Bu məsələdə də vəhdətçilər islahatçılardan fərqli mövqe tuturlar. Yəni onlar "neytral elmlərin" sadəcə Qərbdən import edilməsindən danışmırlar.

Seyid Hüseyn Nəsr bir sıra əsərlərində təbiətin Qurani Kərimlə bərabər İlahi həqiqətin bir hissəsi olması iddiasındadır və bu səbəbdən elmlərin öyrənilməsini əhəmiyyətli hesab edir. Bunu nəzərdə tutan alim Qurani Kərimin «O, ilk-dir, son-dur, Zahirdir, batindir» (Hadid 3) ayəsini şərh edərək yazır: «Dindar insan Allahı Batin olaraq görür; Ruh dünyasına bütünlüklə

---

[1] Yenə orda, s. 168.

laqeyd olan dünyəvi insan isə yalnız Zahiri görür. Amma təbii ki, Mərkəz haqqında ən kiçik bir bilgiyə sahib olmadığına görə, bu zahirin də Mərkəzin, ya da İlahi olanın bir təzahürü olduğunu qavraya bilmir. Bu səbəbə görə, hissə-hissə olan bilgisi çevrənin və ya kənarın hamısını və deməli Mərkəzi əhatə etməyəcəkdir».[1] Yuxarıda da bildirdiyimiz kimi, Seyid Hüseyn də Kənan Gürsoy kimi məsələnin həllini təsəvvüfdə görür, yəni baxış bucağı və yanaşma metodu sufidir: «Özünü fəth edən dünyanı fəth edər. İçində İslami dəyərlərin bütünlüklə yer etdiyi insan əslində İslam renessansına doğru ən təməl addımı atmış olur. Çünki ölüb Gerçəkdə yenidən dirilən insandır ki, çevrəsindəki dünyanın Göyün iradəsinə görə ömrü nə qədər olursa-olsun, bu dünyanı dirildə bilər və ona yenidən can verə bilər».[2] Bəli, dini elmlərlə yanaşı, təbiət elmlərinin də öyrənilməsi nəinki İslamın ruhuna zidd deyil, əksinə tələbidir. Lakin burada maraqlı bir fakta, daha doğrusu paradoksa diqqət yönəldək. Seyid Hüseyn zahirin və batinin vəhdətini vacib bilib

---

[1] *Nasr*. İslam ve Modern Insanın Çıkmazı, s. 19.
[2] Yenə orada, s. 173.

təbiəti ilahi həqiqətin bir təzahürü olaraq görsə də, Qərbin tənəzzülünü haqlı olaraq onun ifrat zahiriliyi ilə əlaqələndirsə də, başqa bir həqiqəti – Şərqin ifrat batiniliyini yada salmır və məsələnin həllini yenə də buradan başlamaq istəyir. Bəli, həqiqətən də Qərbin ruha ehtiyacı var və maraqlıdır ki, Seyid Hüseynin yazdıqları islam ruhlu olsa da, onun çıxış və dönüş nöqtəsi daha çox Qərb insanıdır və təklif etdiyi həll yolları onun üçün nəzərdə tutulub, sanki o, İslamı Qərbə tanıdır, dəyərlərini, ləl-cavahiratını onun üçün sərgiləyir.

Deyilənlərdən çıxış edərək diqqəti maarifçilik prosesinin əhəmiyyətli bir faktına yönəldək: aparılan maarifçilik prosesində üstünlük daha çox orta əsr islam fəlsəfəsinə verildiyi halda, bu günün reallığında, istər cəmiyyətin quruluşunda, istərsə də idarə olunmasında Qərbin təcrübəsi və nəzəriyyələri öyrənilir. Məsələn, fəlsəfə dərsliklərində bütün təməl prinsiplərdə, təfəkkürü formalaşdıran məsələlərdə hakim mövqe Qərb fəlsəfəsinə aiddir. İslam fəlsəfəsindən isə yalnız tarixi keçmişdə qalmış orta əsrlər tədris olunur. Əslində, yuxarıda dediklərimizi nəzərə alsaq, təəccüblü bir şey də yoxdur. Təbii ki, belə bir qarşılaşmada İslam

yenə də uduzmağa məhkumdur. Əlbəttə, biz nəinki qəti şəkildə Şərqin Qərbdən təcrid edilməsinin əleyhinəyik, əksinə, onların arasında daha çox ortaq nöqtələrin tapılmasını, ümumi prinsiplərin yaranmasını optimal yollardan biri hesab edirik. Lakin burada təkrar olunmalı əhəmiyyətli bir incəlik var: *mövqelər bərabər olmalı, biri boşalmağa, digəri dolmağa məhkum edilməməlidir, biri digərinin təbliğatçısına, xidmətçisinə çevrilməməlidir.*

Bəli, mübarizə aparan tərəflərin bərabərləşməsi və zidd tərəflər kimi deyil, bir-birini tamamlaya bilən tərəflər kimi mövcud olub inkişaf etmələri üçün ilk növbədə islami təfəkkürün, yəni islami dəyərlərə istinad edən fəlsəfi sistemin ortaya qoyulması zəruridir.

## II

İlk növbədə qeyd edilməlidir ki, bu missiyanı, yəni islam düşüncəsinin yeni fəlsəfi sisteminin yaradılması məsuliyyətini öz üzərinə götürən bir sıra filosoflar vardır ki, bunlardan Məhəmməd İqbalın, Toşihiko İzutsunun və Səlahəddin Xəlilovun adlarını çəkmək olar. Bu

istiqamətin nümayəndələri dinin daxili potensialını üzə çıxarmaqla yanaşı, öz fəaliyyətlərində daha da irəli gedib İslama lazım olan nəzəriyyəni və sistemi təqdim etmək iddiasındadırlar.

Zənnimizcə, İslamın yenidən ayağa qalxması və nəinki inkişaf etməsi, hətta bütün bəşəriyyətə yol göstərə bilməsi üçün bu şərt ön planda tutulmalıdır. Bu nə şəriətin "avropalaşması", nə də Qurani Kərimin qlobal şərtlərə uyğunlaşması deyil. Söhbət *İslamda var olan əbədi və mütərəqqi prinsiplərin üzərində formalaşdırılan və əbədi hikmətin müasir dövrə uyğun yeni təzahürü ola biləcək fəlsəfi sistemdən* gedir. Bu fəlsəfi sistem həm də əvvəlki islam müdrikliyinin təsdiqi olmalıdır. Təsadüfi deyil ki, Əbu Turxan: «Gələcək o zaman bizimkidir ki, keçmişimizin davamıdır», – deyir. Bəli, İslamın dünənki təntənəsini, zirvəsini təsdiq etmək üçün tarixin səhifələrini çevirmək yox, yenidən həmin zirvəni fəth etmək gərəkdir. İzutsu yazır: «…Şərq və Qərb arasında səmərəli bir fəlsəfi anlayışın imkanını düşünməyə başlamazdan öncə, Şərq fəlsəfəsi ənənələrinin hüdudları içərisində daha yaxşı bir fəlsəfi anlayış tərzi inkişaf etdirmək məcburiyyətin-

dəyik».[1]

Vəhdətçilərin ikinci qolunun nümayəndələrinin yeni nəzəriyyə ilə bağlı düşüncələrini tezislər şəklində təqdim və təhlil edək.

***Fəlsəfə tarixinin inkişaf qanunauyğunluğuna müvafiq olaraq Qərb fəlsəfəsini nəinki inkar etməmək, əksinə, tarixin mərhələlərindən biri kimi ondan yararlanmaq.*** Təsadüfi deyil ki, Məhəmməd İqbal da xəbərdarlıq edir: «Biz, hal-hazırda Avropada protestant inqilabına səbəb olan şəraiti ehtiva edən bir dövrdən keçirik. Lüterin başlatdığı hərəkatdan və onun səbəb olduğu nəticələrdən alınacaq dərsləri diqqətimizdən kənarda tutmamalıyıq».[2] Kitabın əvvəllərində vurğuladığımız və bir növ tədqiqatımızın özək xəttini təşkil edən tezisə yenidən qayıdaq: *tarixin kəsilməzliyi prinsipinə müvafiq olaraq yalnız keçmiş sağlam bünövrə üzərində qurulmuş yenilik inkişafa və yüksəlişə səbəb ola bilər*. Dediklərimizə

---

[1] *Toshihiko İzutsu.* İslamda Varlık Düşüncesi. Tərc. İ.Kalın, İstanbul, 2003, s. 16.

[2] *Məhəmməd İqbal.* İslam düşüncəsində hərəkət prinsipi // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 4, 2009, s. 182.

nümunə kimi həm islam düşüncəsini, həm də Qərbin Yeni Dövr fəlsəfəsini göstərmişdik. ən yeni dövrün filosofları məhz bu həqiqəti dərk və qəbul etdiklərinə görə, öz fəlsəfi sistemlərinin formalaşmasını Qərb fəlsəfəsinin düzgün və İslami dəyərlərə zidd olmayan (çünki dolayısı ilə onlar da bir vaxtlar yenə də İslami dəyərlərdən qaynaqlanıblar) prinsiplər üzərində həyata keçirmək tərəfdarıdırlar.

Hazırda Qərb təfəkküründə bir çaşqınlıq, durğunluq yaşanır. Düzdür, çoxları bizimlə mübahisə etməyə hazırdır ki, bir çox cərəyanların təşəkkül tapıb nəinki öz vətənində, hətta bütün dünyada yayıldığı, fəlsəfənin tədrisinin və təbliğinin çox yüksək səviyyədə aparıldığı bir şəraitdə buna durğunluq demək düzgün deyil. Lakin fakt göz qabağındadır. Bu gün yalnız Avropada deyil, Qərb təfəkkürünün nüfuz edə bildiyi əksər yerlərdə gənclərin düşüncəsində hakim yerlərdən birini tutmuş Nitsşe yazır: «Bədbəxtlik! Artıq özünə nifrət etməyi bacarmayan ən alçaq insanın zamanı yaxınlaşır».[1] Məsələ burasındadır ki, hazırda Qərbdə

---

[1] *Фридрих Ницше.* Так говорил Заратустра: Книга для всех и ни для кого. М., Мартин, 2005, с. 15.

yaranan yeni cərəyanların əksəriyyəti eyni kökdən qaynaqlanaraq inkarçı, nihilist xarakterlidir. Nitsşe fəlsəfəsini tədqiq edən Sənail Özkan da yazır: “Fəlsəfə yaradarkən Nitsşenin sorğu-suala çəkmədiyi, şübhələnmədiyi, hücum etmədiyi və yıxmadığı heç bir fəlsəfi sistem, fəlsəfi teologiya, teoloji fəlsəfə, etika, metafizika yoxdur. Onun üçün yıxmaq – yaratmağın kateqorik imperatividir”. [1] İnkarçılıq zəncirvarı bir reaksiyadır və hər mərhələ, yaxud hər yeni görüş digərinin davamı olmadığına görə, istənilən halda onun mövcudluq müddəti məhduddur. Bir-birini inkar etmək həm sıfırdan başlayan cərəyanlar xaosunun bolluğu, həm də məktəb ənənəsinin tədricən aradan qalxması deməkdir. Təsadüfi deyil ki, Nitsşe “heykəllərin heykəlini” özünün yaratdığı “Heçdən yonmağa çalışır”.[2] Bu məhdudluq hissidir ki, hazırda dünyanın sonu, sivilizasiyanın süqutu və s. oxşar mövzulu kitabların, filmlərin sayını günü-gündən artırır. Nitsşenin yazdığı kimi, «Zaman-zaman bir az zəhər lazımdır: bu xoş yuxular gətirir. Sonda isə daha

---

[1] *Sənail Özkan.* Nietzsche. Kaplan sırtanda felsefe. İstanbul, Ötüken, 2007, s. 136.

[2] Yenə orada.

artıq zəhər ki, ölmək xoş olsun».[1] Bu gün Avropanın nəinki təklif etdiyi, həm də filmlərlə, musiqilərlə, bədii əsərlərlə və s. bənzər üsullarla məcburi şəkildə təlqin etdiyi, Şərqi də cəlb etməyə çalışdığı «harmoniya» – xaosdur. Yuxarıda da yazdığımız kimi, bünövrəsi Kant tərəfindən qoyulan bu məhdudluq artıq həddindən artıq daralıb.

Bir reallıq da var ki, harmoniya məhz iki doğma ruh arasında mümkündür. Bəzən güclü bir işıq qarşıdakı qatı zülmət arasında kiçik bir işartı tapıb onu özünə cəzb eləməklə onu böyüdə bilər və beləliklə həmin kiçik işartı böyüyüb zülməti yox edə bilər. Eyni hadisə böyük zülmət və kiçik bir qara ləkə ilə də mümkündür ki, bu gün bu proses getməkdə və güclənməkdədir. Bu səbəbdəndir ki, bugünün insanı yaşadığı bu qapısı-bacası bağlı məhdudluqda boğulur, tez-tez depressiyaya düşür, aqressivləşir.

Yeri gəlmişkən, dediklərimizə irad tuta bilərlər ki, İslamda, xüsusilə təsəvvüfdə də maddi dünya müvəqqəti, fani bir məkandır. Lakin burada əhəmiyyətli bir fərq mütləq vur-

---

[1] *Фридрих Ницше*. Так говорил Заратустра, с. 15.

ğulanmalıdır. Bəli, maddi dünya müəyyən zaman-məkan kəsiyində iki heçlik arasında nisbi bir mövcudluqdur. Eyni zamanda, bu dünyanın mahiyyəti əzəli və əbədi ideyanın bir hissəsidir. Yəni insan bədəni ilə fani, məhdud dünyaya mənsub olsa da, ruhu və təfəkkürü ilə sonsuz və əbədi ideyalar aləminə bağlıdır. İslam hər iki həqiqəti çatdırmaqla insanlara içində olduqları "dar məkandan" sonsuz aləmə qapı açır.

Bəli, bu gün Qərb təfəkküründə insan «məqsəd deyil, …keçid və ölümdür».[1] Belə olan halda təbii ki, hansısa daha böyük ideyalardan, əbədiyyətdən danışmaq yersiz, hətta gülünc görünə bilər. Lakin, yuxarıda əbədi fəlsəfə haqqında düşüncələrə istinadən demək olar ki, bu ideyalar var və bəşəriyyət, varlıq onun üzərində bərqərardır. Bu, özündən əvvəlki ideyalara söykənən və öz içində gələcək ideyalar üçün rüşeym, potensial bir qüvvə saxlayan və bununla da başqa bir yeni ideyaya təməl ola biləcək düşüncə, ideyadır, hələ də varlığını qoruyub saxlayan işartıdır. Əbədi hikmətdən yazan Oldos Xaksli yazır: "Əbədi fəl-

[1] Yenə orada, s. 12.

səfənin predmetini əsasən şeylər, həyatlar və şüurlar dünyasının rəngarəngliyi olan vahid İlahi Reallıq təşkil edir. Təbiətinə görə isə bu vahid Reallığın düz və vasitəsiz dərki yalnız müəyyən şərtlərə tabe olaraq sevən, təmiz ürəkli və kasıb ruh sahiblərinə açılır”.[1] Bəli, *əbədi hikmət qırılmır, sadəcə öz təzahürü üçün müvafiq məkan, zaman və şərait axtarır.* Müəyyən mənada bu ideyanı yaradıcı enerji də adlandırmaq olar. İtməyən, əzəli və əbədi olan, sadəcə zamana və məkana uyğun olaraq müvafiq formada təzahür edən ideya. Bu, bir simfoniya da ola bilər, bir sənət əsəri də, bir fəlsəfi sistem də.

Bütün deyilənlərlə yanaşı, nəzərə alsaq ki, Qərb təfəkkürü fəlsəfə tarixinin əhəmiyyətli bir mərhələsini təşkil edir, onda onu bütünlüklə inkar etməyin nə qədər yanlış bir addım olduğu aydın görünər. Çünki, Əbu Turxanın da haqlı olaraq vurğuladığı kimi, «günəş Şərqdə doğsa da, ideya işığı Qərbdə yanır». Lakin burada əhəmiyyətli bir fakt diqqət mərkəzində saxlanmalıdır: *Qərbin hazırda xaosu xatırla-*

---

[1] *Олдос Хаксли*. Вечная философия. М., Изд-во Эксмо, 2004, с. 10.

*dan təfəkküründən məhz qədimdən bəri öz varlığını qoruyub saxlayan Mütləq İdeya seçilib inkişaf etdirilməlidir*. İqbal da bu səbəbdən diqqəti zahirə deyil, mahiyyətə yönəldir: «Bizim qorxduğumuz yeganə şey Avropa mədəniyyətinin göz qamaşdıran xarici görünüşünün fəaliyyətimizə mane olması və bunun nəticəsində də bizim o mədəniyyətin əsl mahiyyətinə vara bilməməyimizdir».[1] Bəli, söhbət Qərbin boğulduğu həmin mühiti "bölüşməkdən" yox, yeniliyə bünövrə ola biləcək dəyərli prinsiplərin zamanın və şəraitin verdiyi zərərli əlavələrdən təmizlənməsindən gedir.

Danılmaz bir faktdır ki, Qərb təfəkkürü yalnız müasir dövrə deyil, ümumiyyətlə fəlsəfə tarixinə nüfuz etmişdir və elə islam fəlsəfəsinin özünün də öyrənilməsində xüsusi rola malikdir. Bunu nəzərdə tutan Səlahəddin Xəlilov yazır: «Qismətə bax! Babalarımız o qədər uca olublar ki, onların səviyyəsinə qalxmağın yolu Qərb fəlsəfəsinin dərkindən keçir. Biz bu gün onlara qayıtmaq üçün, onların səviyyəsini anlamaq üçün əvvəlcə Qərb fəlsəfəsinə, onun ən parlaq nümunəsi olan klassik alman fəlsəfəsinə

---

[1] *M.İqbal.* Bilik və təcrübə, s. 190.

– Kanta, Hegelə, Feyerbaxa qayıtmaq məcburiyyətindəyik». [1] Deyilənlərdə vacib bir anı da vurğulamaq lazımdır ki, söhbət heç də islam fəlsəfəsini Qərb şərhində qəbul etməkdən getmir. Müraciət olunan – fəlsəfə tarixində bir mərtəbə daha yüksəyə qalxa bilmiş, köhnənin üzərində yeni bir təfəkkür qatı gətirə bilmiş, İslamı təhrif və inkar edən yox, onun əbədi prinsiplərini fərqli formada davam etdirən Qərbdir və müəllif sıfırdan başlamağın, yaxud aradakı bir qatı görməzlikdən gəlib keçmişə qayıtmağın tərəfdarı deyil, çünki bunun faydasızlığını, hətta zərərini çox gözəl dərk edir.

Məsələni daha da konkretləşdirək.

Öz mənfilikləri və nailiyyətləri ilə Qərb təcrübəsi Şərq üçün bir məktəbdir. Bununla belə, Nitsşenin təbiri ilə desək, «ağıldan başqa hər şeydən məhrum» olan Qərbin hansı dəyərləri özündə əbədi fəlsəfənin rüşeymlərini ehtiva edir? Qərbin hansı sütunları üzərində fəlsəfənin növbəti mərtəbəsini ucaltmaq olar?

Qərbdə *elm* yüksək səviyyədə inkişaf etmişdir və bu inkişaf artıq nəinki cəmiyyətin

---

[1] *Səlahəddin Xəlilov*. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparativistika), Bakı, 2006, s. 245.

bütün sahələrinə, hətta mənəvi aləmə də nüfuz etməkdədir. İzutsu yazır: «Şərq fəlsəfəsi özü özlüyündə yaşadığımız günlərin gerçəklərindən qaynaqlanan problemlər qarşısında sahib olduğu mənəvi dəyərləri keçmişdə olduğu kimi mühafizə edə biləcək qüdrətdə görünmür. Bu halı ilə Şərq fəlsəfəsi çağdaş problemlər qarşısında tamamilə gücsüzdür. Çünki texnologiya artıq Qərblə məhdudlaşan bir hadisə deyil. O, hakimiyyətini bütün dünyaya sürətlə yaymaqdadır.[1] Unutmaq olmaz ki, elmin, texnologiyanın verdiyi hakimiyyətdir ki, Qərb bu gün diktə edən tərəfə çevrilib. Səlahəddin Xəlilov yazır: «Müasir dövrdə bütün dünya xalqlarının fəlsəfi fikrinin strukturunda Qərb fəlsəfəsi üstün yer tutur. Qloballaşma, qərbləşmə heç də sadəcə olaraq Qərb texnikasının, Qərb investisiyasının ekspansiyası ilə məhdudlaşmayıb, həm də Qərb fəlsəfəsinin, siyasi düşüncə tərzinin təcavüzü ilə səciyyələnir… Çünki formaca və bəlkə həm də məzmunca arxaikləşmiş Şərq fəlsəfi fikri bizi əhatə edən texnogen dünyasında kara gəlmir. Biz o biri əlimizdəkini (Şərq fəlsəfəsini) ancaq bir rəmz kimi, bir

[1] *İzutsu.* İslamda Varlık Düşüncesi, s. 49.

ekzotika kimi saxlayırıq. Əgər saxlayırıqsa!?»[1] Belə məlum olur ki, günün reallığı olan elmi-texniki nailiyyətlər neytral olsa da, istər-istəməz təfəkkürün də hakimliyini təmin etmiş olur. Bunun nəticəsidir ki, İslam aləmi öz mahiyyətinin ekzotikaya, yaxud dəhşət mücəssəməsinə çevrilməsinin passiv müşahidəçisidir, kənar diktənin təsiri ilə məqsəd və niyyətini unudur, qazandıqları ilə itirdiklərinin hesabını itirir. Bəli, islam dünyası zəruri bir reallıq olaraq Qərbin çatdığı elmi nailiyyətləri qəbul və tətbiq etməlidir, lakin əhəmiyyətli bir məsələni nəzərə almaqla.

Hər bir fəlsəfənin kökü və eyni zamanda son məqsədi olan Həqiqətin dərk edilməsinin üç mənbəyi vardır: *səmavi kitab (ilahi vəhy), təbiət və insan*. Hər mənbə özünə xas idrak vasitəsi tələb etdiyi kimi, vasitəyə müvafiq də mənbənin tərəfləri açıqlanır. Və bu mənbələrə yanaşma prizması, metodları, onlardan birinin-mi, ikisininmi və ya hər üçünün şərhi müəyyən fəlsəfi cərəyanların, məktəblərin yaranmasına səbəb olmuşdur. Müqayisə aparsaq, belə məlum olur ki, hər iki tərəfin – Şərq və Qərbin –

---

[1] *S.Xəlilov.* Şərq və Qərb, s. 95-96.

öz «oxuduqları» kitablarında təqribən eyni ifratlara, sadəcə fərqli istiqamətlərdə, vardıqları qənaətinə gəlmək mümkündür.

Yeni Dövrdən başlayaraq bu günə kimi Qərb əsas diqqət və enerjisini təbiət kitabının öyrənilməsinə vermiş və bu ənənəsinə bu gün də sadiq qalmaqdadır.

İslam Şərqində isə orta əsrlərdən fərqli olaraq sonrakı dövrlərdə üstünlük əsasən müqəddəs vəhyə verilmişdir. Burada səmavi kitab nəinki kifayət qədər araşdırılmış, hətta digər iki kitabın da, özləri müstəqil olduqları halda, birincinin kontekstində öyrənilməsinə üstünlük verilmişdir. Dediklərimizə misal olaraq Qurani Kərimin istər təbiət hadisələrini, istərsə də insanın təbiətini izah edən təfsirlərinin, hədislərin gündən günə artmasını, istərsə də hər elmi nailiyyət artıq təsdiqlənəndən sonra Qurani Kərimdə onun əlamətlərinin axtarılmasını göstərə bilərik. Digər iki kitabın müstəqil şəkildə öyrənilməməsi təbii olaraq ilk kitabın oxunmasında da əhəmiyyətli naqisliklərin yaranmasına səbəb olmuşdur. Düzdür, son dövrlər bir sıra alim və filosof təbiəti müstəqil bir kitab kimi öyrənməyi təklif edir. Məsələn, Taha Cabir Əlvani yazır: «İki kitab (səmavi kitab və

təbiət – K.B.) hökmən uzlaşdırılmalıdır, zira onlar bir-birini tamamlamadıqda gerçəkliyin həqiqi dərki itirilmiş olur».[1] Yaxud Məhəmməd İqbal da kitablar sırasında təbiəti vacib bilir. Lakin ikinci kitabın, yəni təbiətin öyrənilməsi Qərblə nisbətdə islam aləmində çox geri qalır. Səbəb – bir daha təkrar edək ki, onu birinci kitab kontekstindən kənarda götürməmək, onun bir «paraqrafı» olaraq qəbul etməkdir. Və təbii ki, ona münasibət də məhz oxunan kitaba müvafiq olaraq formalaşmışdır.

İslam aləmində böyük diqqət ayrılan digər kitab – insandır. Düzdür, bir çox hallarda o da birinci kitabın bir hissəsi kimi götürülmüşdür. Bununla yanaşı, fərqli bir mövqe də vardır. Məsələn, Məhəmməd İqbal təsəvvüf fəlsəfəsinə istinadən insanın mənəvi aləminin oxunmasını çox vacib hesab edir və digər ikisini (tarix və təbiəti) onun «əlavə vəsaiti» hesab edir: «Qurani-Kərimin üç idrak (bilik) mənbəyindən biri kimi bəyan etdiyi (41:53; 51:20-21) daxili təcrübənin vəhdətinin mənasını başa düşməyə çalışan ancaq sufizm olmuş-

---

[1] *Taha Cabir al-Alwani.* Issues in Contemporary Islamic Thought. London-Washington. 2005, s. 32-33.

dur. Digər iki bilik mənbəyi isə Tarix və Təbiətdir»[1] və «Məhz bu iki bilik mənbəyi tədqiq edilərsə, İslamın ruhu və canlılığı meydana çıxar».[2] Belə məlum olur ki, insan ruhu, batini təcrübə deyəndə, filosof burada həm də ilahi vəhyi nəzərdə tutur və ya daha doğrusu, təsəvvüf fəlsəfəsinə istinadən bildirək ki, insanın özünü ilahi kitab kontekstində götürür. Oxşar mövqeyə Səlahəddin Xəlilovda da rast gəlmək mümkündür: “Üçüncü kitabın oxunması, yəni insanın ruh dünyasının, kosmik zəkadan istifadə imkanlarının öyrənilməsi və reallaşdırılması prosesi yenə də islami dünyagörüşün çərçivəsində məqbul olsa da, ona ziddiyyətli münasibət bəslənmişdir. Əsasən təsəvvüf adı altında inkişaf etdirilən bu xətt bəzən İslama yad bir dəyər kimi qiymətləndirilmişdir. Lakin İslamın başqa dinlərə nisbətən əsas üstünlüyü, bizcə, məhz bu istiqamətlərdə ortaya çıxır”. [3] Göründüyü kimi, Xəlilov da İqbal kimi, üçüncü kita-

---

[1] *Məhəmməd İqbal.* İnsan “mən”i, onun azadlığı və əbədiliyi // Fəlsəfə və sosial-siyasi elmlər, № 3, 2009, s. 193.

[2] *Məhəmməd İqbal.* İslam mədəniyyətinin ruhu // Fəlsəfə və sosial-siyasi elmlər, № 1, 2009, s. 176.

[3] *S.Xəlilov.* İslam fəlsəfəsi nə vaxtdan başlayır, s. 24-25.

bın İslamın mahiyyətini, ruhunu daha mükəmməl çatdırdığına və məhz təsəvvüfün islam fəlsəfəsinin əsas özək xətti olduğuna əmindir.

Yeri gəlmişkən, təsəvvüfün inkişaf tarixindən belə məlum olur ki, bu istiqamətdə də müəyyən ifratlara yol verilmişdir. Və istər Məhəmməd İqbalın, istər Kənan Gürsoyun, istərsə də Səlahəddin Xəlilovun müraciət etdikləri təriqətçilikdən, şəxsiyyəti – mürşidi bütləşdirən, "camaatlaşma vasitəsilə insanı şəxssizləşdirən, yəni depersonalize edən"[1] təsəvvüf deyil. Burada söhbət "elmi bir biliyə malik olmadığımızdan bilik təmin edən bir təcrübə kimi imkanlarından istifadə edə bilmədiyimiz... özünün kamillik dərəcəsində şüurun naməlum səviyyələrinə işarə edən"[2], içində "ənənəvi (yunan) fəlsəfəyə alternativ modelin rüşeymini saxlayan"[3] və məxsusi mənada islam fəlsəfəsini öz məcrasında inkişaf etdirən bir təfəkkür tərzindən, yanaşma modelindən gedir.

---

[1] Kənan Gürsoyla AFSEA-da görüş // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 2, 09, s.154.

[2] *M.İqbal.* İnsan "mən"i, onun azadlığı və əbədiliyi, s. 193.

[3] *S.Xəlilov.* İslam fəlsəfəsi nə vaxtdan başlayır, s. 25.

Deyilənləri ehtiva etməklə yanaşı, onlardan fərqli daha bir mövqe də vardır. Belə ki, Səlahəddin Xəlilov sonuncu mənbəni daha geniş götürür, yəni insanın yalnız ruhunu, mənəvi təcrübəsini deyil, həm də ideya dünyasını nəzərə alır. Onun fikrinə görə, insan özündə yalnız ilahi aləmin deyil, həm də maddi aləmin ideyasını ehtiva edir: «İdeyanın canlanması zamanı insan subyekt kimi çıxış edir. Lakin insan başqa bir ideyaya qatılarkən… əslində ideyanın obyektinə … çevrilə bilər… və insan özü canlandırdığı ideyanın strukturuna daxil olur. Həm tam, həm hissə… Bir struktur səviyyəsində tam, başqa struktur səviyyəsində hissə!»[1] Filosofun özünün vurğuladığına görə, bu ideya hələ Platon fəlsəfəsində də olmuşdur: «Əslində üçüncü kitab ideyası Platonun ideyalar dünyası təlimindən də hasil olur. Sadəcə olaraq Platon məhz bir kitabdan – baxdığımız halda üçüncü kitabdan çıxış edir. Qalanlarını isə ikinci dərəcəli bir hadisə – kölgələr dünyası hesab edir». Düzdür, Xəlilov özünün xidmətini «sadəcə olaraq islam fəlsəfəsində xeyli dərəcə-

---

[1] Fəlsəfi etüdlər // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 3-4, 2006, s. 125.

də qərarlaşmış olan iki kitab təlimini Platonun bunlardan fərqli olan «tək kitab» təlimi ilə birləşdirmək və bu üç kitabın ekvivalentliyini nəzərə almaqla» məhdudlaşdırır. [1] Lakin bizim şərhimizin kontekstində daha bir həqiqət oraya çıxır.

Məlum olduğu kimi, qədim dövrdə fəlsəfə özündə bir çox elmləri ehtiva etmiş və zaman-zaman bu elmlərdən hər biri müstəqillik əldə edərək özünə spesifik bir inkişaf yolu seçmişdir. Lakin bu elmlərdən hər birinin zirvə nöqtəsi yenə də fəlsəfədir. Səlahəddin Xəlilovun bildirdiyinə görə, «Platon yeganə həqiqət kimi mütləq ideyaları və deməli yeganə həqiqi kitab kimi də ideyalar dünyasını götürmüşdür. Sadəcə olaraq, Platon maddi dünyada, təbiətdə olan həqiqətləri ancaq insana bəlli olan rəylər kimi qəbul etmiş, amma insanın ardıcıl surətdə yaxınlaşdığı, araşdırmalarının və idrakın məqsədi olan mütləq həqiqətlərin təbiətdə də mövcud olduğunu qəbul etməmişdir».[2] Yəni Platon bir növ ilk iki kitabları inkar edərək sonuncunu qəbul etmişdir.

---

[1] *S.Xəlilov.* İslam fəlsəfəsi nə vaxtdan başlayır, s. 25.
[2] Yenə orada, s. 25-26.

İlk baxışda bu da üçüncü ifrat münasibət! Lakin Platonun kitabı məhdud deyildi və dövrünün fəlsəfəsi kimi digər ikisini müəyyən mənada özündə ehtiva edirdi. Dövrün və şəraitin tələbi ilə fəlsəfədən ayrılan elmlərə müvafiq olaraq «kitablar» da ayrıldı və bu proses elə Platonun tələbəsi, təbiət kitabının əhəmiyyətini qabardan Aristoteldən başlandı. Səlahəddin Xəlilov hər üç kitabın ekvivalentliyi prinsipini təsbitləməklə həm bu fərqli təlimlər arasındakı ziddiyyəti aradan qaldırmağa və onları daha mükəmməl bir təlimdə ehtiva etməyə müvəffəq olur, həm də bir növ onları yenidən vahid nöqtədə birləşdirməyə cəhd edir. Başqa sözlə desək, *vahid nöqtədən başlayıb şaxələnən əbədi hikmət yenə vahid nöqtədə birləşir.*

Qərb fəlsəfəsindən yararlanmaq məsələsində ikinci nəzərə alınmalı məsələ *terminlərdir*. Xatırladaq ki, islam dünyasında bu gün tətbiq olunan əksər terminlər orta əsrə məxsusdur. Bunlar kifayət qədər möhkəmlənmiş və təsdiqlənmiş terminlərdir və onlar hətta tərcümədə də bir çox hallarda olduğu kimi saxlanılır. Orta əsrlərdə qədim yunan fəlsəfəsinin inciləri ərəb dilinə tərcümə ediləndə, bir sıra qə-

dim fəlsəfi terminlər ərəbləşdirilmiş və fəlsəfə tarixinin növbəti mərhələsinə də məhz bu şəkildə keçmişdir. Təbii ki, Yeni Dövrdə Qərb fəlsəfəsində əvvəlki terminlərdən istifadə etməklə yanaşı, yaranan fəlsəfi təlimlərə müvafiq olaraq həm bəzi köhnələr yeniləri ilə əvəzlənmiş, həm də yeni terminlər yaradılmış və bu proses bu günə kimi davam etməkdədir. İslam dünyasında uzun illər ərzində hər hansı yeni təlimlər, fəlsəfi sistemlər yaranmadığı üçün, burada yeni terminlərin formalaşmasından da söz gedə bilməz. Lakin biz islami düşüncədə inkişafdan, irəliyə bir addımdan danışırıqsa, burada ilk növbədə terminlər problemi həll edilməlidir. Bu isə iki istiqamətdə aparılmalı olan bir prosesdir: əvvəla, uzun əsrlər boyu fəlsəfi ideyaya "ev sahibliyi" etmiş Qərb fəlsəfəsinin terminlərinin mənimsənilməsi, ikincisi isə yeni terminlərin yaradılması.

İlk istiqamət bir növ Qərb fəlsəfəsi ilə ən yeni dövr islam düşüncəsi arasında bir körpü rolu oynamalıdır. Fərqli «dillərdə» danışmaqla nə fəlsəfələr arasında anlaşma yaratmaq, nə müqayisələr apararaq nəyin pozitiv, nəyin mütərəqqi olduğunu təyinləşdirmək, nə də öz üstün keyfiyyətlərini, öz fərqinin xeyrini, gözəl-

liyini təqdim etmək mümkündür. S.Xəlilov yazır: «Millətlər fərqli olsa da, adətlər, dinlər, dillər fərqli olsa da, böyük ideyanın yolu birdir və bəşəriyyətin bütün böyük zəka sahiblərinin birgə səyi ilə qət edilir!»[1] Deməli, yeni fəlsəfənin böyük ideyanın bir hissəsi, növbəti təzahürü olduğunu təsbitləmək üçün eyni nöqtələri, vəhdət məqamlarını kəşf etmək lazımdır ki, bu da ilk növbədə «eyni dil» – vahid terminologiya vasitəsilə mümkündür.

İkinci istiqamət daha mürəkkəb və çətin prosesdir. Haydegger yazır ki, "dil – varlığın evidir"[2], S.Xəlilov isə, "dil – dünyanın bir modelidir",[3] – deyə bildirir. Deməli, dil – həm immanent hadisədir və "mən"in ifadəsidir, həm də kənar dünyanın bu "mən"dəki inikasıdır. Bir növ dil – iki dünyanın ehtivasıdır. Bu baxımdan, dil və təfəkkür faktorlarının bir-birini tamamlaması xüsusi əhəmiyyət daşıyır. Təbii ki, bunların tarazlığının pozulan vaxtları

---

[1] *S.Xəlilov.* Fəlsəfə: tarix və müasirlik, s. 245.

[2] *Мартин Хайдеггер.* Время и бытие. Статьи и выступления. – М.: Республика, 1993, s. 192.

[3] *Səlahəddin Xəlilov.* Dildə yatan fəlsəfə. «Şüurun yeri» haqqında // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 4, 2008, s. 180.

da olur. Belə ki, *bir var dil təfəkkürün ifadəçisi olur, bir də var dil təfəkkürün istiqamətləndiricisi*. Əlbəttə, elə sahələr var ki, xüsusilə dəqiq elmlərdə, dil istər-istəməz "xidmətçidir". Lakin humanitar sahədə eyni şeyi demək çətindir. Məsələn, hazırda ingilis dili bir dil kimi digər dilləri üstələməklə yanaşı, təfəkkürləri də müəyyən dərəcədə istiqamətləndirir. Hansı təfəkkürləri?

Məhəmməd İqbal əsas əsərini – "İslam düşüncəsinin rekonstruksiyasını" – ingilis dilində qələmə alsa da, təfəkkür qərbli təfəkkürü deyil. Üstəlik yada salsaq ki, bu filosofun ruhunu ifadə edən şeirləri urducadır, onda təfəkkürün dilə nisbətdə necə hakim mövqedə durduğu aydın olar. Deməli, təfəkkür gərək elə bir zirvəyə – fəlsəfi zirvəyə qalxa bilsin ki, nüfuzedici və dinamik enerjiyə malik dilin imkanlarının və tələblərinin əlində aciz qalmasın. *Humanitar sahədə, xüsusilə fəlsəfədə bu zirvə yalnız milli təfəkkürlə, milli ruhla fəth edilə bilir*. Cübranın da dediyi kimi, "dil bütün millətin və ya onun ümumi mahiyyətinin yaradıcılıq təzahürlərindən biridir. Əgər yaradıcılıq

zəifləyirsə, dilin inkişafı da dayanır”.[1] Məhz bu səbəbdəndir ki, elmi əsərini hansı dildə yazırsa yazsın, mütəfəkkir öz ruhunun diktələrini doğma dilində ifadə edir. Və bu da maraqlı faktdır ki, fəlsəfi zirvədə “yerləşmiş” ruh, təfəkkür üçün yad dil, yad mühit, yad təfəkkür heç bir maneə və təhlükə kəsb etmir.

Bununla yanaşı, qeyd etdiyimiz kimi, dil və təfəkkür bir-birini tamamlamalıdır, bir-birinin inkişafını stimullaşdırmalıdır. Təsadüfi deyil ki, fəlsəfə tarixində əhəmiyyətli yerlərdən birini tutan alman fəlsəfəsinin formalaşmasında və inkişafında yüksək zirvəyə qalxa bilməsində, Hegelin də etiraf etdiyi kimi, “yalnız alman təfəkkürü, onun fəlsəfi ənənələri deyil, həm də alman dilinin verdiyi imkanlar müəyyən rol oynamışdır”[2]. Azərbaycanda dil və təfəkkürün qarşılıqlı əlaqəsini öyrənən S.Xəlilovun fikrinə görə, müəyyən səbəblər üzündən elmin geri qalması, milli fəlsəfi fikrin buxovlanması dilin inkişaf ahəngini pozur və “artıq ahəngi pozulmuş dil özü də elmi-fəlsəfi fikrin

---

[1] *Cübran*. Ərəb dilinin gələcəyi // *Cübran*. Sükutun poeziyası, Bakı, “Şərq-Qərb”, 2009, s. 190.

[2] *Səlahəddin Xəlilov*. Təhsil, təlim, tərbiyə. Bakı, 2005, s. 312.

inkişafına mane olan amillərdən birinə çevrilir. Dilin məhdudluğu təfəkkürə də çəpər çəkməyə başlayır”.[1] Deməli, təfəkkürün yeni orijinal ideyalarla zənginləşməsi azdır, bunu ifadə edə biləcək, hətta ona daha da dərinə getməyə imkan verən dil olmalıdır. Bu prosesin qoruyucusu, bələdçisi isə ilk növbədə, yuxarıda da dediyimiz kimi, milli ruhu fəlsəfi zirvəyə qalxmış şəxslərdir. Təsadüfi deyil ki, Haydeqqer düşüncə sahiblərini və şairləri varlığın evinin – dilin qoruyucusu adlandırır.[2] Ərəb dilinin gələcəyindən narahat olan Cübran da belə hesab edir ki, bu dili “diriltməyin yeganə üsulu şairin ürəyində, dilindədir. Şair xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləmində baş verənləri əql dünyasına ötürən, bilik dünyasında baş verənləri bilik xəzinəsinə toplayan bir bələdçidir”.[3] Bəli, şairlər dili zənginləşdirən, onun saflığını qoruyanlardır. Lakin bu, böyük və mürəkkəb bir prosesin yalnız ilk mərhələsidir. Və dilin daha yüksək və sabit bir səviyyəyə – fəlsəfi qata qalxmağa ehtiyacı var. Təsadüfi deyil ki, bəzən şairlərin özləri də yad təsirlərə məruz

---

[1] Yenə orada, s. 311.
[2] *Haydegger*. Ad. çək. əsər., s. 192.
[3] *Cübran*. Ərəb dilinin gələcəyi, s. 194.

qala bilirlər. S.Xəlilov yazır: "Milli elmi dilin formalaşması və ədəbi dilin beynəlmiləl terminlər və elmi üslub hesabına zənginləşməsi prosesinə nəzarət etmək üçün təkcə müşavirələr, terminologiya komitələrinin iclasları kifayət deyil. Bunun üçün həmin dildə elmi və fəlsəfi əsərlər yaradılmalıdır. Dilin gözəlliyi onun səslənmə xüsusiyyətləri və bədii ifadə imkanları ilə müəyyən olunduğu kimi, dilin tutumu da onun ifadə edə bildiyi fikrin dərinliyi və dəqiqliyi ilə müəyyən olunur".[1]

Göründüyü kimi, dediklərimizdə bir-birinə paralel olan iki prosesdən söz gedir: Qərbdən artıq hüquq qazanmış terminlərin alınması və milli dilin eyni dinamikliklə inkişaf etdirilərək yeni terminlərin yaradılması. Bu isə həm islam düşüncəsinin müasir elmin ahəngi ilə ayaqlaşması, həm də dünya fəlsəfi prosesə öz orijinal bəhrəsini verə bilmək qüdrəti deməkdir.

***Şərq fəlsəfəsinin təməl prinsiplərinin yenidən təhlili və müasir nöqteyi-nəzərdən təqdimi.***

---

[1] *S. Xəlilov*. Təhsil, təlim, tərbiyə, s. 311-312.

İdeyanın inkişaf qanunauyğunluğu barədə Hegelin düşüncələrini xatırlayası olsaq, bir zamanlar Şərqdən Qərbə keçmiş ideyanın indi də Qərbdən Şərqə qayıtmalı olması fikri həm məntiqli, həm də zəruri görünər. Sadəcə bu ideyanın yolunu açıb, müvafiq şəraiti yaratmaq lazımdır. Əbu Turxanın bildirdiyinə görə, «bəşəriyyət öz inkişafında bütöv bir tsikl keçərək, inkarı inkar məqamına qədəm qoymuşdur». Bu da vacib bir faktdır ki, yuxarıda da qeyd etdiyimiz kimi, Qərbin Şərqə qayıtması ilə Şərq də özünə qayıdacaq, çünki bu gün aparıcı Qərbdir. S.Xəlilov yazır: «Dünya bu gün bir sıra qlobal problemlərlə üzləşmişdir. Qərb bu problemləri təkbaşına həll etmək iqtidarında deyil. Onun Şərq ruhuna ehtiyacı vardır. Lakin bu ruh çağdaş Şərqin görünən qatlarında görünməz olmuşdur. Şərqin dərin genetik qatlarında uyuyan böyük ruhani gücün qayıdışına nail olmaq çağdaş Şərqin imkanı xaricindədir. Buna nail olmaq üçün Qərbin köməkliyinə ehtiyac vardır».[1] *Bəli, bəşəriyyət maraqlı bir paradoksla üzləşib: Qərb söz demək qüdrətindədir, sözü yoxdur, tükənib; Şərqin isə, unut-*

[1] *S.Xəlilov.* Şərq və Qərb, s. 72.

*muş olsa belə, sözü var, amma onu deməyə qüdrəti yoxdur*. Söz deyəndə biz əbədi hikmətin ifadəsini, qüdrət deyəndə isə bu sözü eşitdirəcək kürsünü və hökmü nəzərdə tuturuq. Maraqlıdır ki, Qərb İslam Şərqinin bu qüdrətə sahib olmasını yalnız tarixdə qalmış və bir daha təkrarlanmayacaq bir hadisə kimi dəyərləndirir. Məsələn, Con Bernal yazır: "İslam sağ qaldı və hazırkı vaxta qədər din və mədəniyyət kimi mövcud olmaqda davam edir. Lakin o, elmi düşüncənin çiçəklənmə dövründəki inkişafının stimulunu bir daha heç vaxt əldə edə bilməyəcək".[1] Sanki buna cavab olaraq görkəmli islam alimi, Nobel mükafatçısı Əbdüs-Səlam deyir: "Orta əsrlərdə elmin ağırlıq mərkəzi islam dünyasında idi... Tarix səhifələrini vərəqləyib, görəsən, elmdə liderliyə nail ola bilərikmi?.. Gənclərimiz, bunu özlərinə məqsəd kimi qarşıya qoymalıdırlar."[2]

---

[1] *Джон Бернал*. Наука в истории общества, М., Изд-во И*Л, 1956, с. 169.

[2] *Abdüs-Salam*. İdealler və gerçekler, İstanbul, Yeni Asya Yayınları, 1991 // Elm adamları elm haqqında. Prof. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, Çaşıoğlu, 2010, s. 41.

İslam düşüncəsinin yenidən dirçəlməsi üçün əhəmiyyətli olan şərtlərdən biri də onun hələ tam kəşf edilməmiş potensialını sərf etməkdir. Bu heç də Qurani Kərimin ayələrinə yeni təfsirlər yazıb İslamın yüksək dəyərləri barədə car çəkmək deyil. Bu, İslamı sevməyənlərə, hətta onu layiq olmadığı tənqidlərə məruz qoyanlara qarşı mənəvi və fiziki cihada hazırlaşmaq da deyil. Xatırladaq ki, Şərq, daha dəqiq desək, İslam müdrikliyi bugünkü Qərb təfəkkürünün tərəqqisinin və cəmiyyətdə müsbət dəyişikliyə səbəb olan cəhətlərinin başlanğıc nöqtələrindən biri, bəlkə də ən əhəmiyyətlisidir. Məsələn, S.Xəlilovun bildirdiyinə görə, «XIV əsrdə 20 illik tədqiqatının nəticəsi olaraq İbn Xəldunun ortaya qoyduğu yeni təlim Avropada bir çox görkəmli Qərb filosoflarının və sosioloqların birgə səyləri ilə 200 il ərzində təzədən, İbn Xəldun irsindən xəbərsiz halda yaradılmışdır. Əsasən Monteskyö, Viko, Russo, Hegel, Kont və nəhayət, Marksın sayəsində yaranıb-formalaşmış tarixin elmi-fəlsəfi konsepsiyası İbn Xəldun təlimi ilə müqayisədə bu gün də solğun görünür. Səbəbi isə bu təlimin əsasında dayanan bir neçə prinsipial ideyadadır ki, onlar Qərb üçün sözün tam mənasında

hələ də aydın deyil».[1] Bununla müəllif bir danılmaz faktı da təsdiqləyir ki, *Qərb təfəkkürü öz inkişafının hansısa bir mərhələsində yanlış bir yerə sapmış və bununla da onun yüksələn xətt boyunca irəliləməsini təmin edən enerjidən ayrı düşmüşdür*. Şərqin Qərbdən alacağı dərslərdən biri də, yəqin ki, budur. Məhəmməd İqbal yazır: «Qoy günümüzün müsəlmanı öz vəziyyətinin nə olduğunu bilsin, qəti və əsas prinsiplərin işığında ictimai həyatını yenidən qursun, indiyə qədər İslamın qismən təzahür edən qayə və məqsədləri içərisindən İslamın son (qəti, həlledici) məqsədi olan mənəvi demokratiyanı çıxararaq inkişaf etdirsin».[2]

İslam aləminin vəziyyətini duymaq üçün ona kənardan baxmaq yox, içində olmaq, həmin halı yaşamaq lazımdır. Bu, həmin halı düzgün dəyərləndirmək üçün yeganə çıxış yoludur. Bu gün Qərb üçün yazan, yəni şərqlidən daha çox qərblini düşünən bir çox müsəlman alimindən islam aləminə daha yaxın olan,

---

[1] *Səlahəddin Xəlilov*. İbn Xəldun – materialist, K.Marks isə idealist simasında // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 2, 2009, s. 10.

[2] *M.İqbal.* İslam düşüncəsində hərəkət prinsipi, s. 196.

onun problemlərini daha aydın dərk edən İzutsunun dedikləri optimal bir yol kimi dəyərləndirilə bilər: «Qəti qənaətim budur ki, bu fəlsəfədə olan yaradıcı enerjiyə yenidən həyat verməyimizin lazımi zamanı gəlmişdir. Bizdən ənənəvi fəlsəfədəki ruhu qədəm qoyduğumuz tarixi dövrə xas olan yeni problemlərlə ayaqlaşa biləcək qədər güclü və dinamik bir fəlsəfi dünyagörüşünə çevirmək, onu yenidən canlandırmaq tələb olunur. Üzərimizdəki intellektual vəzifə budur».[1] Söhbət hansı enerjidən gedir?

İslam fəlsəfəsi çox zəngin və çoxşaxəlidir və onun məhz hansı cəhətinə, hansı ideyasına yenidən həyat verilməsi xüsusi əhəmiyyət daşıyır. Məsələn, yuxarıda da bildirdiyimiz kimi, hər nə qədər İslamın mahiyyətini, ən ülvi cəhətlərini özündə ehtiva etsə də, təsəvvüf təcrid olunmuş şəkildə, bir növ təkbaşına yeni islam düşüncəsinin inkişaf etdirilməsi, artıq kifayət qədər dərinə kök atmış Qərb təfəkkürünə fərqli istiqamət verə bilməsi üçün yetərli deyil. Başqa sözlə desək, istər islam düşüncəsinin bir, istərsə də qarşılıqlı əlaqədə götürülən bir neçə ideyasının izlənməsi olsun, fərq etməz,

[1] *İzutsu.* İslamda Varlık Düşüncesi, s. 49-50.

əsas mahiyyət daşıyan məhz kəsilməz tarix boyunca öz varlığını qoruyub saxlamış ideyadır və məqsəd də məhz bu yaradıcı enerjinin, ideyanın inkişaf xəttinin izlənməsi, onun təzahür səbəblərinin və şərtlərinin təyin və təmin edilməsidir.

Bəli, orta əsrlərdə Qərb dünyası üçün aydın və dəqiq ideyalar bazası rolunu oynaya bilmiş Şərqin bu gün özünün halı dolaşıq, qarmaqarışıqdır. Belə bir halda nəinki başqasına yardım etməsi, heç özünə də bir faydasının ola biləcəyini güman etmək çətindir. Əsrlər boyu İslamda ideya kasadlığı yaşanmış və ona kənardan yad ideyalar «sırınmışdır». Bununla yanaşı, islam aləmində daha bir bəla – *təkrarçılıq ənənəsi də yaranmış, kök salmış və orijinal ideyanın seçilməsini bir problemə çevirmişdir*. Müxtəlif üslublarda illər, əsrlər boyu eyni ideyanı tərənnüm edən əsərlərin, onlara yazılan şərhlərin, şərhlərə də şərhlərin – haşiyələrin yazılması əsl orijinal ideyanın itməsinə və ya təhrif olunmasına səbəb olmuşdur. Bu ənənəni istər təsəvvüfdə, istərsə də Şərq peripatetikliyində aşkar müşahidə etmək mümkündür. Ən acınacaqlı hal isə bu ənənəyə "sadiqliyin" bu gün də qorunub saxlanmasıdır. Biz islam fəlsə-

fəsinin hər hansı bir səhifəsinə, yaxud hər hansı islam mütəfəkkirinin dünyagörüşünə kölgə salmaq fikrindən qəti şəkildə uzağıq. Lakin bu da bir həqiqətdir ki, illər ərzində sadəcə bir neçə ideya dönə-dönə təkrarlanmaqla nəinki yaddaşlarda iz salıb, həm də artıq sadəcə bir simvola çevrilib. İzutsu yazır: «Bir Səbzəvarinin fəlsəfəsi heç toxunulmadan orta əsrlərdəki kimi götürülərsə, bu, yeni problemlərlə üzləşə biləcək bir halda olmayacaqdır».[1] Ondan az əhəmiyyətli olmayan, əksinə bəlkə də daha vacib olan digər bir ideyanı isə tarixin səhifələrində toz basıb. İslamda çox az tədqiqatçının «yadına düşən», Qərbdə isə ümumiyyətlə müraciət olunmayan İbn Xəldun kimi. Biz bir şeyi vurğulamağa çalışırıq: *bu gün İslam Şərqində hakim olan ideyalar yaradıcı enerjini özünü daşıyan orijinallar deyil, daha çox üzərinə qabıq üstə qabıq gəlmiş, illərin, üslubların müxtəlif dərəcədə təhrifə məruz qoyduğu həmin ideyaların surətləridir*.

Təbii ki, eyni hal, yəni orijinal ideyanın yalançı ideyalar arasında itib-batması Qərb fəlsəfəsində də müşahidə edilməkdədir. Deyilən

---

[1] Yenə orada, s. 49.

məsələnin ciddiliyindən yazan S.Xəlilov belə bir fərqli, eyni zamanda, optimal bir təkliflə çıxış edir: «Fəlsəfənin xüsusiyyəti bundan ibarətdir ki, burada məlumat bolluğu, tarixi təfərrüatlar deyil, ideyaların «tərcüməsi» önəmlidir. İdeyalar «tərcümə olunarkən», terminoloji fərqlər aradan qaldırılarkən, mətnlər ortaq məxrəcə gəlir və təkrarlanan hissələr atıldıqdan sonra ancaq yeni, orijinal ideyalar qalır. Bu proses fəlsəfi-tarixi reduksiya prosesidir».[1] Filosof onu da vurğulayır ki, «eyni mahiyyət müxtəlif təzahürlərdə üzə çıxdığından, bəzən qarşıdurmalar üçün də «əsas» yaranır. Əsl məqsəd insan fikrinin hədis və hekayətlər səviyyəsindən elmi anlayışlar səviyyəsinə yüksəlməsi və yenidən mahiyyətə qayıdaraq bu mahiyyətin, bu eyniyyətin nəzəri konseptual dərkidir. Məqsəd bu müxtəlifliyin əsasında dayanan eyniyyətin, alt qatdakı mənanın üzə çıxarılmasıdır». [2]

Burada kiçik bir şərh verək.

Xatırladaq ki, İslamda fundamentalistlər islahatçılıq adı altında bir sıra yeni ideyaların,

---

[1] *S.Xəlilov.* Fəlsəfə: tarix və müasirlik, s. 23.
[2] *S.Xəlilov.* Şərq və Qərb, s. 79.

xüsusilə fəlsəfi cərəyanların da əleyhinə çıxmışdılar və çıxmaqda davam edirlər. S.Xəlilovun isə təklifi fərqlidir. Belə ki, əvvəla, söhbət hər hansı bir inkardan deyil, əksinə, İslamın mütərəqqi ideyalarının əsl mahiyyətinin illərin, siyasi və iqtisadi formasiyaların verdiyi təhriflərdən uzaq şəkildə təhlilindən, öyrənilməsindən və əsl mahiyyətinə uyğun şəkildə tətbiqindən gedir. İkincisi, hər hansı əlavələrdən təmizlənmiş universal xarakterli ideyaların inkişaf xəttini izləməklə, eyni ideyanın Şərqdə və Qərbdə təzahürlərinin fərqlərinin səbəblərini və fəlsəfi düşüncəyə gətirdiyi yeniliyi öyrənməklə, fəlsəfə tarixinin qanunauyğunluğunu izləmək və bununla da növbəti addımı, mərhələni təyinləşdirmək mümkündür. Başqa sözlə desək, müəllif şəkilçilikdən, formallıqdan uzaqlaşaraq ideyaların mahiyyətinə uyğun olaraq qərar verib fikir yürütməyin tərəfdarıdır.

Belə məlum olur ki, islam düşüncəsinin təfəkkürünün potensial qüvvəsi və yaradıcı enerjisini iflic hala gətirən faktlardan biri də onun artıq fikirlərlə, informasiyalarla yüklənməsidir. Əsas hərəkətverici enerjilərin tapılması və onlara yeni həyatın verilməsi məhz bütünlüklə islam fəlsəfəsinin yenidən dirçəldil-

məsi olar. Bunu böyük bir qranit parçasının «artıq hissələrini» atıb ondan möhtəşəm bir heykəl düzəltməyə, yaxud əzəmətli bir ağacı onu basmış, görünməz etmiş alaq otlarından, sarmaşıqlardan təmizləməyə bənzətmək olar.

***Yeni fəlsəfi sistemin təməllərinin təyinində milliliyin rolu.***

Böyük ideyaların vətəni və milliyyəti yoxdur. Müvafiq olaraq bu ideyaları çatdıran vasitə də – musiqimi, sənət əsərimi, fəlsəfi sistemmi – zaman və məkanın fövqünə qalxıb hər cür maddi sədləri aşa bilir. Bu baxımdan, böyük ideyaların ifadə formalarından biri olan fəlsəfi sistemə millilik komponenti qatmaqla ilk baxışda belə güman etmək olar ki, onu göylərdən yerə endiririk, məhdudlaşdırırıq. Burada haqlı olaraq bir sıra sual meydana çıxır. Milli ruh nədir? Milli fəlsəfə kimin maraqlarını daha çox müdafiə edəcək? Bugünə kimi vahid bir orqanizm olan islam dünyasında milli fəlsəfənin yaranması müəyyən parçalanmaya səbəb olmazmı?

Məsələyə qısa bir aydınlıq gətirək.

İslam düşüncəsində hazırda bir xaos hökm sürür. Bununla yanaşı, belə maraqlı bir

fikir də vardır ki, «xaos həmişə xeyir gətirir, çünki sərxoş yuxu ayılma ilə, hissiyyatsızlıq fəaliyyətlə əvəz olunanda millətin gizli imkanları aşkarlanır… Hər dəfə təbii təməlini qoruyub saxlamış milləti xaos bürüyəndə, bu, onun fərdlərində yaradıcılıq gücünün, cəmiyyətində isə hazırlığın əlamətinə çevrilir». [1] Cübranın sözlərində iki fikir üzərində xüsusi dayanaq. Əvvəla, məhz xaosda bir ayılma, başqa sözlə desək, yeni bir nizam formalaşdırmaq imkanı var. İkincisi, bu imkan məhz öz kökünü, təbii təməllərini qoruyub saxlaya bilmiş millətə verilə bilər, çünki Xəlilovun da bildirdiyi kimi, millilik özündə ümumbəşəriliyi ehtiva edir və bu ümumbəşəriliyə çatmaq üçün milliliyə çatmaq lazımdır.[2] Deməli, məqsəd vahid bir ideyanı millilik̇lə bölmək parçalamaq deyil. Məqsəd bu vasitə ilə yeni ideyanın ortaya çıxmasına imkan yaratmaq və ya ümumbəşəri ideyanı həmin millətə xas keyfiyyətlər vasitəsilə təcəssümünü ortaya çıxarmaqdır. Filosofun fikrinə görə, «yaradıcılıq, yenilik özündən əvvəlki zəngin təfəkkür postamenti üzərində milli mü-

---

[1] *Cübran.* Ərəb dilinun gələcəyi, s. 192.
[2] Geniş bax: *S.Xəlilov.* Şərq və Qərb, s. 90-91.

hitdə yetişmiş fərdə məxsusdur və yalnız bu zəmində yetişmiş bir ideya ümumbəşərilik səviyyəsinə qalxa bilər». Cübranın sözləri ilə bəzi məqamlarda səsləşən bu fikrin iki vacib məqamının üzərində dayanaq: əvvəlki zəngin təfəkkür və milli mühit. Birinci bizim bütün məqalə boyu saxladığımız ideya xəttinin təsbitidir – əbədi ideyanın yaradıcı enerjisi itmir, batmır, Cübranın dediyi kimi, «Yeri əhatə edən efir təbəqəsində»[1] qorunub saxlanır və onu dərk edənin təfəkkürü, ideyaları üçün sabit və yüksək bir postament ola bilir. İkinci isə bu postamentin üzərində qurula biləcək heykəldir. Ümumilikdə götürüləndə isə *nə ayrılıqda postament var, nə ayrılıqda heykəl, yalnız ümumi bir abidə var, növbəti nəsil üçün postament ola biləcək (!) abidə.*

Fəlsəfə tarixindən də məlum olduğuna görə, Qərb təfəkkürü Avropada millilik anlayışı formalaşandan sonra təşəkkül tapmışdır. Bu millətlərdən hər birinin öz fəlsəfələri yarandıqca Qərb fəlsəfi təfəkkürü inkişaf etməyə, irəli getməyə başladı. Vacib bir faktdır ki, Qərb fəl-

[1] *Cübran*. Millətlər və onların mahiyyətləri // *Cübran*. Sükutun poeziyası, Bakı, "Şərq-Qərb", 2009, s. 197

səfəsi ümumi bir sistem yox, milli elementləri ehtiva edən bir görüşdür – alman fəlsəfəsi, fransız fəlsəfəsi və s. Milli komponentlərdən başlanan və formalaşan ideyalar son nəticədə bütün Qərbi birləşdirən bir ideologiyaya çevrilə bildi və zaman-zaman bu birlik həm də hakimlik xüsusiyyəti qazandı. Yəni ayrı-ayrı hərəkətverici qüvvələr ümumi bir mexanizmi işə salır, onu irəli aparırlar.

İslam dünyasında durum başqadır və Qərbdə gedən proses – milli təfəkkürün formalaşması baş verməyib. Mübahisələr, təhlillər əsasən təməl üzərində aparıldığından, islam düşüncəsi bu səviyyədən yuxarı qalxa bilməyib və təməl üzərində növbəti mərhələ yaranmayıb. Təbii ki, belə bir durumda milli fəlsəfi fikrin yaranmasından danışmaq da düzgün deyil. Onu da vurğulamaq lazımdır ki, milli fəlsəfi fikir tariximizin köklərini öz tarixi keçmişimizdə axtarmağın özü də istənilən nəticəni verməyə bilər. Çünki S.Xəlilovun da dediyi kimi, “millətin hələ formalaşmadığı bir dövrdə, bu prosesin başlanması üçün heç bir ictimai-iqtisadi və mədəni-mənəvi zəminin olmadığı bir dövrdə nə kimi bir milli fəlsəfə ola bilərdi?» Təsadüfi deyil ki, Qərb mütəfəkkirləri də

islam dünyasına bütöv bir orqanizm kimi baxır, onun daxilindəki hər hansı xüsusiyyətləri, incəlikləri əhəmiyyət dərəcəsindən asılı olmayaraq fərqləndirmir. Belə güman etmək olar ki, bu səbəbdən, İslam aləmi mürəkkəb quruluşlu və istiqamətli Qərb dünyagörüşü ilə rəqabətə davam gətirə bilmir. Üstəlik nəzərə alsaq ki, islam aləminin bir sıra əhəmiyyətli komponentləri də Qərb təfəkkür binasının tikintisində artıq istifadə edilib, onda bu rəqabətin ümumiyyətlə bərabər olmadığı aydın olar. Yəni islami düşüncənin mütərəqqi ideyalarının bəziləri artıq Qərb təfəkkürünün üzvi hissəsinə çevrilib və artıq onun məhsulu hesab edilir.

Deyilənlərdən belə məlum olur ki, islam düşüncəsində hər hansı bir hərəkətin, inkişafın olması üçün onun tərkibindəki incəliklərə – milli komponentlərə həyat verilməlidir. Bunu öhdəsinə götürən şəxs isə, qərbli deyil, Qərbin nisbətində Şərqin durumunu dəyərləndirməyi bacaran, Qərbdəki təfəkkürü, qədimdən bəri uzanıb gəlmiş əbədi ideyanı dərk edən, eyni zamanda, milli köklərinə bağlı, milli ruha malik və bu təməllər üzərində yaradıcı enerjiyə sahib olan bir şəxs olmalıdır.

Bir milli ruhun özünüifadəsi olacaq bu milli təfəkkür ilk növbədə müstəqil olması əhəmiyyətli faktordur. Məhəmməd İqbal yazır: «İslamın yenidən intibahı ilə Avropanın nələr haqqında düşündüyünü və hansı nəticələrə gəldiyini müstəqil bir ruhla tədqiq etmək və islam düşüncəsində aparılacaq islahatda və lazım gələrsə yenidənqurma prosesində bundan necə istifadə edəcəyimizi düşünmək yerinə düşər».[1] Filosof «İslam strukturundakı hərəkət prinsipi kimi məhz "ictihad"-ı – lüğəvi mənası "cəhd etmək", İslam fiqhindəki mənası isə hüquqi bir məsələdə müstəqil hökm verə bilmək məqsədilə səy göstərməyi»[2] əsas götürür. Təsadüfi deyil ki, yuxarıda da qeyd etdiyimiz kimi, ümumbəşəriliyə yol fərddən – özünün spesifikliyini, eyni zamanda digər millətlər arasında yerini dərk edə bilmiş müstəqil millətin müstəqil bir nümayəndəsindən keçir. S.Xəlilov məhz belə bir ehtiyacın varlığını nəzərdə tutaraq yazır: «Başqa ünvandan transfer olunan hər hansı bir ideologiya yox, konkret ictimai gerçəkliyin öz inkişaf məntiqindən doğan

---

[1] *M.İqbal.* İslam düşüncəsində hərəkət prinsipi, s. 112.

[2] Yenə orada, s. 177.

milli bir ideologiya tələb olunur».[1] Müstəqil təfəkkür yaradıcılığın təməl daşıdır, yeni ideyalar üçün əlverişli zəmindir. Bunu Cübran da vurğulayır: «Təqlidçi – heç nə kəşf etməyən, yaratmayandır. O yalnız öz mənəvi dünyasını müasirlərindən götürür, ideyalarının paltarlarını özündən əvvəlkilərin paltarlarından qopardığı cırıqlardan tikir».[2]

Onu da xüsusilə vurğulamaq lazımdır ki, yalnız içində ümumbəşərilik ehtiva edən milli ideyalar əbədi ideyanın inkişaf xəttinə qoşulmaq, onu ifadə etmək imkanına malikdir. S.Xəlilov yazır: «Millətin fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq, millәti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan, milli özünüdərk baryerini keçmiş olan tək-tək şəxsiyyətlərin – filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarət olur».[3] Təsadüfi deyil ki, biz millilik tezisini məhz üçüncü komponent kimi təqdim edirik. İlk ikisi vacibdir və öz içində məhz onları üzvi şəkildə birləşdirə və sığdıra bilən bir milli təfəkkür hərəkətverici

---

[1] *S.Xəlilov.* Şərq və Qərb, s. 101.
[2] *Cübran*. Ərəb dilinin gələcəyi, s. 195.
[3] *S.Xəlilov.* Fəlsəfə: tarix və müasirlik, s. 34.

qüvvəyə çevrilə bilər. Yəni söhbət həm ümumi mənzərəni, həm də spesifik cəhətləri nəzərə almağı bacaran və bundan çıxış edərək yeni ideya irəli sürən bir təfəkkürdən gedir. Belə keyfiyyətə malik şəxsi təsvir edən İzutsu yazır ki, «islam fəlsəfəsi ənənəsində «iki gözə malik insan (zu‘l-ayneyn)» kimi tanınır. Belə bir şəxs sağ gözü ilə Vəhdəti, yəni mütləq Həqiqəti, sol gözü ilə də Kəsrəti, yəni fenomenlər aləmini görər. Vəhdət və Kəsrəti eyni anda qavraya bilmə istedadından əlavə, bu cür insan üçün əhəmiyyətli olan, bu iki müstəvinin həlledici məqamda bir və eyni şey olduğunu bilməsidir».[1]

Deməli, yeni fəlsəfi sistem ilk növbədə hazırda həm Qərbdə, həm də Şərqdə xaotik şəkildə "səpələnmiş" ayrı-ayrı görüşlərin bərpası olacaq. Bu, bir tərəfdən, islami prinsiplərdir ki, istər Qərb təfəkkürünün təməlində, istərsə də islam bölgəsi xalqlarının mədəniyyətlərində kifayət qədər ərimişdir və bu prinsiplərin həqiqi mahiyyətlərinin təqdiminə ehtiyac var. Üstəlik nəzərə alınmalıdır ki, bunların arasında istifadə edilməyən, yaxud təhrif edilərək tətbiq

[1] *İzutsu.* İslamda Varlık Düşüncesi, s. 27.

edilən və bu səbəbdən hələ də öz kəşfini gözləyən ideyalar da vardır. Digər tərəfdən, bu, millətin təfəkküründəki, ruhundakı zərrənin yenidən canlanmasıdır ki, həmin ruhun “qapılarını” əbədiyyətə açır, əbədi ideyanın yeni çalarlarının, qatlarının işıqlanmasına vasitəçi olur.

Nəhayət, yuxarıda qoyduğumuz suallardan sonuncusu: milli fəlsəfənin yaranması islam dünyasında bir parçalanmaya səbəb olmayacaqmı? Əminliklə demək olar ki, xeyir. Əvvəla, İslam – real və böyük təsirə malik təməldir. İkincisi və əsası isə, İslam mahiyyət etibarı ilə səbəblər və şərtlər fövqündə duran əbədi ideyanı ehtiva edir.

İdeyanın ümumbəşəri səviyyəyə qalxması üçün onun yaradıcısı olan fərddən ümumbəşəriyə gedən yolda millilik ara mərhələ olmalıdır. Başqa sözlə desək, bir sıra ideyalar var ki, məhz fərdi səviyyədən yüksəyə qalxa bilmədiyi üçün bəşəriyyətə bir xeyir vermədən sönüb gedir. *Bunun qarşısını almaq, eyni zamanda, bu yaradıcı enerjinin qarşısını kəsən maneələri ortadan götürmək üçün ideyaların daha böyük mənbədən qidalanması, onunla qarşılıqlı şəkildə paylaşması, üzvi şəkildə birləşməsi lazımdır ki, bu da milli fəlsəfi təfəkkür vasitəsilə*

*mümkündür*. S.Xəlilovun da bildirdiyi kimi, “milli ruhun nəzəri-konseptual şərhi”[1] olan və üzərində millətin varlığını və spesifikliyini qoruyub saxlayan milli ideologiya bərqərar olan milli fəlsəfi fikir vasitəsilə![2] Milli ruh keçmiş, tarix üzərində var olmaqla yanaşı, bu gün də varlığını öz təfəkkürü ilə sübut və təsdiq etməyi bacarmalıdır. Təsadüfi deyil ki, Əbu Turxan «Bugünü olmayan xalqın keçmişi də yoxdur», – deyir. İqbal da bunun üzərində xüsusilə dayanır: «Keçmişini tamamilə rədd etmək heç bir millətin lehinə deyil. Çünki millətin simasını təşkil edən onun keçmişidir. İslam cəmiyyəti kimi bir cəmiyyətdə keçmiş institutların gözdən keçirilərək düzəldilməsi məsələsi daha incə bir işdir. İslahatçıların məsuliyyəti daha da ciddidir».[3] Deyilənlərdən belə bir nəticə çıxartmaq mümkündür ki, İslamın əsl dəyərini göstərmək üçün bu təməl üzərində bina tikmək bir zərurətdir. Milli fəlsəfi fikir həm xalqın özəlliyini, spesifikliyini qoruyan, həm də onu daha böyük axınlara qatılıb yox olmasının, hələ bu,

---

[1] *S.Xəlilov.* Şərq və Qərb, s. 93.
[2] Yenə orada, s. 88.
[3] *M.İqbal.* İslam düşüncəsində hərəkət prinsipi, s.185.

məhvə aparan bir axındırsa, qarşısını alan başlıca amildir.

Məsələnin daha bir həlledici məqamına gəldik. Bu missiya hansı Şərq xalqının üzərinə düşür? Hər halda, yuxarıda deyilənlərdən də nəticə çıxardası olsaq, ictimai-iqtisadi və mədəni-mənəvi cəhətləri bir-birini tamamlayan, eyni zamanda, özünü bir millət olaraq təsdiqləyə və dərk edə bilmiş bir millət olmalıdır. Qərb təfəkkürünün hökm sürdüyü, qloballaşma selinin bütün milli spesifiklikləri yuyub apardığı bir dövrdə bir millət kimi öz dəyərlərini qoruyub saxlamaq həm böyük hünər, həm də irəliyə bir addımdır. İqbal bu barədə böyük bir əminliklə yazır: «Həqiqət budur ki, hal-hazırda müsəlman millətləri içərisində doqmatik yuxudan oyanaraq fərdi şüura çatmış yeganə millət türklərdir. Zehni hürriyyət haqqını tələb edən yalnız Türkiyədir. İdeal olandan həqiqətə keçən yalnız odur və bu keçid asan olmayıb».[1] Filosof türklərin islam aləmində də fərqləndiklərini və bizim də yuxarıda tənqid etdiyimiz islam dünyasında az qala bir qəhrəmanlığa bərabər tutulan təkrarçılığı pisləyərək onların öz

---

[1] Yenə orada, s. 181.

sözlərini demək qüdrətində olduqlarını vurğulayır: «Oxşar düşüncə və duyğuları sadalamaq məncə heç bir düşüncə və duyğuya sahib olmamaq deməkdir. Bu gün müsəlman ölkələrin çoxunun vəziyyəti belədir. Onlar keçmiş ənənə və dəyərləri qeyri-şüuri bir şəkildə təkrarlayırlar. Halbuki türklər yeni-yeni dəyərlər yaradırlar. Türk milləti böyük təcrübələrdən keçdikdən sonra öz daxili mənliyini kəşf etmişdir. Onda həyat və hərəkət vardır. O tərpənməyə, genişlənməyə və böyüməyə başlamışdır».[1]

Oxşar fikrə Əmin ər-Reyhanidə də rast gəlmək olar.[2] Yaxud son 300 ildə Qərbdə ən gənc professor kimi Birləşmiş Ştatların Yeel universiteti tərəfindən dünyaya tanıdılan görkəmli kimyaçı Oqtay Sinanoğlu da əminliklə gəlir ki, Şərqin mənəvi zənginliyi və Qərbin maddiyatı arasında körpü qurmaq missiyası türklərin üzərinə düşür. Çünki əlverişli coğrafi

---

[1] Yenə orada.

[2] *Ameen F.Rihani.* Women in the Near East // *Ameen F.Rihani.* The White Way and the Desert. Platform International Washington D.C., 2002, s. 99-107.

mövqeyi onlara mədəniyyət və mənəviyyat zənginliyi bəxş etmişdir.[1]

Bir növ İqbalın və Sinanoğlunun ideyasının davamı olaraq Səlahəddin Xəlilov da ümumiyyətlə Şərqi araşdıraraq belə bir nəticəyə gəlir ki, nə Yaponiya, nə Çin, nə ərəb dünyası «Qərb sivilizasiyasına bərabər tərtibli alternativ ola bilməz».[2] Eyni zamanda o, faktı daha da konkretləşdirir və bildirir ki, türk dövlətləri arasında Azərbaycan öz milli dövlət quruculuğu istiqamətində ilk addım atmışdır və məhz burada müasir dövrün tələblərinə uyğun ideologiyanın formalaşması gedir. Müəllif bunu onunla əsaslandırır ki, «Azərbaycan artıq iki əsrdir ki, Qərb dünyası ilə, Qərb mədəniyyəti ilə sıx təmasdadır. Və Qərblə Şərqin sintezi deyilən möcüzə üçün Yaponiyadan sonra ən gözəl şərait məhz Azərbaycandadır».[3] Məsələ burasındadır ki, «milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır.

---

[1] *Oktay Sinanoğlu.* Bir Nev-York Rüyası. "Bye-Bye" Türkçe, İstanbul, Otopsi, s. 121-122.

[2] *Səlahəddin Xəlilov.* Türk ruhu 3-cü minilliyin astanasında // İpək yolu, №1, 2000, s. 20.

[3] *S.Xəlilov.* Şərq və Qərb, s. 100.

Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir».[1] Deyilənlərə onu da əlavə etmək olar ki, hal-hazırda Yaponiyada elm, texnika nə qədər yüksək inkişaf etsə də, Qərbə meydan oxusa da, öz milli-mənəvi dəyərlərini böyük ehtiyat və diqqətlə qoruyub saxlasa da, eyni yüksək inkişafın yapon xalqının fəlsəfi təfəkküründə də var olmasını demək çətindir. Düzdür, demək olar ki, yaponların dini etiqadları – sintonun çox dinamik olub müasir dövrdə də milli-mənəvi təfəkkürü təmin etdiyini söyləmək mümkündür. Bu məsələ çox mürəkkəb və xüsusi tədqiqat tələb etdiyindən ona yaponşünasların ixtiyarına buraxaq.

Ortaya məntiqli və vacib bir sual çıxır: Avropa, Qərb ideologiyasının fəlsəfi təfəkkürdə kifayət qədər hakim bir mövqedə olduğu, islami prinsiplər daha çox Qərbin "zövqünə" uyğun dəyərləndirildiyi və bunun nəticəsi kimi fəlsəfi təfəkkürlərin qütbləşdiyi bir şəraitdə orta orijinal yol, milli fəlsəfə nəyin hesabına, hansı baza üzərində təşəkkül tapacaq?

---

[1] Yenə orada, s. 88.

Səlahəddin Xəlilov yazır: «Bizim yaxşı bildiyimiz (hər halda bilməli olduğumuz) orta əsrlər islam fəlsəfəsindən və Qərb fəlsəfəsindən fərqli olan, ya formasına, ya metoduna, ya ideyasına görə özünəməxsusluğu olan və məhz bu "öz"lüyə görə bizə doğma görünən, adət etdiyimiz ənənəvi fəlsəfələrdən daha çox nə isə heç janrı da düz-əməlli bilinməyən yeni tipli bir yaradıcılıq! O harada isə bədii yaradıcılıqla elmi yaradıcılığın arasında, daha doğrusu, fövqündədir. Fəlsəfə olmasına rəğmən daha çox esse janrını xatırladır. Klassik fəlsəfi irslə yanaşı, öz müasir ictimai gerçəkliyimizdən, öz bədii-estetik düşüncə ənənələrimizdən və şifahi xalq ədəbiyyatından qaynaqlanır». Bunlarla yanaşı, Şərqdə aparıcı qüvvənin mənəviyyat olduğunu nəzərə alan Xəlilov buna da əmindir ki, «XXI əsr bəşəriyyətin müdriklik əsri olacaq. XX əsrdə bomba ilə, raketlə birləşmiş qələmlər, XXI əsrdə öz yerini sazla, ürəklə birləşən qələmlərə verəcək».[1] Bir az obrazlı, bir az coşquyla deyilən bir sözlərdə əhəmiyyətli bir neçə an var. Əvvəla, XX əsrdə ta Renessansdan təməli qoyulmuş Qərb tənəzzülünün son

[1] *S.Xəlilov.* Türk ruhu, s. 17.

nöqtəsi reallaşmağa başladı. Eyni zamanda, Şərqdə Qərb üçün zəruri olan saf mənəviyyat var, ürək var. Bu ehtiyacı hazırda Qərb Şərq ekzotikasına üz tutmaqla bir növ ödəməyə çalışır. Lakin burada üçüncü və başlıca bir an da var: ürəklər qələmləri, ağılları birləşdirir və məhz bu amil XXI əsrin müdriklik əsri olmasına səbəb ola bilər: milli ruhun birləşdiricilik faktoru və tərəqqiyə aparan ideologiyanın formalaşması üçün aparıcılıq missiyası.

Bu gün fəlsəfə tarixləri tədris edilir. Bu kitablarda Şərq fəlsəfəsi gah bir neçə səhifə həcmində verilir, gah da ümumiyyətlə verilmir. Bir çox Şərq alimləri, tədqiqatçıları bununla mübarizə aparır, bu ədalətsizliyi aradan götürməyə çalışır, bu istiqamətdə konfranslar, simpoziumlar keçirir, Şərqin şanlı keçmişini xatırlatmağa və Qərbin onu fəlsəfə tarixindən silməyə mənəvi haqqının olmadığını sübut etməyə çalışırlar. Bütün bunlar hörmətə layiq olmaqla yanaşı, fəlsəfə tarixinin nə bugünündə, nə də sabahında İslam fəlsəfəsinin yerinin təmin edilməsi düşmək üçün yetərli deyil. Axı, bu tarix yazılmaqda davam edir. Səlahəddin Xəlilov yazır: «Fəlsəfə tarixi ümumbəşəri fəlsəfi fikrin vahid bir proses kimi inkişaf yolunu

əks etdirir. Təbiidir ki, ilk fəlsəfə tarixçiləri də məhz filosofların özləri olmuşlar».[1] Hansı dövrdə isə fəlsəfi fikrin inkişafında fasilə yaranında, aktual fəlsəfə olmayanda, millətin ona qədərki bütün fəlsəfi yaradıcılıq səyləri də sanki itir və bütövlükdə milli fəlsəfi fikir tarixi qaranlıqda qalır. Yəni milli fəlsəfi fikir dünya fəlsəfə tarixində öz mövqelərini itirmiş olur. Bax, ona görə də, bu gün nəhayət öz fəlsəfəmiz yaranmasa, sabahın fəlsəfə tarixi kitablarından ümumiyyətlə bizim adımız silinəcəkdir.

Dini fəlsəfi fikir isə müasir şəraitdə ancaq milli fəlsəfi fikir kontekstində möhkəmlənə bilər.

[1] *S.Xəlilov.* Fəlsəfə: tarix və müasirlik, s. 34.

# *N Ə T İ C Ə*

Müqəddəs, gözəl, ülvi xüsusiyyətləri ehtiva edən elə möhtəşəm ideyalar var ki, özlərində ali bir missiya daşıyırlar – maddi tələbat və mənəvi dəyərlər arasındakı tarazlığı qoruyub saxlamaq, bəşəriyyəti düşüncə böhranından xilas etmək cəhdləri kimi.

İdeyaların doğulması, inkişafı və reallaşması əslində iki prosesin bir-birini üzvi şəkildə tamamlamasıdır. İdeyanın ilahi aləmdən insana qədər uzanan kəşf yolu və insandan geri – ilahi aləmə qədər yüksələn idrak yolu. Burada ilk nəzərə çarpan insanın ideyalar dünyası, ilahi ruh, ali qüvvə ilə vasitəsiz əlaqə imkanıdır. Bəşər tarixinə baxanda belə bir qənaətə gəlmək mümkündür ki, dünyada baş verən hadisələr, elmin inkişafı bu trayektoriyadan kənara çıxanda fəlakətə, böhrana səbəb olmuşdur. Əl-

bəttə, ali qüvvənin iradəsi və mövcudluğun qanunauyğunluğuna müvafiq olaraq zaman-zaman insanların yaddaşlarını “təzələyən” şəxslər doğulmuşdur. Qurani Kərimdə deyildiyi kimi, “Hər qövmün bələdçisi var” (Quran 13/7). Bu şəxslər tarixdə peyğəmbərlər, nəbilər və ...fəlsəfə, müdriklik zirvəsinə yüksələ bilən, ilahi kəşfi sezən alimlər, şairlər, bəstəkarlar kimi tanınmışlar. İlahi hikməti dövrə, millətə, ictimai-siyasi şəraitə uyğun şəkildə təqdim edən bələdçilər!

Təbii ki, İslam da istisna deyil. Onun da inkişaf tarixində çiçəklənmə çağları, yaxud öz mahiyyətindən sapmaları olmuş, onun da hər hansı ideyasının yanlış istifadəsi, təhrif edilməsi böhranlara gətirib çıxarmışdır. Bəzən dövrün sərt və tərs tələbləri nəyin həqiqət, nəyin fəlakət olduğunu seçməyə mane olmuşdur. Belə olan halda, köməyə yenə də bələdçilər gəlmiş və onlar Məhəmməd peyğəmbərdən (s.) sonra da İslamın mahiyyətinin – tarix boyu varlığın təminatı olan Həqiqətin bəşəriyyətə çatdırılmasında, sapmaların qarşısının alınmasında yardımçı olmuşlar.

Hər ideyanın təzahürü onun mahiyyətini tam ifadə edə bilməsə də, ona müvafiq olub-

olmaması vacib məqamlardan biridir. Əbu Turxan deyir: “Hər hansı bir şeyin gözəlliyi onun öz ideyasına adekvatlıq dərəcəsi ilə ölçülür”. İnsanın yaratdığı şey, əsər, yaxud baş vermiş hadisə öz ideyasına nə qədər yaxındırsa, onunla səsləşirsə, bir o qədər həmin ilahi gözəllikdən, ülviyyətdən öz payını ala bilir. Əksinə, mahiyyətdən uzaqlaşdıqca eybəcərlik də artır, naqislik də, yanlışlıq da.

İslamın ideyalarının reallaşmasında, tətbiqində də eyni hallar yaşanmışdır. Onun mahiyyətinin bəzi anlarına, məqamlarına işıq salan görüşlər və təlimlər bir xalqın nailiyyəti olmaqdan çıxmış – zaman-məkan çərçivəsini aşıb əsrlər boyu bütöv bəşəriyyətin xidmətində dayanmışdır. Deyilənlərin mükəmməl nümunəsini təsəvvüfdə müşahidə etmək olar.

Dinindən, dilindən, irqindən asılı olmayaraq, düşünməyi və duymağı bacaran hər kəs təsəvvüfün ehtiva etdiyi və çatdırmaq istədiyi həqiqətlərin möhtəşəmliyinə heyran qalır və bu həqiqətlərin təsiri ilə qəlblərindən ülviyyətə bir qapı açılır. Təsadüfi deyil ki, bizim müraciət etdiyimiz filosoflar da təsəvvüfü İslamın mahiyyətini daha mükəmməl əks etdirən, islam müdrikliyinin tərənnümçüsü və insanlar

arasında sağlam körpü, ümumbəşəri ideya kimi qəbul edirlər.

İdeyalar dünyasına aid olan hər bir ideya özündə həm maddi aləm üçün nəzərdə tutulan və təzahürü vacib olan müəyyən bir həqiqəti, həm də yaradıcılıq enerjisi adlandıra bildiyimiz hərəkətverici və istiqamətverici qüvvəni ehtiva edir. Bu həqiqəti həmin ideyanın missiyası da adlandırmaq olar. Həqiqət reallaşmayana, enerji lazımi nəticəyə gətirib çıxarmayana və tam sərf olunmayana qədər ideya öz məskənini, öz optimal təzahür formasını axtarır. Əlbəttə, bəzən zəmanə, ictimai-siyasi şərait həmin ideyanı ümumiyyətlə unutdura, təhrif edə bilər. Lakin bu da danılmaz bir həqiqətdir ki, heç bir maddi səbəb, maneə ilahi qüdrətin, iradənin qarşısını ala bilməz. İdeya sadəcə uyğun şərait və uyğun vasitəni – onu reallaşdıra, çatdıra biləcək şəxsi gözləyir.

İslam öz potensialını tam reallaşdırmamış ideyadır. Düzdür, o, ayrı-ayrı mütəfəkkirlərin görüşlərində, fəlsəfi sistemlərdə bu və ya digər dərəcədə öz əksini tapmışdır. Lakin bu, ya hissə-hissə baş vermiş və başqa yad ideyaların çərçivəsində təqdim olunmuşdur – kəlamçılarda, yaxud məşşailərdə olduğu kimi; ya

da, təsəvvüfdə olduğu kimi, bu reallaşma davamlı olmamış, yarı yolda ona fərqli istiqamətlər verilmiş, yad təsirlərin təzyiqi altında əsl missiyası arxa plana keçmişdir Təbii ki, yanlışlıqları düzəltmək cəhdləri də olmuşdur. İbn Sinadan, Əbu Hamid Qəzalidən, İbn Rüşddən, islahatçılardan (İbn Teymiyyə) və başqalarından tutmuş, İmam Rəbbani, Molla Sədra, Cəmaləddin Əfqani və başqalarından keçib ta Məhəmməd İqbala, Seyid Hüseyn Nəsrə, Beynəlxalq İslam Düşüncəsi İnstitutuna (İsmail Faruki, Əbu Süleyman və b.), Səlahəddin Xəlilova və Kənan Gürsoya qədər davam edən böyük bir proses. Bu proses boyu atılan bəzi addımlar böyük nailiyyətə səbəb olmuş, bəziləri isə başqa səhvlərə yol açmışdır. Bunların arasında daha böyük missiya daşıyan şəxslər – islam düşüncəsinin təməlində dayanan ideyanın qırılmaz proses boyu davam etməsini, başqa keçici ideyaların yedəyində vurnuxmaqdansa öz istiqamətini tapıb irəli getməsini, ən əsası isə, İslamın gerçək potensialının bütün bəşəriyyət naminə üzə çıxmasını təmin edənlər də vardır.

İslam düşüncəsinin əsasən eninə inkişaf etdiyi, daha çox maarifçiliyə və təbliğatçılığa

üstünlük verildiyi, ayrı-ayrı təfərrüatlar üzərində geniş müzakirələr aparıldığı halda, fundamental elmi-fəlsəfi problemlərin az işıqlandırıldığı müasir dövrdə islam fəlsəfəsinin dərininə inkişaf etdirilməsi istiqamətində aparılan tədqiqatlar xüsusi dəyərə malikdir. Ona görə də, eyni ad altında yazılan müxtəlif əsərlər içərisində məhz fəlsəfi baxımdan maraq doğuran tədqiqatların seçilərək ayrılıqda nəzərdən keçirilməsinə və müzakirələrin mahiyyət məcrasına yönəldilməsinə böyük ehtiyac vardır.

# *Ə D Ə B İ Y Y A T*

***Azərbaycan dilində***

Abdüs-Salam. *İdealler və gerçekler*, İstanbul, Yeni Asya Yayınları, 1991 // *Elm adamları elm haqqında.* Prof. Səlahəddin Xəlilovun təqdimatında. Bakı, Çaşıoğlu, 2010.

Cübran. *Ərəb dilinin gələcəyi* // Cübran. *Sükutun poeziyası*, Bakı, Şərq-Qərb, 2009.

"-------", *Millətlər və onların mahiyyətləri* // Cübran. *Sükutun poeziyası*, Bakı, Şərq-Qərb, 2009.

Əbu Süleyman. Əbdülhəmid Əhməd. *Müsəlmanın iradə və mənəviyyatının böhranı,* Bakı, "İdrak" İctimai Birliyi, 2009.

əl-Əlvani, Taha Cabir. *İslam düşüncəsinin islahı,* Bakı, "İdrak" İctimai Birliyi, 2009

"-------", *Müasir dövrdə məfkurə böhranı: diaqnostika və həll üçün verilən təkliflər* , Bakı, "İdrak" İctimai Birliyi, 2009

Fəlsəfi etüdlər // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 3-4, 2006.

İqbal, Məhəmməd. *Bilik və təcrübə* // Fəlsəfə və social-siyasi elmlər, № 4, 2008.

"-------", *İslam düşüncəsində hərəkət prinsipi* // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 4, 2009

"-------", *İslam mədəniyyətinin ruhu //* Fəlsəfə və sosial-siyasi elmlər, № 1, 2009.

"-------", *İnsan "mən"i, onun azadlığı və əbədiliyi* // Fəlsəfə və sosial-siyasi elmlər, № 3, 2009.

Kənan Gürsoyla AFSEA-da görüş // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 1, 2009.

"-------", // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı, № 2, 2009.

Xəlilov, Səlahəddin. *Dildə yatan fəlsəfə. «Şüurun yeri» haqqında* // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 4, 2008.

"-------", *İbn Xəldun – materialist, K.Marks isə idealist simasında* // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı. № 2, 2009.

"-------", *İslam fəlsəfəsi nə vaxtdan başlayır* // Fəlsəfə və sosial-siyasi elmlər, № 1, 2010.

"-------", *Kəsilməz tarix və dövlətçilik ənənələri* // İpək yolu, Beynəlxalq elmi ictimai-siyasi jurnal, № 1, 2001.

"-------", *Şərq və Qərb. Ümumbəşəri ideala*

*doğru* (fəlsəfi etüdlər). Bakı, «Azərb. Universiteti», 2004.

"-------", *Tarixin səhvi: islam və xristianlıq sivilizasiya kontekstində*// http://felsefedunyasi.org /site/?name=xeber&news_id=44

"-------", *Təhsil, təlim, tərbiyə*. Bakı, 2005.

"-------", *Türk ruhu 3-cü minilliyin astanasında* // İpək yolu, №1, 2000.

***Türk dilində***

Akbayrak, Ahmet. *Muhammed İkbal sözlüğü*. İstanbul, Lamure, 2005

Fahri, Macit. *İslam felsefesi tarihi* / Terc. K.Turhan. İstanbul: Ayışığı kitabları, 1998.

Gökberk, Macit. *Felsefe tarihi*. İstanbul: Remzi Kitabevi, 1999.

Gürsoy, Kənan. *Bir Felsefe Gelenegimiz Var Mı?* İstanbul, Etkileşim Yayınları, 2006.

İbn Miskəveyh. *əl-Hikmətu'l-xalidə* (Cavidan Xirad), Beyrut, 1983.

İzutsu, Toshihiko. *İslamda Varlık Düşüncesi*. Tərc. İ.Kalın, İstanbul, 2003.

Kutluer, İlhan. *İslamın klasik çağında felsefe tasavvuru*. İstanbul, İz yayıncılık, 2001.

Nasr, Seyid Hüseyn. *İslam ve Modern İnsanın Çıkmazı*. İstanbul, İnsan yayınları, 2004.

Özkan, Sənail. *Nietzsche. Kaplan sırtanda felsefe.* İstanbul, Ötüken, 2007.

Sinanoğlu, Oktay. *Bir Nev-York Rüyası. "Bye-Bye" Türkçe*, İstanbul, Otopsi,

Suad el-Hakim. *Ibnü'-Arabi sözlüğü,* çev.: E.Demirli, İstanbul, Kabalcı Yayınevi, 2004.

www.hakikat.net/icerik/anasayfa_hristiyanlik/diya logtan_misyonerlige.php

***Rus dilində***

Бернал, Джон. *Наука в истории общества*, М., Изд-во И*Л, 1956.

Кепель, Жиль. *Джихад. Экспансия и закат исламизма.* Москва, Научно-издательский центр «Ладо-мир», 2004.

Кулиев, Эльмир. *Коран и глобализация*: *в поисках гуманистических идеалов.* Баку, «Абилов, Зейналов и сыновья», 2005.

Надви, Абу-ль-Хасан Али. *Что потерял мир по причине отхода мусульман от Ислама*. Пер. с англ. М., Изд. дом «Ансар», 2006.

Наср, Сейид Хусейн. *Что такое традиция* // http://www.newatropatena.narod.ru/p22.htm

Ницше, Фридрих. *Так говорил Заратустра: Книга для всех и ни для кого*. М., Мартин, 2005.

Хайдеггер, Мартин. *Письмо о гуманизме // Время и бытие. Статьи и выступления*. – М.: Республика, 1993.

Хаксли, Олдос. *Вечная философия*. М., Изд-во Эксмо, 2004.

Эко, Умберто. *Полный назад. «Горячие войны» и популизм в СМИ*. М., Эксмо, 2007.

***İngilis dilində***

Abu Sulayman, Abdul Hamid A. *Crisis in the Muslim Mind.* Trans. by Yusuf Talal DeLorenzo. International Institute of Islamic Thought, Herndon, Virginia USA, 1997.

"-------", *Towards an İslamic Theory of International Relations: New Directions for Methodology and Thought*, Herndon, Virginia USA, 1993.

al-Alwani, Taha Cabir. *Issues in Contemporary Islamic Thought*. London-Washington. 2005.

Badri, Malik. *Contemplation an Islamic Psychospiritual Study,* Herndon, Virginia USA, 2000.

Faruki, İsmail R. and Faruki, Lois Lamya. *The Cultural Atlas of İslam,* New York, MacMillan Publishing Company, 1986.

Islamization of Knowledge. General Principles and Work Plan. Edit. by Abdul Hamid A. Abu Sulayman. International Institute of Islamic Thought, Herndon, Virginia USA, 1995.

Kalın, Ibrahim. *God, Life and the Cosmos.* Ashgate, 2002.

Rihani, Ameen F. *Women in the Near East* // Ameen F.Rihani. *The White Way and the Desert..* Platform International Washington D.C., 2002

www.ismailfaruqi.com/news/dr-ismail-al-faruqis-approach-to-islamization-of-knowledge/

***Ərəb dilində***

سهروردي شهاب الدين يحيي. شيخ إشراق. مجموعة دوم مصنفات, بقلم هنري كربين, تهران, 1952

ابو سليمان عبد الحميد احمد. الرؤية الكونية الحضارية القرآنية. المنطلق الاساس للإصلاح الإنسان. د ار الإسلام المعهد العالمي الفكر الإسلامي, 2009

جبران خليل جبران. المصنفات. 2 م. 1ج. العربية. nəşr ili və yeri yoxdur

جبران خليل جبران. المصنفات. 2 م. 2 ج. المعربة. nəşr ili və yeri yoxdur

# MÜNDƏRİCAT

*Ön Söz* ................................................................ 3
*G İ R İ Ş*............................................................. 10

## İSLAM DÜŞÜNCƏSİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Dinin ilk bilik bazasının yaranması.................. 22
Yad təfəkkürlə islam fəlsəfəsinin sintezi ......... 29
İslam düşüncəsinin durğunlaşması................... 35

## İSLAM FƏLSƏFƏSİNİN ƏN YENİ TARİXİ

Modernistlər .................................................... 49
İslahatçılar....................................................... 55
Vəhdətçilər ...................................................... 69

*N Ə T İ C Ə* ....................................................... 140
*Ə D Ə B İ Y Y A T* .............................................. 146

**Könül Yusif qızı Bünyadzadə**
**İslam fəlsəfəsi: tarix və müasirlik**